

# ŞUŞADAN QORİYƏ GEDƏN YOL

ZƏHRA MURADOVA

BAKI-2022

**ZƏHRA MURADOVA**

# ŞUŞADAN QORİYƏ GEDƏN YOL

**Bakı – 2022**

Elmi redaktor: **Vidadi Xəlilov,**
pedaqogika üzrə elmlər doktoru, professor

Məsləhətçi: **Vasif Quliyev,**
Azərbaycan yazıçılar və Jurnalistlər birliklərinin üzvü,
“Şuşa” qəzetinin baş redaktoru

Rəyçilər: **Ofelya Piriyeva**,
pedaqogika üzrə elmlər doktoru, dosent

**Mahirə İbadova**,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Texniki redaktor: **Tavat Muradlı,**
Azərbaycan Respublikasının Təhsil İnstitutu, böyük elmi işçi

"Orxan" NPM. BAKI-2022. Səh 176

***Kitabda Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının fəaliyyəti barədə, orada Azərbaycan maarifinin, təhsilinin inkişafında xidmətləri olan şuşalı məzunlar haqqında ətraflı məlumat verilmişdir.***

İSBN
**DOI: https://doi.org/10.36719/2022/176**

# CƏNUBİ QAFQAZIN MAARİFÇİLİK TARİXİNDƏ QORİ SEMİNARİYASI

***Açılan hər bir məktəb bir həbsxananın bağlanması deməkdir.***

**Viktor Hüqo**

Qafqazın elm-təhsil mühitinin inkişafında, daha da zənginləşməsində Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının çox böyük rolu olmuş, fəaliyyət istiqamətləri ilə diqqəti cəlb etmişdir.

Aparılan tədqiqatlar əsasında məlum olmuşdur ki, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını təxminən 250 nəfər azərbaycanlı bitirmişdir. Bunlardan yüz nəfərdən çoxu Azərbaycanın möhtəşəm şəhəri Şuşadan olmuşdur.

Bu kitabda xalqımızın elm, təhsil, mədəniyyət sahəsində uğur qazanan, Qori Müəllimlər Seminariyasını bitirən həmin ziyalılardan 47 nəfərinin həyat və yaradıcılığı haqqında məlumat verilmişdir.

Ümumiyyətlə, seminariyanın yetirmələri mükəmməl bilik və bacarıqlara yiyələnmiş və Azərbaycanda savadsızlığın aradan qaldırılmasında, təhsil sahəsinin inkişafında mühüm rol oynamışlar. Seminariyanı bitirənlər bir-birindən fərqli olmuş, lakin hər biri ölkədə gərəkli ziyalı kimi tanınmışdır. Buna görə də Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının fəaliyyəti istiqamətlərini araşdırmaq, tədqiq etmək həmişə aktuallıq kəsb edib. Bununla bağlı bir sıra kitablar və məqalələr nəşr edilib. Fikrət Seyidovun "Qori seminariyası və onun məzunları", Hüseyn Əhmədovun "XIX əsr Azərbaycan məktə-

bi" kitabları mötəbər mənbələrdən sayılır. Həmin təhsil ocağı haqqında aydın təsəvvür var.

Məlum olur ki, seminariyanın açılmasında əsas məqsəd geniş, hərtərəfli biliyə malik, hazırlıqlı xalq müəllimi yetişdirmək idi. Bu isə heç də asan iş deyildi. Çünki müəllimlik bütün dövrlərdə şərəfli peşə sayılır. Təsadüfi deyil ki, dünyanın ən böyük alimləri və dövlət xadimləri müəllimlik peşəsini yüksək qiymətləndiriblər.

Müəllimlik səbir, bacarıq, yüksək savad və peşə vərdişləri tələb edir. Çünki müxtəlif sənət sahibləri, alimlər də elmin əsaslarını ilk dəfə müəllimlər vasitəsilə öyrənirlər.

Qori Müəllimlər Seminariyasının, pedaqoji kollektivinin əsas məqsədi də məhz hərtərəfli bilik və bacarıqlara malik olan, xalqın rəğbətini qazanan, maariflənmə uğrunda dövrünün bütün çətinliklərindən baş çıxara bilən xalq müəllimi yetişdirmək idi.

Həmin müəllimlər yaşadıqları mühitə uyğunlaşmalı, xalqın həyat tərzi ilə yaxından tanış olmalı, qayğıları ilə yaşamağı bacarmalı idilər. Yəni, bilməli idilər ki, seminariyanı bitirdikdən sonra onları hansı çətinliklər gözləyir və bu ziddiyyətləri necə həll edə bilərlər. Elə bir dövr idi ki, kasıb yaşayanların, habelə savadsız insanların sayı çox idi. Dini xürafata uyanlar uşaqları təhsildən yayındırırdı, onların məktəbə cəlb olunmasına mane olur, müəyyən çətinliklər törədirdilər. Həmçinin müəllimlərin məvacibləri də az olduğundan dolanışıqları yaxşı deyildi. Bütün bunlardan xəbərdar olan və xalqın gələcəyini düşünən, dövrün ağıllı, uzaqgörən və xalq arasında nüfuzu olan əsl ziyalılar gənc nəslin nümayəndələrinin orada oxumasına və xalq müəllimi kimi yetişməsinə can atır, müvafiq yardım edirdilər. Bu da məlumdur ki, seminariyanın yaranma tarixi haqqında müxtəlif fərqli fikirlər mövcuddur.

Aparılan tədqiqatlar nəticəsində müəyyən olub ki, Cənubi Qzfqazda ilk seminariyanın açılması üçün verilən qərar öncə bir neçə mərhələdən keçərək sonda çara təqdim olunmuşdur. Nəhayət, seminariyanın açılmasına 1875-ci il aprelin 8-də icazə verilmişdir. Bu tarix "Zaqafqaziya Müəllimlər Seminariyasının Əsasnaməsi"ndə göstərilir. Lakin əsasnamədə yazılır ki, seminariya 1 il 5 aydan sonra, yəni, 1876-cı ilin sentyabrın 12-də fəaliyyətə başlayıb. *(Gürcüstan Xalq Maarifi Muzeyinin arxivi, iş №70, səh.3).*

Seminariyaya ilk gündən Rusiyanın xalq müəllimi, ictimai xadim D.D.Semyonov rəhbərlik edərək bu şərəfli vəzifəni 1902-ci ilədək layiqincə yerinə yetirib. O, bu vəzifəni məmur kimi deyil, həyatı və cəmiyyəti dərk edən bir maarifpərvər insan kimi aparırdı. Daha aydın olmaq üçün 1881-ci ildə Peterburqda II Aleksandrın öldürülməsi ilə bağlı bir hadisəni nəzərdən keçirmək kifayətdir. Hadisə ilə bağlı Qori Müəllimlər Seminariyasında da axtarış gözlənilirdi. Buna görə də D.D.Semyonov yuxarı sinifdə oxuyanlardan etibar etdiyi bir neçə şagirdi yanına çağıraraq deyib: ***"Mənim dostlarım, bizi çox xoşagəlməz hadisə gözləyir. Sabah seminariyada və pansionda axtarış aparmaq üçün Tiflisdən gizli polis kapitanı gələcək. Əgər sizdə elə bir şübhəli kağız və ya kitab varsa, onu ya yandırın, ya da uzaqda gizlədin. Mənim xahişimi yerinə yetirməkdə gecikməyin".***

Bəli, bu deyilənlərdən D.D. Semyonovun nə qədər demokratik bir pedaqoq olduğu anlaşılır. O, işlədiyi müddətdə seminariyadan və ona verilən rəsmi hüquqlardan heç vaxt yanlış məqsədlər üçün bəhrələnməmiş, əksinə, onlardan istifadə edərək xeyirxah əməllər sahibi olmuş, istər şagirdlərlə, istərsə də müəllim kollektivi ilə həmişə – hər an ədalətli davran-

mışdır. Bax, elə buna görə də o bir xalq müəllimi kimi sevilirdi, rəğbət qazanırdı.

Zaqafqaziya Müəllimlər Seminariyası özünəməxsus maraqlı iş sistemi ilə fəaliyyət göstərirdi. İstər təlim, istərsə də tərbiyə sahəsində seminariyanın maraqlı iş üsulları, iş təcrübəsi, tədbirləri var idi.

Professor F.Seyidovun araşdırmalarından məlum olur ki, seminariyada təlim-tərbiyənin təşkili prosesi qeyri -adi üsullarla həyata keçirilirdi. Burada tədris ilinin əvvəlində pedaqoji şura tərəfindən xüsusi komissiya yaradılırdı. Komissiya üzvləri müəllim kollektivi arasından əxlaqi keyfiyyətləri və biliyi ilə digərlərindən fərqlənən müəllimləri sinif tərbiyəçiləri və növbətçi tərbiyəçilər seçirdilər. Sonra tərbiyəçi müəllimlərin fəaliyyəti üçün xüsusi təlimat tərtib edərək onlara təqdim edirdilər. Tərbiyəçi müəllimlər bu təlimatlar əsasında şagirdlərdə mənəvi, etik tərbiyənin, bir-birinə münasibətin, davranışın, nəzakət qaydalarının, geyim tərzinin, təmizliyin, dərsə və təlimə münasibətin, kitaba və dərs vəsaitinə qayğının, ətraf mühitə münasibətin formalaşmasına çalışırdılar. Seminariyadan kənar yerlərdə davranış mədəniyyətinin, təbiətin qorunmasının qayğısına qalmaq və digər müsbət keyfiyyətlərin tərbiyə olunması diqqətə çatdırılırdı. Həmin təlimatlarda hər iki istiqamətdə çalışan tərbiyəçilərə vəzifələri aydın göstərilirdi. Bir sözlə, bu təlimatlar şagirdlərdə əxlaqi, mədəni, mənəvi tərbiyə formalaşdırmağa zəmin yaradırdı.

Təlimatda göstərilənlər bütövlükdə sinif tərbiyəçiləri və nəzarətçi tərbiyəçilərin mühüm vəzifələri sayılırdı. Sinif tərbiyəçiləri şagirdlərin tərbiyəsi, təlimi ilə bağlı məsələlərlə, həmçinin seminariyadan kənarda özlərini necə aparmalarına xüsusi nəzarət edir, müstəsna hallarda şöbənin inspektoru və seminariyanın direktoruna məlumat verirdilər.

"Növbətçi tərbiyəçinin və sinif tərbiyəçisinin gündəliyi" adlı xüsusi qeyd kitabı var idi. Bu kitabda hər şagirdin xarakteri və növbətçilik müddətində onların yaxşı və pis hərəkətləri qeyd olunurdu. Bu kitabda pansionun həyatında baş verən mühüm hadisələr də yazılırdı. Bütün bunları həyata keçirmək üçün xüsusi tələblər isə mövcud qaydada, sistemli şəkildə tərtib edilərək şagirdlərə təqdim olunurdu.

Seminariyada təlim-tərbiyə məsələlərinə çox ciddi yanaşılırdı. Tələbələr arasında bir -birindən küsmək, təhqiramiz sözlər demək, dalaşmaq və bu kimi bir çox hallar, hətta qısa müddətdə belə növbətçi müəllimin icazəsi olmadan müəssisədən kənara çıxmaq qəti şəkildə qadağan edilirdi. Seminariyadakı qadağalardan biri də tələbələrin bir-birilə ana dilində deyil, yalnız rus dilində danışmaları idi. Təbii ki, rus olmayan xalqın mütərəqqi ənənələrinə, insanlarının qabaqcıl rus mədəniyyətinə və onun inkişafına münasibəti müsbət idi, hörmətlə yanaşırdılar. Ancaq doğma ana dilində danışmamaq onların qüruruna toxunur və gizli də olsa, buna qarşı çıxırdılar. Bir sözlə, tələbələr seminariyanın qayda-qanunlarına tabe olmalı və onu sözsüz yerinə yetirməli idilər. Əks halda onlara xüsusi cəzalar verilir, hətta seminariyadan xaric edilirdilər.

Seminariyada təlim prosesinin səmərəliliyinə xüsusi diqqət yetirilirdi. Burada rus dili və ədəbiyyatı, pedaqogika, didaktika dərsləri ilə yanaşı, rəsm, musiqi dərslərinə də xüsusi fikir verilir və musiqinin elementar nəzəriyyəsi öyrədilirdi. Seminariyada səsli, nəfəsli orkestrlər və xor var idi. Skripkada çalmaq və xorda oxumaq təlimi məcburi idi. Seminariya tələbələrini tez-tez Tiflisə aparırdılar ki, onlar Avropa opera klassiklərinin nümunələri ilə tanış olsunlar. Bütün bunlar bir daha göstərir ki, rəsm və musiqi insanın ruhunu oxşadığı kimi təfəkkürünün də inkişafına, yaradıcılığına xüsusi təsir

göstərir. Məhz bu səbəbdəndir ki, seminariyanı bitirən məzunların əksəriyyəti görkəmli şəxsiyyətlər olub.

Təhsil alanlar əldə etdikləri bilikləri başqalarına ötürmələri üçün xüsusi bacarıqlar, səmərəli yollar, üsullar öyrənirdilər. Tələbələrə bildirilirdi ki, onlara ibtidai məktəb müəllimi və dini əxlaq üzərində qurulmuş xalq maarifi kimi sahə tapşırılacaq.

Azərbaycan bölməsi yarananda isə dinlə bağlı sahəyə daha geniş yer verirdilər. Çünki çar hökuməti gələcəkdə müsəlmanların fəaliyyətini kütləşdirmək üçün necə hərəkət etməyin, onları hansı istiqamətə yönətməyin məqsədəuyğun olduğunu daha vacib sayırdı. Lakin bu cəhdlər boşa çıxırdı, çünki seminariya gənclərinin şuurunu bulandırmaq mümkün olmurdu. Gənclər daha zəruri inkişaf yollarını seçirdilər. Hətta onların bir çoxu sonradan dində olan xurafatçılığa qarşı mübarizə aparırdılar. Həmin dövrdə nəşr olunan "Molla Nəsrəddin" jurnalında verilən yazıları buna misal göstərmək olar. Çar hökuməti istəyinə nail ola bilmirdi.

Beləliklə, nəzarətçilərə aid olan qaydalarda baş növbətçilərin vəzifələri daha geniş və aydın şəkildə müəyyən edilmişdi. Baş növbətçilər həmin şura tərəfindən növbə ilə təyin edilirdi. Sinif rəhbərinin isə siyahı üzrə təyin etdiyi gündəlik növbətçilər sinfin təmizliyinə, avadanlıqlara, dərs vəsaitlərinin hazır olmasına, gigiyenik tələblərə nəzarət edir və dərsdə iştirak etməyən tələbələr haqqında məlumatı müəllimlərin diqqətinə çatdırırdılar.

Seminariyada oxuyan tələbələrin yaşadıqları pansionda da xüsusi qaydalar tətbiq olunurdu. Nə qədər ağır olsa da, bu qaydaların bəziləri seminariyada təhsil alanların həyatında onlara tapşırılan vəzifəyə məsuliyyət, özlərinə və başqalarına qarşı tələbkar, ciddi, diqqətli və dəqiq olmaq kimi digər mənəvi keyfiyyətlərin inkişafına, formalaşmasına zəmin yaradırdı.

Hətta bəzi cəza növləri də onların şəxsiyyətcə düzgün formalaşmasına müsbət təsir göstərirdi.

Qaydaları pozanlara, özünü seminariyada və pansionda yaxşı aparmayanlara və dərslərini yaxşı oxumayanlara qarşı sərt cəzalar verilirdi. Yeri gəlmişkən, professor Fikrət Seyidovun apardığı araşdırma sənədlərində göstərdiyi həmin məsələlərlə bağlı cəhətlərdən bəzilərinə nəzər salaq:

***1. Müəllim, tərbiyəçi, inspektor və direktorun sinif qarşısında verdiyi töhmət yazılı və şifahi ola bilərdi. Yazılı töhmətlər cəza jurnalında qeyd edilirdi.***

***2. Pedaqoji şuranın qərarı ilə müəyyən müddətə həbs etmək. Həbs olunan tələbələrə dörd saatdan bir tənəffüs verilirdi.***

***3. Töhmət verilməsi və əxlaq qiymətinin aşağı salınması (müəllim tərəfindən).***

***4. Pedaqoji şura adından əxlaq qiymətinin aşağı salınması. Sinif və seminariya kollektivi qarşısında töhmətin elan edilməsi və s. cəzalar tətbiq olunurdu.***

Pansionla bağlı cəzalar da mövcud idi. Günahkar tələbələri pansiondan ya həmişəlik çıxarır, yaxud da bazar və bayram günləri bir neçə günlüyə və ya növbəti bayram məzuniyyətindən məhrum etmək kimi cəzalar verilirdi. Bütün bunlar cəza dəftərlərində yazılırdı. Pedaqoji şurada belə tələbələrin qiyməti azaldılır, onlara töhmət verilirdi. Tətbiq olunan həmin cəzalara aid sənədlərdən aydın olur ki, çar hökuməti tədris müəssisələrində dindar və rus imperiyasının qanunlarına kor -koranə tabe olan nökərlər hazırlamağa xüsusi diqqət yetirirdi. Lakin seminariyanın tələbələri çar hökumətinin başlıca siyasətinin əksinə olaraq xalqa xidməti hər şeydən üstün tutur, əməli fəaliyyətlərində bunu əyani şəkildə nümayiş etdirirdilər.

Çar çinovniklərinin hərəkətlərinə qarşı seminariya tələbələri eyni zamanda bir sıra tələblər irəli sürürdülər. Bunlar si-

yasi cəhətdən mükəmməl, cəmiyyətdə öz mövqeyini düzgün başa düşən gənclər tərəfindən verilən tələblər idi. Bu tələblər çarizmin ruslaşdırma siyasətinə zidd olan, qabaqcıl rus mədəniyyətinin, inqilabi-ictimai fikrinin müsbət, xeyirxah təsirinin nəticəsi idi. Seminariyanın pedaqoji şurası müəyyən güzəştə getsə də, tələbələrin əsas tələblərini rədd edir, tabe olmaq istəməyənləri seminariyadan xaric etməyi və ya polisə verməyi vacib sayırdı. Bəzən isə çinovniklər yalan vədlər verirdilər. Bu yalançı vədlər gələcəyin müəllimləri olan gəncləri inqilabi əhvali-ruhiyyəyə yönəldirdi.

Getdikcə genişlənən siyasi hərəkat dalğası hər yeri bürüdüyü kimi, seminariya tələbələrini də cəlb etmişdi. Onlar artıq dərsdən çox bu əhvalla yaşayırdılar. Tələbələr öz məsləklərində qərarlı idilər. Şüurlu şəkildə hərəkət edir və müvafiq tələblərinə müsbət cavab almağa çalışırdılar. Bir sıra maneələrə baxmayaraq, onlar mitinqlərə gedir, hətta etiraz əlamətli çıxışlar edirdilər. Buna görə də çox vaxt ibadətlərdə iştirak etmir, şəriət dərslərinə getmirdilər. Bu, o dövr idi ki, seminariyaya qatı monarxist, ermənipərəst Miropyev rəhbərlik edirdi. Seminariyanın bütün tələbələri isə onun bu vəzifədən azad edilməsi üçün müvafiq qərar verib, "Vozrajdeniye" qəzetinin 16 noyabr 1905-ci il nömrəsində dərc etdirmişdilər.

Bütün bunlar bir daha onu göstərirdi ki, burada təhsil alanlar gələcəkdə xalq müəllimi kimi fəaliyyət göstərmək, öz xalqına daha çox xeyir vermək üçün yaxşı cəhətləri götürür, lakin istismarçıların iradəsini sözsüz yerinə yetirməyə yönəldilmiş kazarma-polis rejimi ilə barışmırdılar.

Zaqafqaziya Müəllimlər Seminariyasında mütəxəssislərin rəğbətini qazanan, təlim-tərbiyə sahəsində bu gün də əhəmiyyətini itirməyən diqqətəlayiq işlər də mövcud olmuşdur.

## SEMİNARİYANIN NƏZDİNDƏ İBTİDAİ TƏHSİLİN PRAKTİK MÜƏLLİM HAZIRLIĞINDA ROLU

***Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır. Bunlar da ailədən və ibtidai təhsildən köklənir.***

**Abdulla Şaiq**

Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdində müxtəlif illərdən başlayaraq gürcü (1876), erməni (1878), rus (1879) və Azərbaycan (1880) bölmələrində birsinifli ibtidai məktəblər fəaliyyət göstərirdi. İbtidai məktəbdə 8-9 yaşlı uşaqlar dövlət hesabına oxuyurdular. Onlar yuxarı sinif tələbələri kimi pansionda yaşayırdılar və seminariyanın rejiminə tabe idilər. Maraqlı cəhət bu idi ki, ibtidai məktəbdə aparılan tərbiyəvi işlər, ümumiyyətlə, uşaqlara nəzarət seminariya tələbələrinin üzərinə düşürdü. Yəni, seminariya tələbələri təlim işlərindən başqa, ibtidai məktəbdə növbətçilik edib, şagirdlərin dərslərinin hazırlanmasına, sinifdənxaric oxuya, onların istirahətinə və gəzintiyə nəzarət edirdilər. Bir sözlə, məktəblilərə rəhbərlik seminariya tələbələrinin öhdəliyində idi. Beləliklə, tələbələrlə məktəblilər arasında dostluq, qardaşlıq əlaqələri yaranırdı. Məktəblilər sanki valideynləri kimi onlardan məsləhət alır, onları maraqlandıran bütün işlər haqqında soruşurdular. Seminariya tələbələri böyük sevgi və hörmətlə onların suallarını cavablandırırdılar. Bütün bu proseslər tələbələrin xalq müəllimliyinə hazırlıq işlərində, müəllim kimi formalaşmasında mühüm rol oynayırdı. Tələbələr seminariyada əldə etdikləri bilikləri burada tətbiq edir, öz bacarıqlarını sınaqdan keçirir, nəyə qadir olduqlarını nümayiş etdirirdi-

lər. Müəllimlik kimi şərəfli və məsuliyyətli vəzifəyə nə dərəcədə hazır olduqlarını əyani olaraq görür, dərk edirdilər. Buna görə də ibtidai məktəbdə fənlərin tədrisində əyanilik daha çox tətbiq olunurdu. Şagirdlərin təmizliyinə xüsusi fikir verilirdi. Onlar tərəfindən "şəkillər albomu" hazırlanırdı. Burada mövzular ətrafında müəllimlər və şagirdlər tərəfindən hazırlanan şəkillər yerləşdirilirdi. Bu da onlarda yaradıcılıq qabiliyyətini inkişaf etdirir, həm də onları əməyə bağlayırdı.

Bir sözlə, seminariyanın nəzdində açılan İbtidai təhsil bölməsi iki istiqamətdə əhəmiyyət kəsb edirdi. İlkin olaraq şagirdlər burada yazmaq-oxumaq öyrənir, ibtidai siniflərə uyğun təhsil alırdılar. İkinci istiqamət üzrə isə yuxarı sinif tələbələri ibtidai siniflərdə dərs keçir, onların təlim-tərbiyəsi ilə məşğul olur, məktəb təcrübəsi keçərək püxtələşirdilər.

Bununla belə, təəssüf ki, Azərbaycan bölməsində rus dili və hesab fənləri birinci dərəcəli, ana dili, nəğmə, rəsm, coğrafiya isə ikinci dərəcəli fənlər sayılırdı. Maraqlı burası idi ki, rəsm dərslərinin tərbiyəvi əhəmiyyəti nəzərə alınaraq seminariyada onu məcburi fənlər sırasına daxil etmişdilər. İkinci maraqlı cəhət isə musiqiyə münasibət, mahnıların oxunması, şeirlərin deyilişinin xorla aparılması, müxtəlif oyunların və qimnastik hərəkətlərin kollektivlə həyata keçirilməsi idi. Belə hesab olunurdu ki, musiqi gözəlliyə söykənir, insanın ruhunu, həyatını, dünyaya baxışını dəyişir.

İbtidai məktəbdə, əsasən, üç il müddətində təlimin binövrəsi qoyulurdu. İbtidai sinif şagirdləri gəzintiyə, bağda, bostanda işləməyə aparılırdı. Dərman bitkiləri toplamağa gedir, ağaclara qulluq edirdilər. Bütün bunlar şagirdlərdə sağlam əhval-ruhiyyə yaradır, təbiətə sevgi oyadır və bilik səviyyələrini artırır, onlarda həyata düzgün baxış formalaşır, estetik zövqləri inkişaf edirdi. Bir sözlə, hərtərəfli inkişaf edirdilər.

Tələbələr müxtəlif mövzularla şagirdlər arasında maraqlı söhbətlər aparırdılar. Bu söhbətlərdə onlar valideynlərinə, bacı-qardaşlarına və digər insanlara – xəstələrə, əlillərə münasibətdə rəhmli, insaflı olmağı, ümumiyyətlə, insanlara, həmçinin müxtəlif heyvanlara qarşı da diqqətli və mərhəmətli olmağı, hər şeyə sevgiylə yanaşmağı bacarmaq kimi keyfiyyətlər aşılanırdı. Lakin həmin dövrə uyğun demokratik olmayan, kor-koranə hakim quruluşa tabe olmaq, monarxiyaya sadiq qalmağa çağıran fikirlər də səslənirdi ki, bu da onların şəxsiyyət kimi düzgün formalaşmasına mane olurdu. Beləliklə, ibtidai məktəbdə şagirdlərə hər bir sahəyə aid biliyin əyaniliklə verilməsini əsas prinsip kimi götürür və seminariyada bunu Y.A.Komenskinin fikirləri əsasında həyata keçirməyə çalışırdılar: ***"Əgər şagirdlər əşyaları dərindən, doğru və düzgün qavramaq niyyətindədirlərsə, o zaman, şübhəsiz, hər bir dərsi şəxsi müşahidə və hissi əyanilik yolu ilə aparmaq lazımdır..., əgər mən şəkərin dadına baxmışamsa, dəvə görmüşəmsə, əgər Romada olub oranı gəzmişəmsə, o zaman bu qavradıqlarım hafizəmdə qalacaq və heç bir zaman yaddan çıxmayacaq"*** *("Rəsmlərdə əşyalar aləmi", Macarıstan, 1658).*

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, seminariyada oxuyan tələbələr müəllimlərin fəaliyyətində onların ən yaxın köməkçiləri idi. Seminariyanın nəzdindəki ibtidai məktəb eyni zamanda tələbələr üçün xüsusi məqsəd daşıyırdı. Yəni, başlıca məqsəd seminariya tələbələrinə təcrübədə təlimin bünövrəsini qoymağı necə öyrətmək idi.

Zaqafqaziya Müəllimlər Seminariyasında aparılan ***proqram-metodik işlər və təlimə pedaqoji yanaşmalar*** da çox əhatəli, maraqlı idi.

Seminariyanın müəllimləri dövlət tərəfindən təsdiqlənmiş əsasnaməni yerinə yetirməyə məcbur idilər. Bununla belə,

seminariyanın pedaqoji kollektivi tədris prosesinə yeni səmərəli fikirləri, yaradıcı metodları gətirməklə proqramı genişləndirməyə, dərs materialının daha aydın mənimsənilməsinə nail olmağa səy göstərirdilər. Təbii ki, proqramda edilən bu dəyişikliklər rəsmi dairələr tərəfindən qəbul edilmirdi, odur ki, kollektivin üzvləri çox vaxt bu yenilikləri həyata keçirmək üçün mübarizə aparmalı, yeni yollar axtarmalı olurdular. Sözsüz ki, bütün bunlar seminariyaların orta məktəbləri üçün rus bölməsi üzrə tərtib olunmuş proqramlar əsasında hazırlanırdı.

Məhz bu cür genişləndirilmiş proqramların tam həyata keçirilməsinə maarif rəislərinin mənfi münasibətinin nəticəsi idi ki, demokratik fikirli adamlar, qabaqcıl rus pedaqoqları xalq müəllimlərinin hazırlanmasının o zamankı vəziyyətindən heç də razı deyildilər.

F.Seyidovun kitabında göstərilir ki, həmin dövrdə seminariyanın tanınmış müəllimi N.Novopaskinin tərtib etdiyi proqram çox maraqlı və səmərəli idi. Bu proqramla bağlı onun geniş həcmdə qeydləri, yazıları var idi ki, onlar da Gürcüstan Xalq Maarif Muzeyi arxivində saxlanılan bir elmi sənəd kimi dəyərləndirilir.

Yeri gəlmişkən, qeyd edək ki, indiki dövrdə qeyri-rus məktəblərində işləyən rus dili müəllimlərimiz üçün də bu sənəd ən yaxşı metodik vəsait ola bilər. Ancaq onu da qeyd edək ki, seminariya üçün rus dili proqramına əlavə edilmiş həmin sənəddəki izahat qeydləri təkcə rus dili üzrə deyil, digər bir dilin öyrənilməsi üçün də zəngin elmi-metodik mənbə ola bilər. Sənəddə göstərilir ki, N.Novopasski qonşu xalqların dillərinə dərin hörmət və ləyaqətlə yanaşmışdır. O göstərir ki, ana dili ilə rus dilinin bir-birinə ziddiyyət təşkil etmədən yaxın dost kimi öyrənilməsinin tərəfdarıdır. Təbiidir ki, N.Novopasski elmi-metodik və siyasi cəhətdən düzgün yanaşma edərək

xalqları dost olmağa çağırırdı: ***"Mən səmimi qəlblə inanıram ki, rus dili və yerli dillərin bir-biri ilə rəqabət aparmayaraq əl-ələ verməli, bir dost kimi getməlidir. Hətta bir-birindən çox fərqli olan dillərin qramatikasında fərqlənmədən çox oxşarlıq var. Biz bu dili diqqətlə və ciddi öyrənməklə o biri dilin tədrisini asanlaşdırırıq. Qoy bizim tələbələrimiz öz ana dillərini sevsinlər, onu əziz tutsunlar və diqqətlə öyrənsinlər. Eyni zamanda qoy onlar rus dilinə də zəngin ədəbiyyat dili, dövlət dili, Rusiya imperiyasının bütün elmli adamlarının dili kimi həmin dərəcədə diqqət və həvəs göstərsinlər. Qoy onlar rus dilini yad hesab etməsinlər, qoy onlar ana dilindən çox rus dilində danışsınlar. Onlar rus dilində ana dilinə hörmətsizlik göstərmək məqsədi ilə deyil, rus nitqinə tamamilə yiyələnmək üçün danışmalıdırlar"*** *(Gürcüstan Xalq Maarif Muzeyi arxivi, iş № 21).*

Heç şübhəsiz, həmin fikirlər belə bir qənaətə gəlməyə əsas verir ki, biz pedaqoqlar öz ana dilimizi bu cür sevməli və başqa xalqlara sevdirməyi bacarmalıyıq. Kaş ki, övladlarımız ana dilində danışmağa həmişə üstünlük verib, sonra başqa dilləri də öyrənməyə cəhd etsinlər.

Seminariyada ***pedaqoji elmlərin proqramları*** daha çox diqqəti cəlb edir. 1878-79-cu illərdə seminariyanın ilk direktoru, tanınmış pedaqoq, maarifpərvər D.D.Semyonov tərəfindən hazırlanmış həmin proqram çox maraqlıdır. Proqramda üç əsas məsələyə toxunulmuşdur ki, onlar da professor F.Seyidovun kitabında daha aydın şəkildə nəzərə çatdırılır:

1. **Ümumi pedaqogika** – burada pedaqogika elmi haqqında anlayış, tərbiyə elmləri, tərbiyənin labüdlüyü və əsas məqsədi, həmçinin tərbiyədə yaşın və cinsin xüsusiyyətlərinin rolu haqqında məlumat verilir. Bu bölmədə eyni zamanda fiziki tərbiyənin bədən tərbiyəsi ilə əlaqəsi, gigiyena, psixologiya

və fiziologiya daxil olmaqla bəzi məntiqi məsələlərə, üzvi əlaqələrə də toxunulur. Bütün bunlarla yanaşı, bölmədə mənəvi və dini tərbiyənin əsasları vəhdətdə götürülür.

2. **Pedaqogika tarixində didaktika** – bu bölməyə məktəbşünastlıq, didaktikanın ümumi məsələləri, pedaqogika tarixində görkəmli pedaqoqların həyatı və pedaqoji fəaliyyəti haqqında məlumatların verilməsi əsas hesab olunur. Təbii ki, bu məsələləri maneəsiz həyata keçirmək çar Rusiyası dövrü üçün çox çətin idi. Çünki bunlar qabaqcıl pedaqoqların yaradıcı fikirləri ilə sıx bağlı idi. Lakin çar məmurlarına müqavimət göstərən pedaqoqların xalqın mənafeyini güdən qabaqcıl fikirləri tamamilə aradan götürülməmişdi.

***3. Metodika bölməsinə – ayrı-ayrı fənlərin tədrisi metodikası,*** təlim metodları və əyani təlim məsələləri daxil idi.

1902-1903-cü illərdə Miropyev tərəfindən pedaqogika üzrə tərtib edilmiş proqram həmçinin qismən əlverişli şəkildə hazırlanan digər proqramlarla müqayisədə Semyonov proqramının elmi pedaqoji cəhətdən daha üstün olduğu nəzərə çarpır. Heç şübhəsiz, Semyonovun proqramının çatışmayan cəhətləri də var idi. Lakin elə ağır siyasi dövrdə qabaqcıl fikirli, mübariz ideyalı Semyonovu sürgündən uzaqlaşdırmaq üçün onun direktor seçilməsi labüd idi.

D.D.Semyonov seminariyada pedaqogikanın tədrisində bu fənnin qarşısında duran əsas məqsədi izah etmək üçün iki məsələni diqqətə çatdırırdı: ***"Birincisi, gələcək xalq müəllimlərinin təcili tərbiyə işi ilə şüurlu surətdə məşğul olmaq arzusunu genişləndirmək, onların qarşısında gələcəkdə pedaqoji təhsillərini artırmaq imkanı açmaq, ikincisi, tələbələri elə hazırlaşdırmaq lazımdır ki, onlar seminariyadan çıxdıqdan sonra çətinlik çəkmədən, kobud səhvlərə yol vermədən tərbi-***

***yə işi ilə, uşaqların ilk təlimi ilə müvəffəqiyyətlə məşğul ola bilsinlər"*** *(Gürcüstan Xalq Maarif Muzeyi arxivi, iş № 121).*

O göstərirdi ki, pedaqogika üzrə yanaşı, fiziologiya ilə psixologiyanın öyrənilməsi də vacibdir. Seminariyada pedaqogika və didaktika fənləri daha geniş şəkildə tədris olunurdu. Pedaqogika müəllimləri öz mühazirələrində uşaqlarda idrak qabiliyyətinin inkişafının psixoloji əsaslarının şərhinə, onlarda fəal diqqətin, möhkəm hafizənin və təxəyyülün inkişafına xüsusi fikir verirdilər. Seminariyada pedaqogikanın nəzəri məsələlərinin tədrisi ilə yanaşı, pedaqoji təcrübə ilə bağlı məşğələlər də xüsusi yer tuturdu.

Nəzəri və praktik əhəmiyyət kəsb edən məşğələlərə dərslərin təhlili, nümunə dərslərinin icmallarının tərtibi, ilk nümunə dərsləri, ibtidai məktəblərdə müstəqil olaraq dərs vermək, müxtəlif proqram və protokolların tərtibi və s. məsələlər aid edilirdi. Seminariyada tədris prosesini daha da səmərələşdirmək, tələbələrin uğurlarını artırmar və müəllimlərin ixtisas səviyyələrini yüksəltmək məqsədilə müxtəlif üsullar tətbiq edilirdi ki, bu da çox maraqla qarşılanırdı.

Ümumdünya sərgisində "Qızıl medal" mükafatına layiq görülən Zaqafqaziya Müəllimlər Seminariyasının ***metodik işləri*** keyfiyyət cəhətdən nəinki həmin dövrdə Rusiyadakı müəllimlər seminariyasının, hətta bütün dünyadakı müəllimlər seminariyalarını geridə qoymuş, həmçinin həmin dövr üçün nümunəvi olan Amerika müəllimlər seminariyalarını da ötmüşdü.

F.Seyidovun araşdırmalarında Zaqafqaziya Müəllimlər Seminariyasında məşğələlərin mühüm bir hissəsini təşkil edən ***pedaqoji praktika da*** xüsusi maraq doğurur. Seminariyada gələcək xalq müəllimlərinin hazırlığında pedaqoji praktika böyük əhəmiyyət kəsb edirdi. Bütün bu məşğələlər əsasında tələbələr bir növ pedaqogikanın nəzəri məsələləri üzrə əldə et-

dikləri bilikləri praktikaya tətbiq etməklə təcrübə toplayırdılar. Bununla bağlı həmin kitabda da təlim zamanı aşağıdakı kimi bir sıra pedaqoji məsələlərə aydınlıq gətirilir:

***1. Dərslərin təhlili;***

***2. Nümunə dərsləri icmallarının tərtibi;***

***3. İlk nümunə dərsləri;***

***4. Seminariya nəzdindəki ibtidai məktəb müəllimlərinin dərslərində iştirak etmək;***

***5. İbtidai məktəb müəlliminin rolunu icra etmək;***

***6. İbtidai məktəblərdə müstəqil olaraq dərs vermək;***

***7. Müxtəlif proqram və protokolların tərtibi və s.***

Seminariyanı bitirən gənclər pedaqoji cəhətdən elə hazırlanırdılar ki, onlar birbaşa müstəqil pedaqoji fəaliyyət aləminə atıla bilirdilər. Odur ki, belə gənclər məqsədyönlü şəkildə həm nəzəri, həm də praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edən məşğələlərlə əhatə olunurdular. Praktiki məşğələlər ikinci sinifdən başlayıb, üçüncü sinifdə də davam etdirilirdi. Bu zaman dərsliklər təhlil edilir, nümunə dərslərinin icmalları tərtib olunurdu. İlk nümunə dərslərində ibtidai məktəb müəllimlərini əvəz etmək, həmçinin müstəqil dərs deməyi bacarmaq və s. praktik məsələlər həyata keçirilirdi. Belə praktik məşğələlər xüsusi əhəmiyyət kəsb edirdi. Məsələn, dərsliklərin təhlilinə aid məşğələnin necə aparılmasına baxmaqla digər məsələlərin də nə dərəcədə mükəmməl araşdırıldığı və tətbiq edildiyi məlum olur. F. Seyidovun araşdırmasında əlavə etdiyi məlumatlara əsasən daha da aydın olmaq üçün həmin məşğələnin planını nəzərdən keçirək:

***1. Dərsliyin məzmunu;***

***2. Materialın yerləşdirilməsindəki ardıcıllıq;***

***3. Hər hansı cəhətdən daha gözəl yerlər;***

***4. Hər hansı səbəbə görə zəif olan yerlər;***

***5. Dərsliyin yaş xüsusiyyətinə görə uyğunluğu;***

***6. Müəllimin dərslikdən necə istifadə etməsi;***

***7. Şagirdlərin əsassız surətdə mənimsəməsinə uyğunluğu- dərs materiallarının şagirdlər tərəfindən mənimsənilməsinə uyğunluğu və s.***

Praktik məşğələlər, öz növbəsində, şagirdlərdə müvafiq təcrübi bacarıqlar aşılayırdı. Onlar seminariyada olduqları sonuncu ilin birinci yarısında əvvəlcə ibtidai məktəb müəlliminin köməkçisi olur, sonra isə ibtidai məktəblərdə praktik məşğələlər keçirdilər. Praktikanın birinci ayında yalnız dərslərdə iştirak edərək məktəbin təşkili və orada ilk məşğələlərin keçirilməsi qaydaları, başlıca prinsipləri ilə tanış olurdular. Bundan sonra buraxılış sinfinin şagirdləri birinci yarım ildə bir həftə ibtidai məktəb müəlliminin köməkçisi, bir həftə praktikant, bir həftə isə assistent rolunu ifa edirdilər. Bu dövrdə məktəb müəlliminin köməkçisinin üzərinə xüsusi vəzifələr düşürdü ki, bu da onların müəllim kimi formalaşmasına xüsusi təsir göstərirdi. Tam müəllim olana qədər tələbələr buna bənzər bir neçə proseslərdən, başlıca mərhələlərdən keçirdilər. Bütün bu məşğələlər əsasında tələbələr bir növ pedaqogikanın nəzəri tədrisində əldə etdikləri bilikləri praktikaya tətbiq etməklə təcrübə toplayırdılar. Bununla da, təlim zamanı bir çox məsələlərə aşağıdakı kimi aydınlıq gətirilirdi:

***1. Dərslərin təhlili;***

***2. Nümunə dərslərinin icmallarının tərtibi;***

***3. İlk nümunə dərsləri;***

***4. Seminariya nəzdindəki ibtidai məktəb müəllimlərinin dərslərində iştirak etmək;***

***5. İbtidai məktəb müəllimi rolunu icra etmək;***

***6. İbtidai məktəbdə müstəqil olaraq dərs demək;***

***7. Müxtəlif proqram və protokolların tətbiqi və s.***

Maraqlı məsələlərdən biri də bu idi ki, burada tələbələrə yalnız pedaqoji fəaliyyət üçün lazım olan təlimlər verilmir, həm də onlara bu təlimlərin həyatla, təsərrüfatla əlaqələndirilməsinin müxtəlif yolları da öyrədilirdi. Belə bir məqsəd üçün seminariyanın iki desyatin torpaq sahəsi var idi. Orada təbiət dərslərində öyrəndiklərini təbiət müəllimi aqronom və ya təcrübəli bağban kimi şagirdlərə, tələbələrə tətbiq etməyi öyrədirdilər. Eyni zamanda digər sənət növlərini də tətbiq etmək üçün xarratlıq, dəmirçilik kimi peşələr əsasında müxtəlif əşyaların hazirlanmasını da öyrədirdilər. Kitabların cildləmə işi ilə də məşğul olurdular. Bütün bunlarla tələbələrə həm öyrəndiklərini tətbiq etmək, həm də zəhmətə alışmaq kimi keyfiyyətlər formalaşdırırdılar.

Zaqafqaziya Müəllimlər Seminariyasında ***sinifdənkənar*** tədbirlər də müntəzəm keçirilirdi. Bununla bağlı tələbələr kitabxanalara gedir, alıb oxuduqları kitabların müzakirəsinə qoşulurdular. Həmçinin planlı şəkildə tənəzzöh (ekskursiya) və gəzintilər təşkil edilirdi ki, bu da tələbələrə vaxtı boş keçirməmək imkanı verməklə onların fiziki cəhətdən inkişafına kömək edirdi. Lazım gələn çətinlik və maneələrlə mübarizə şəraitində iradələrini möhkəmləndirir, gənclərdə təbiətə qarşı məhəbbət hissini inkişaf etdirir, əyani olaraq onları təbiətin gücü və tükənməz zənginlikləri ilə bilavasitə tanış edir. Bütün bunlar gənclərdə hər şeyə maraq oyadır, müşahidəçilik qabiliyyətlərini inkişaf etdirir, şəxsi qabiliyyətlərini gücləndirirdi. Tənəzzöh iştirakçıları təbiət və başqa fənlərə aid kolleksiyalar toplayaraq seminariyanı əyani vasitələrlə zənginləşdirirdilər. Həmin təmrinlərlə yanaşı, seminariyada təntənəli gecə və səhərciklər də təşkil edilirdi. Seminariyanı bitirən tələbələrin fikirlərini nəzərə alsaq, onlar üçün ora o gözəl ənənələrinə görə "səhrada çəmənlik idi". Seminariyada

mühüm cəhətlərdən biri də şifahi nitq mədəniyyıtinə və inkişaf etdirilməsinə nail olmaq idi. Bununla bağlı ədəbi əsərlərdən müvafiq parçaların oxunması, onların şifahi və yazılı planlarının tərtib edilməsinə xüsusi fikir verilirdi. Buna bir sıra tədbirlərin həyata keçirilməsi ilə nail olurdular. Belə tədbirlər seminariya tələbələrinin dünyagörüşünün genişlənməsinə, nitq mədəniyyətinə, müstəqil fikir söyləmək bacarığının inkişaf etdirilməsinə zəmin yaradırdı.

Həmin tədbirlər aşağıdakı istiqamətlərdə həyata keçirilirdi:

***1. Şagird konfransları əsas tədbirlərdən sayılırdı. Burada tələbələr ya özlərinin verdikləri nümunə dərslərini və ya yoldaşlarının dinlənilən dərslərini müzakirə edirdilər.***

***2. Öyrəndikləri dərsliklər barədə müqayisəli müzakirələr aparırdılar.***

***3. Onlara verilən icazədən istifadə edərək çıxış edən yoldaşlarının səhvlərini nəzərə çatdırır, öz mülahizələrini söyləyirdilər.***

***4. Hər hansı bir ədəbi parçanın nağıl edilməsi və ya onun planının yazılması, müzakirəsi və s. şifahi nitqin inkişafı və söz ehtiyatlarının artmasına səbəb olurdu. Bir sözlə, seminariyada xalq müəllimınə lazım olan çoxcəhətli keyfiyyətlərin inkişafına xüsusi diqqət yetirilirdi.***

## QORİ MÜƏLLİMLƏR SEMİNARİYASINDA AZƏRBAYCAN ŞÖBƏSİNİN YARANMA ZƏRURƏTİ

> ***Qori Müəllimlər Seminariyasının Azərbaycana verdiyi kadrları Rusiya imperiyası dövründə heç bir ail təhsil ocağı verməyib.***
>
> **Əziz Şərif**

Rus çarizmi imperiya əsarətində əzdiyi müsəlman xalqlarını həmişə elmdən, təhsildən uzaq saxlamaqla imperiya məqsədinə nail olmağa çalışırdı. Lakin XIX əsrin ikinci yarısında irticaçı hökumət başa düşdü ki, həmin xalqlardan rus dilini bilənlər olmalıdır ki, yerlilərlə hakimiyyət təmsilçiləri arasında təmas yaratsınlar. Qısaca desək, hər bir yüksək vəzifəli rusun yanında daim bir nəfər tərcüməçi olması zərurəti yaranmışdı. Bu, artıq qarşıda mühüm bir vəzifə kimi dururdu. Onun həll olunması üçün regionlarda yerli mühit nəzərə alınmaqla müasir təhsil verən məktəblərin açılması təxirəsalınmaz bir vəzifə idi. Göründüyü kimi, çar hökuməti heç də xalqı dini xurafatdan ayıltmaq yox, özünün imperialist niyyətlərini yerinə yetirmək üçün bu addımı atmağı planlaşdırmışdı. Eyni zamanda hakimiyyətə sədaqət göstərən rus ideoloqları həm də bölgələrdəki dini qurumları və dindarları öz tərəflərinə çəkməyə, məqsədlərinə çatmaqda onların nüfuzundan və köməyindən istifadə etməyə çalışırdılar. Bu isə o qədər də sadə məsələ deyildi, çünki əyalətlərdə dini fanatizm çox güclü idi. İmperiyanın bütün əyalətlərində olduğu kimi, Azərbaycanda

da eyni vəziyyət hökm sürürdü. Daha aydın olmaq üçün görkəmli yazıçımız İsmayıl Şıxlının ssenarisi əsasında çəkilmiş "Dəli Kür" filminə baxmaq kifayət edər. Orada Qori Müəllimlər Seminariyasında oxumağa uşaq axtaran müəllim Aleksey Osipoviç Çernyayevskini xurafatçı dindarlar, hətta öldürmək istəyirdilər.

Bu cür çətinliklərin ola biləcəyini bilən çar hökuməti mollaların, xurafatçı dindarların neytrallaşdırılması üçün lazımi tədbirlər gördü. Əslində, hökumətə kasıbların uşaqlarının təhsil alması sərfəli deyildi. Hökumət başa düşürdü ki, kasıb uşaqların elliklə savadlanmasına şərait yaratsa, gələcəkdə özü üçün düşmən ordusu hazırlamış olar. Ona görə də mollalara icazə verilmişdi ki, rəiyyət uşaqlarını müasir təhsil verən məktəblərə buraxmasın. Təbii ki, ayrı-ayrı mollalar və mədrəsə sahibləri bilərəkdən, ya da nadanlıqdan uşaqların dünyəvi təhsil almalarına imkan vermir, beləliklə, çarizmin irticaçı siyasətinə kor-koranə dəstək verirdilər. Bundan başqa, uşaqların başqa yerlərdə təhsil almaları üçün maddi imkan lazım idi ki, buna da kasıbların gücü çatmırdı. Varlı təbəqədən olan şəxslər isə molladan və ya mədrəsədən icazə almadan öz övladlarını harada istəsələr, oxuda bilərdilər. Çarizmin siyasətinin tərkib hissəsi də bundan ibarət idi ki, ona sədaqətli olan təbəqənin uşaqları mövcud quruluşa xidmət edəcək mütəxəssis kimi yetişsinlər.

Diktatura belə hesab edirdi ki, rus dilində təhsil alan müsəlman balaları onun faydasını görəcək, onun adət-ənənələrini öyrənəcək və qəbul edəcəklər. Arxiv sənədlərinin birində yazılırdı: ***"Bizim təhsilin (yəni, rus təhsilinin) üstünlüklərini hiss edən müsəlmanlar onu mənimsəməyə çalışır və bu işdə heç də öz dininə heç bir qəsd etdiyini görmür, çünki bu təhsili mənimsəməsi onların öz etiqadlarının sıxışdırılmasına***

***səbəb olmur, nəhayət, rus dilini bilmək üçün onların öz arzularını təmin etmək, həm də özlərinin maddi güzəranını artırmaq üçün zəruridir. Bütün bu mülahizələr müsəlmanları bizim məktəblərimizə cəlb edir...Onlara qarşı hər cür etibarsızlığı silib yox edir. Müsəlmanlar, xüsusilə, yuxarı təbəqəyə mənsub olanlar, digər millətlərdən olanlarla birlikdə dövlət məktəbinə davam etməklə yavaş-yavaş, hiss edilmədən rus təsəvvürünə, əxlaq və adətlərinə yaxınlaşır."***

O zamanın arxiv materiallarından da göründüyü kimi, çarizmin əsas məqsədi səthi təhsil verməklə yanaşı, həm də mütləqiyyətə sadiq adamların yetişdirilməsi idi. Göründüyü kimi, çarizm Azərbaycanda yeni məktəb təsis etməklə xalqın imtiyazlı təbəqələrini öz tərəfinə çəkməyə, bu yolla öz adət-ənənələrini yaymağa və qəbul etdirməyə cəhd edirdi. Biz bu cəhəti böyük şairimiz Mirzə Ələkbər Sabirin bir sıra satirik şeirlərində də aydın görürük.

Həmin dövrdə yuxarı təbəqələrin nümayəndələrinin dövlət məktəblərində oxumaq həvəsinin nəticəsi idi ki, müsəlmanlardan olan şagird və tələbələrin sayı getdikcə artırdı. Maddi maraq mülahizələrinə əsaslanan təhsilin istiqaməti, həqiqətən də, get-gedə həyati ehtiyaca çevrilir və bununla da azərbaycanlıların ruslarla müntəzəm əlaqəsi və mülki yaxınlığı baş verirdi. Çar hökumətinin məqsədi də elə bu idi. Hökumət nəzərə çarpmadan xalqa təsir etmək üçün bir tərəfdən məscid məktəblərinə etinasız yanaşır, əhalinin savadsız hissəsinin orada təhsil almasına toxunmur, digər tərəfdən də dediyimiz kimi, varlı təbəqələri öz tərəfinə çəkmək məqsədi ilə onları müasir məktəblərə cəlb edirdi. Dövlət məktəblərinin tədris planına şəriət dərslərinin salınması məqsədi də məhz dini təsəvvürlər yaratmaq deyil, bununla xalqa təsir göstərilməsinə, əhalinin yuxarı təbəqəsini öz nəzarətində saxlamasına və on-

lardan hakim üsul-idarə üçün müvafiq qulluqçular hazırlanmasına xidmət edirdi. Məhz buna görə də hökumət nəinki dövlət məktəblərində şəriətin tədrisinə icazə verir, həm də şəriət dərsi verən müəllimlərə əmək haqqı təyin edir və onların da rus dilini öyrənmələrini lazım bilirdi. Beləliklə, həm də din xadimlərinin narahatlığı aradan qaldırılırdı. Çünki təhsil müəssisələrində onlara da işləmək imkanı yaranırdı.

Bununla belə, çarizm özünün qəddar müstəmləkəçilik siyasətini həyata keçirərkən əhalinin geniş təbəqələri arasında böyük nüfuza və etimada malik olan ruhanilərlə qarşı-qarşıya gəlməli olurdu. Ancaq çar üsul-idarəsi müxtəlif yollarla ruhaniləri nəzarətdə saxlayır, onların köməyi ilə öz mənfur niyyətini reallaşdırırdı. Xalqı qəflət yuxusundan oyanmağa, dostunu-düşmənini tanımağa imkan verməyən, dünyəvi elmlərdən kənarda qalan ruhanilər çarizmin çirkin siyasətinə birbaşa xidmət göstərirdilər. Məsələn, yeni tipli məktəblərdə din dərsi sünnilər üçün ayrı, şıələr üçün də ayrı keçirilirdi. Lakin digər millətlərdən olan uşaqlara təriqətlər üzrə dərs keçilmirdi, yəni, onlara bir şəriət müəllimi dərs deyirdi. Onlar üçün dini qruplaşma tətbiq edilmirdi. Çarizmin qənaətinə görə bu məktəbdə yetişən şagirdlər gələcəkdə kiçik məmur kimi ona sədaqətlə qulluq edəcəklər. Lakin o dövrdə təhsil alan həmin adamların böyük əksəriyyəti imperiyanın ümidlərini doğrultmadı. Çünki savadlanmış azərbaycanlılar çarizmin siyasətini dərk etdilər, öz millətinə xidmət edərək onun cəhalət yuxusundan ayılmasına çalışdılar. Beləliklə, çarizmin bu sahədəki planları da pozulmuş oldu.

Azərbaycanda bir növ ruslaşdırma siyasətinin bünövrəsini qoyan hökumət varlıların müsəlman ailələrində mürəbbilərin xristian, pansionatlarda isə müəllimlərin ruslardan ibarət olmasını istəyirdi. "Qaraca qız" filmində bəy qızının mürəbbi-

sinin rus qadın olmasını xatırlayırsınızmı? Bax, bu, həmin siyasətin parlaq göstəricisi idi. Hökumət rus təhsili alanlara müəyyən şirnikdirici güzəştlər də edirdi.

Lakin əsrlərlə müdrik insanlar, alimlər, şairlər yetişdirən Azərbaycan xalqı həmin dövrdə də xurafatın mövqeyindən belə gözüaçıq, elmli, bilikli, geniş dünyagörüşə malik şəxsiyyətlər yetişdirirdi. Çarizmin mürtəce siyasətini dərk edən bir çox Azərbaycan vətəndaşları, xalqına, millətinə dəyər verməyi bacarırdı. Geniş təfəkkürlü insanlar elmə, biliyə yiyələnməyə can atır və buna nail olurdular. Sonra onlar xalqın savadsızlığının aradan qaldırılması üçün hər cür çətinliyə sinə gərir, bütün qüvvələrini buna yönəldirdilər. Belə şəraitdə sanki xalqın içərisində iki istiqamətdə insanlar yetişirdi. Onlardan biri xalqından ayrı düşərək zombiləşən, kosmopolitə çevrilənlər, digəri isə Zaqafqaziya Müəllimlər Seminariyasını bitirənlər kimi öz əqidələrini, məsləklərini, xalqa sədaqətini dəyişməyən, əksinə, onun mənəvi xəzinəsini qoruyan, daha da zənginləşdirən, xalqının inkişafına, xalqımızın da "imzalar içində imzası" olmasına çalışan əsl elm fədailəri idi. Onların arasında həm yuxarı, həm də aşağı təbəqənin nümayəndələri vardı. Qazax rayonunun Qıraq Kəsəmən kəndinin sakini Səmədağa Ağamalıoğlu varlı mülkədar olsa da, 1905-ci ildə bütün torpaqlarını yoxsul kəndlilərə paylamış, özünə hamıya ayırdığı qədər bir pay torpaq sahəsi saxlamışdı. Onun savadlanmasının xalqa bu xeyri də dəymişdi. Qori Müəllimlər Seminariyasını bitirmiş Ağamalıoğlu sonralar SSRİ-nin rəhbər vəzifəli şəxslərindən biri olmuşdu.

Beşinci kolonun formalaşmasından tarixi yüz əlli il keçməsinə baxmayaraq, belələrinin beyinlərinin təmizlənməsi üçün indi bizə illər lazımdır. Artıq bu proses başlayıb və sürətlə davam etdirilir. Çirklənmiş belə beyinləri isə öz elmimizlə,

apardığımız uğurlu siyasətlə "yuyub təmizləyə" bilərik. Bu, Azərbaycan xalqının milli birliyinin tam bərqərar olması deməkdir.

Göründüyü kimi, Rusiya imperiyası hələ o dövrdə müsəlman ölkələrində əhalini dini xurafat altında saxlamağa çalışır, müsəlmanların təhsil almasına və inkişaf etməsinə imkan vermirdi. Bu qaydaya Qafqazda da ciddi əməl olunur, xüsusən, azərbaycanlıların savadlanması və maariflənməsi yolunda keçilməz sədlər qoyulurdu. XIX əsrin ikinci yarısına qədər Azərbaycanda, əsasən, mollaxanalar və mədrəsələr fəaliyyət göstərsə də, orada dünyəvi elmlər tədris edilmir, yalnız mövhumat dərsləri və ona yaxın fənnlər öyrədilirdi. Həmin ərəfədə çar hökuməti Gürcüstanda dünyəvi elmləri tədris edən seminariya açdırdı. Təbii ki, bu, Qafqazda təhsil sahəsində yenilik, ilk mütərəqqi addım hesab olunurdu. 1876-cı ildə Qori Müəllimlər Seminariyası açılanda bura yalnız gürcü və erməni uşaqları qəbul olunurdular. Çünki seminariyada Azərbaycan bölməsi yox idi.

Çar Rusiyasında yaşayan Zaqafqaziya xalqlarının zamanın tələblərinə müvafiq hazırlanmış müəllim kadrlarına olduqca böyük ehtiyacı vardı. Odur ki, dövrün savadlı və gözüaçıq azərbaycanlıları xalqın maariflənməsinə xidmət edəcək bu seminariyaya yol tapmaq üçün düşünüb, lazımi tədbirlər görürdülər.

1877-ci ildə Azərbaycanın qabaqcıl fikirli nümayəndələrindən olan, o zamanlar Qafqaz canişininin baş dəftərxanasında tərcüməçi işləyən, Azərbaycan əhalisi arasında böyük nüfuza malik olan Mirzə Fətəli Axundzadə və Tiflisdə ruhani başçılarından olan, müsəlman məktəbinin şəriət müəllimi Mirzə Hüseyn Qayıbzadə Qafqaz canişini, böyük knyaz Mixail Nikolayeviç Romanovla hər vasitə ilə tez-tez görüşməyə

cəhd edərək seminariyanın nəzdində Azərbaycan şöbəsinin açılması üçün onu razılığa gətirmək istəyirdilər. Onlar bütün varlıqları ilə xalqın övladlarının maariflənməsinə nail olmağa çalışırdılar. Hətta Mirzə Hüseyn canişinlə söhbət zamanı ona sadə yollarla öz fikirlərini əsaslandırırdı. *(bax: Y.A.Komenski "Böyük didaktika", Bakı, 1948. səh.9)*

O, Qafqaz canişini ilə söhbətdə göstərirdi ki, kənd əhli hər hansı bir iş üçün lazımi idarələrə müraciət etdikdə dil bilmədiklərindən problemlər, çətinliklər yaşayırlar. Odur ki, Mirzə Hüseyn heç olmasa, həmin idarələrdə adi bir işçinin azərbaycanlı olmasının vacibliyini diqqətə gətirmək üçün dönə-dönə xahiş edir, canişinin diqqətini bu kimi məsələlərə cəlb etməyə, razı salmağa çalışırdı.

M.F.Axundzadə bilirdi ki, Qafqaz canişini müsəlmanları geridə qalmış xalq kimi dəyərləndirir. Ona görə də o, canişinə Azərbaycanın həmin dövrdə yaşayan və öz fəaliyyəti ilə seçilən tanınmış şəxsiyyətləri haqqında lazımi məlumat verir, onların uğurlarından danışırdı. Görkəmli maarifpərvər Həsən bəy Zərdabi və Peterburq universitetinin fəxri doktoru Mirzə Kazım bəy, eyni zamanda universitetin professoru Mirzə Cəfər Topçubaşov haqqında aydın təsəvvür yaradırdı. O göstərirdi ki, Mirzə Kazım bəy yalnız Rusiya Elmlər Akademiyasının müxbir üzvü deyil, Londonda Böyük Britaniya və İrlandiya Kral Cəmiyyətinə, həmçinin Kopenhagendə Şimali Antikvarilər Kral Cəmiyyətinə də üzv seçilmişdir. Belə söhbətlərlə bildirirdi ki, dünyanın müxtəlif ölkələrində təhsil alan azərbaycanlılar da az deyil. Lakin hamının buna imkanı yoxdur. Məhz bu səbəbdən də hər iki ziyalı seminariyanın nəzdində azərbaycanlıların təhsil almasına imkan yaradılmasının zəruri olduğunu izah etməyə çalışırdı. Onlar bununla bağlı hazırladıqları bir layihəni Qafqaz canişininə çox ehtiyatla və us-

talıqla təqdim edərək fikirlərini daha inandırıcı şəkildə nəzərə çatdırmağa çalışırdılar. Canişin hər iki ziyalının fikirlərinə diqqət edir, layihəyə baxır və ürəyində nəyisə ölçüb-biçdiyi hiss olunurdu. O, xeyli müddət qarşısında dayanan Mirzə Fətəlini və Mirzə Hüseyn Qayıbzadəni süzüb layihəyə baxır, fikrə getdikdən sonra deyir:

***"Siz ayrıca seminariya istəyirsiniz. Layihədə də göstərirsiniz ki, məktəb ya Tiflisdə, ya da azərbaycanlıların yaşadığı bir xristian şəhərində açılsın. Burası bir az çətinlik törədir. Bunun üçün yaşayış yeri, təhsil üçün bina, müxtəlif ləvazimatlar lazımdır. Bilirsiniz ki, indi ölkə müharibə içindədir, xərc məsələsi də bir yandan. Zənnimcə, məktəbin gürcü və ermənilər kimi hələlik Qori şəhərində açılmasına etiraz etməzsiniz".***

Nəyin bahasına olursa-olsun, Azərbaycan dilində təhsil almağın mühüm əhəmiyyət kəsb etdiyini dərk edən hər iki millətsevər ziyalı üçün bu da bir qələbə idi. Artıq canişin məsələnin hansı yolla həyata keçirəcəyi haqqında məlumat verirdi. Bununla da məsələ həll olunurdu. Beləliklə, canişin yazdığını ucadan oxumağa başlayır: ***"Ölkənin azərbaycanlı əhalisi üçün Zaqafqaziya Müəllimlər Seminariyası yanında təcrübə məqsədilə üç il müddətinə müstəqil Azərbaycan şöbəsi açılsın. Təcrübə yaxşı nəticə verərsə, üç ildən sonra həmin şöbəni azərbaycanlılar üçün müstəqil seminariyaya çevirib, Qoridən Azərbaycanın mərkəzinə köçürülsün!".***

1876-cı ilin mayında "Əkinçi" qəzeti yazırdı: ***"...Qori şəhərində bir məktəbxana açılıb ki, orada oxuyan şagirdləri müəllim eləsinlər. O məktəbxanada 20 nəfər erməni və gürcü padşahlıq xərcinə oxuyacaq. İndi "Kafkaz" adlı qəzet yazır ki, doğrudur, müsəlmanların məktəbxanaları üçün müəllimləri oxutmaqdan ötrü əlahiddə məktəbxana açılacaq, am-***

***ma indi müsəlmanlardan hər kəs xahiş etsə, zikr olan Qoridə açılan məktəbxanaya öz uşaqlarını öz xərcinə qoya bilər. Oraya oxumağa girən hər kəs gərək mahal məktəbdə oxumuş ola və özü 16-19 yaşında ola. Orada 3 il dərs deyiləcək".***

1875-ci il aprelin 8-də Zaqafqaziya Müəllimlər Seminariyasının "Əsasnamə"sində belə qeyd olunurdu ki, müsəlmanlar xüsusi müsəlman müəllim məktəbi açılana kimi bu seminariyaya və onun nəzdindəki məktəbə daxil ola bilərlər. Təbii ki, onlar burada rus dilində təhsil almaq məcburiyyətində idilər.

1876-cı ildə Qafqaz xalqlarının – gürcülərin, ermənilərin, dağıstanlıların və tatarların (o vaxt azərbaycanlıları belə adlandırırdılar) ibtidai məktəblər üçün müəllim kadrları hazırlamaq məqsədilə açılan Qori seminariyasını bitirən nəsil Azərbaycan musiqisinin, mədəniyyətinin, maarifinin, təhsilinin və tərəqqisinin inkişafında müstəsna rol oynadılar. Millətimizin azadlıq və istiqlaliyyət uğrunda apardığı mübarizəsinin önündə getdilər. Ümumi təhsil rus dilində olsa da, hər millətin öz ana dilini və şəriət dərsini ayrıca keçirdilər, eyni zamanda ayrı-ayrı fənlər də tədris edilirdi. Beləliklə, bu yolda çalışan maarifpərvər Azərbaycan ziyalılarının arzuları həyata keçirdi. 1879-cu ildə Qafqaz Təhsil Dairəsinin Qori Müəllimlər Seminariyasının direktoruna göndərdiyi 8762 saylı sənəddə yazılırdı: ***"Sərdarın müavininin əmri əsasında seminariyanın nəzdində təsis olunacaq Azərbaycan şöbəsini yerləşdirmək və onu lazımi əşyalarla təmin etmək üçün Tiflis Hökumət Palatasına təklif edilmişdir ki, zemstvodan yığılmış məbləğdən 4 min manat zati-alilərinizin sərəncamına versin. Hökumət palatası azərbaycanlı gənclərin maariflənməsi naminə qəlbən razı olub bu işi özünə şərəf sanmışdır. Tatarlardan (Azərbaycan türklərindən) kənd müəllimləri ha-***

***zırlamaq məqsədilə sərdarın baş idarəsinin göstərişi əsasında 1879-cu il sentyabrın 1-də seminariyanın nəzdində yeni təsis edilmiş xüsusi tatar şöbəsini yerləşdirmək üçün lazımi əşyaları almaqdan ötrü zemstvo vergisindən pul buraxıldığını zati-alilərinizə bildirməyi hökumət palatası özü üçün şərəf bilir"*** *(Şəmistan Nəzirlinin "Qoridən gələn qatar" kitabından).*

Beləliklə, 1879-cu ilin sentyabrında seminariyanın Azərbaycan şöbəsi açılmış, 1880-cı il mayın 13-də isə şöbənin açılışı rəsmən təsdiq olunmuşdu.

Mövqelər aydınlaşdıqca qarşıda duran vəzifələr də müəyyənləşirdi. Artıq seminariyada dərs deyəsi müəllimlərin təyinatı başlamışdı. Burada Azərbaycan dili və şəriət müəllimi vəzifəsinə Hüseyn Əfəndi Qayıbzadə və Molla Əbdülsalam Axundzadə təyin olunmuşdu. Beləliklə, seminariyanın Azərbaycan şöbəsinin açılmasının təsdiqi qanuniləşdikdən sonra həmin şöbəyə Azərbaycanda yaşayıb, boya – başa çatmış, milliyyətcə rus olan, maarifçi Aleksey Osipovic Cernyayevski inspektor təyin edildi. Lakin seminariyanın direktoru Dmitri Dmitriyeviç Semyonov çox ümidsiz idi. Çünki ərizə verən, qəbula gəlmək istəyənlərin sayı azlıq təşkil edirdi. O, Aleksey Osipovic yanına çağırıb fikirlərini onunla bölüşdü və dedi ki, belə getsə, şöbənin fəaliyyət göstərməsi mümkün olmayacaq. Aleksey Osipovic isə ümüdini itirmədən tələbə axtarışına çıxdı. O, əvvəlcə İrəvan, Naxçıvan və Gəncəyə, sonra isə Şuşa, Şamaxı, Quba və Dərbəndə gedərək qapı-qapı gəzib seminariyaya şagird toplayırdı. Çernyayevski yüz kilometrlərlə yolu faytonla, araba ilə, qatarla, bəzən də payi-piyada getməli olurdu. Bununla o, sanki azərbaycanlıları işıqlı yola çıxartmaqla doğma vətəninə olan borcunu vermək istəyirdi.

Görkəmli yazıçımız İsmayıl Şıxlının "Dəli Kür" əsərində və eyniadlı filmdə Çernyayevskinin Azərbaycan təhsilinin inkişafındakı xidmətləri qabarıq şəkildə göstərilmişdir. O, azərbaycanlı uşaqların maariflənməsi, təhsil alması üçün bütün ömrünü həsr edib desək, daha doğru olar. Sonralar həmin seminariyanın məzunu, maarifpərvər ziyalı Firidun bəy Köçərli yazırdı: ***"Qori seminariyasının Azərbaycan şöbəsində yaxşı və diqqətəlayiq nə vardısa, hamısı Çernyayevskinin adı ilə bağlıdır. Çernyayevskinin "Vətən dili" bizim məktəblərdə tamam yeni bir dövr açdı".***

Çernyayevskinin axtarışları, səmərəli fəaliyyəti nəticəsiz qalmadı. Çox keçmədən qədəm qoyduğu bütün bölgələrdən gənclərin Qoriyə gəlməsinə və burada fəaliyyət göstərən seminariyada təhsil almasına nail oldu. Həmin gənclər sonralar Azərbaycan təhsilinin, maarifinin inkişafında xüsusi xidmətləri ilə seçildilər. Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Teymur bəy Məmmədbəyov, İsmayıl ağa Vəkilov, Məmmədağa Şıxlınski, Rəsid bəy Əfəndiyev və başqaları seminariyanın adlı-sanlı məzunları sırasında layiqli yer tuturdular. O zaman kifayət qədər hazırlığı olmayan tələbələrdən ötrü əsas şöbəyə daxil olmaq üçün seminariyanın nəzdində ibtidai məktəb açılsa da, onlar bütün çətinliklərə baxmayaraq, özlərindən sonra gələnlərin yolunu işıqlandırmaq üçün səylə çalışırdılar. Həmin məktəbdə bir tərəfdən şagirdlərə sövti (anlaşıqlı) üsulla Azərbaycan və rus dillərindən dərs deyilir və onlar əsas şöbəyə hazırlanırdılar, digər tərəfdən seminariyanın əsas siniflərində oxuyan tələbələr üçün də təcrübə dərsləri keçilirdi. Müəllim olmadığına görə məktəbi A.S.Çernyayevski idarə edir, həm də S.Vəlibəyovu öz yerinə hazırlayırdı. Aşağı siniflərdə azərbaycanlı tələbələr bilikləri qavramaqları, gözəl əxlaqları və yüksək mə-

dəniyyətləri ilə seminariyanın digər millətlərdən olan tələbələri arasında fərqlənərək müəllimləri heyrətə salmışdılar. Belə ki, Firidun bəy Köçərli tələbə ikən yunan filosofu Sokratın həyatı və əxlaqi görüşlərinə həsr olunmuş "Təlimati-Sokrat" əsərini tərcümə etmişdi. Sonralar Salah bəy Zöhrabbəyovla birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib etdilər. Rus, fars və ərəb dillərini yaxşı bilən tələbə Səfərəli bəy Vəlibəyov isə "Xəzineyi-əxbar" adlı ensiklopedik kitab tərtib etmişdi. Bu istedadına və ilk buraxılışda təhsilini əla qiymətlərlə bitirdiyinə görə şura Səfərəli bəy Vəlibəyovu 1881-ci ildə seminariyada ana dili müəllimi təyin etdi. Bundan başqa şura Firidun bəy Köçərlini İrəvan gimnaziyasına, Teymur bəy Bayraməlibəyovu Lənkəran qəzasına, Mirzə Əli Məhəmmədi isə Naxçıvana ibtidai rus-tatar məktəbinə müəllim göndərilməsi haqqında qərar verdi. Rəşid bəy Əfəndiyev isə Şəki qəzasının Qutqaşen kəndinə məktəb müdiri vəzifəsinə təyin edildi.

Seminariyada Azərbaycan dilinin tədrisi sahəsində xüsusi xidmətləri olmuş Aleksey Osipovic Çernyayevski azərbaycanlı tələbələr üçün "Vətən dili" dərsliyini tərtib etdi. O, təcrübəli müəllim kimi lazımi materialları seçmiş, atalar sözlərindən, tapmacalardan, zərb-məsəllərdən geniş istifadə etmiş və materialları uşaqların başa düşəcəyi şəkildə verməyə nail olmuşdur. Bu kitabdan seminariya ilə yanaşı, ölkənin bütün qəza məktəblərində də istifadə olunurdu. Həmin kitabı tələbəsi Rəşid bəy Əfəndiyevin xətti ilə daşbasma üsulu ilə nəşr etdirmişdi. O, "Vətən dili" kitabında Azərbaycan atalar sözlərindən, tapmacalardan, zərb-məsəllərdən, şairlərin şeirlərindən parçalar vermişdi. Rus məktəblərində tədris olunan Konstantin Uşinskinin "Rodnoye slovo" dərsliyi nə qədər əhəmiyyətli idisə, Çernyayevskinin müəllifi olduğu "Vətən

dili" kitabı da azərbaycanlılar üçün o qədər lazımlı idi. "Vətən dili"ndən əvvəl Azərbaycan şöbəsi üçün dərslik olmadığından Çernyayevski tələbələrinin köməyi ilə həftəlik proqram tərtib etdi. Sövti-üsulla məşğələ aparmaq üçün qiraət materialı hazırladı. Çernyayevskinin ustalıqla tərtib etdiyi tədris materialı Qafqaz Təhsil Dairəsinin hesabatında bildirildiyi kimi azərbaycanlı məzunların pedaqoji hazırlığı üçün ən yaxşı baza oldu.

Azərbaycanda böyüyən, Azərbaycan xalqının keyfiyyətləri ilə yaxından tanış olan, onlardan daim qayğı görən Çernyayevski bu xalqın qüruruna toxunanlarla daim mübarizə aparırdı. Bununla bağlı onun bir qəzet redaktoruna verdiyi cavab bu sevgini bir daha nəzərə çatdırır: ***"Bilmirəm cənab Veliçko ilə tanışlığınız varmı? Qafqaza yenicə gələndə Veliçko da sizin gündə idi. Amma indi çox ədalətli yazılarla bu xalqların soy-kökü haqqında real bir mövqe tutub. Tədqiqatı ilə sübut edib ki, məhz ermənilərin nə gürcülərdən, nə də azərbaycanlılardan torpaq iddiası ola bilməz. Ermənilər Qafqaza gəlmədilər. Veliçko indi "V. Vorenesski" təxəllüsü ilə Şərq mövzusunda, Şərqin müdrikliyi və qədimliyi haqqında silsilə şeirlər yazır. Siz hamınız bir bezin qırağısınız, mərkəzin zəhər tuluğunu götürüb, oba-oba gəzərək xalqları zəhərləyirsiniz".***

Xalqın düşüncəsini oyatmaq, bilik və bacarığını üzə çıxarmaq, həmçinin onları maarifləndirmək üçün Aleksey Osipovic Azərbaycan dilində qəzet çıxarmaq istəyirdi. Ancaq Azərbaycanı sevməyənlər onun bu cəhdlərinə mane olur və müəyyən bəhanələrlə qəzetin nəşrinə imkan vermirdilər. Bu da gözəl bir insanın, Azərbaycansevər maarifpərvər ziyalının vaxtsız ölümünə səbəb olur. Beləliklə, 1894-cü ilin dekabrında Aleksey Osipovic Çernyayevski ürək tutmasından vəfat edir.

Çernyayevskinin yandırdığı məşəlin işığında Qori Müəllimlər Seminariyasına təhsil, maarif, mədəniyyət dalınca gedən azərbaycanlıların sayı ildən-ilə artırdı. Onlar Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda başlanan istiqlal savaşında mücadilə edənlərin sırasına qoşulurdular. Ömürlərinin sonunadək bu mübarizədən geri çəkilməyənlərin əksəriyyəti məhz Qori Müəllimlər Seminariyasının məzunları idi. Bunlardan adlarını qürurla çəkə biləcəyimiz şəxsiyyətlərə Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Sultan Məcid Qənizadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Rəşid bəy Əfəndiyev, Müslüm Maqomayev, Şıxlinskilər, Süleyman Sani Axundov, Hacıbaba Süleymanov, Nəriman Nərimanov, Osman Əfəndiyev, İsfəndiyar Vəkilov, Fərhad Ağazadə və başqaları. 1905-ci ilin avqustundan 1908-ci ilin avqustunadək tanınmış maarifçi Sultan Məcid Qənizadə seminariyanın Azərbaycan şöbəsinin inspektoru vəzifəsində işləmişdir. Digər məzunlar isə qəzalara, ucqar kəndlərə gedir, orada dərs deyir, beləliklə, millətin savadsızlığını aradan qaldırır, cəhalətdən xilas edirdilər. Çünki bu xalqın, bu məmləkətin azadlığı və müstəqilliyi üçün hər şeydən öncə, maarifə, mədəniyyətə, tərəqqiyə ehtiyacı vardı.

O dövrdə yaşayan, yazıb-yaradan görkəmli ziyalı qadın Şəfiqə Əfəndizadə "Azərbaycan" qəzetinin istedadlı yazarlarından biri idi. Bir jurnalist kimi qəzetin hər nömrəsində dərc edilən yazılarında qadınları, anaları elmə, təhsilə, maarifə, mədəniyyətə səsləyirdi. Qəzetin 25 iyun 1919-cu il 211-ci nömrəsində "Vətən bizim anamızdır" adlı məqaləsində yazırdı: ***"Xanımlar! Həmşərilər! Bu gün Vətən bizim qeyrətimizə, millətin səadəti bizim xariqüladə səylərimizə mərbuddur. Qəlbində həmiyyəti bulunan, nanu-neməti ilə pərvərdə olduğu Vətəninə qəlbində məhəbbət hiss edən hər bir insan, xüsusən, hər bir qadın gücü yetdiyi mərtəbədə vəzifəsini ifadəyə çalışmalıdır".***

"Azərbaycan" qəzetinin 1918-1919-cu illərdə əməkdaşı olmuş Qori seminariyasının məzunu Fərhad Ağazadə də hər məqaləsində xalqının, millətinin nicatını elmdə, təhsildə gördüyünü yazır, yetişən gəncləri təhsil almağa səsləyirdi. Valideynlərə uşaqlarını məktəbə göndərməyi, onları təhsilləndirməyi tövsiyə edirdi.

1902-ci ildə İrəvanda işləyən Miropyev Qori Müəllimlər Seminariyasına direktor təyin olunur. Bununla da azərbaycanlılara qarşı xoşagəlməz münasibət yenidən başlayır. Qəddar mütləqiyyət tərəfdarı olan Miropyev azərbaycanlı seminaristlərə qarşı amansızlıq edir, onlara cəza verdirirdi. Hətta azərbaycanlı tələbələrdən haqsız olaraq seminariyadan qovulanlar da olurdu. Tənəffüsdə ana dilində danışmaq azərbaycanlı tələbələrə qadağan olunurdu. Bu da məlumdur ki, 1900-cü il dekabrın 3-də hazırlıq sinfinin şagirdi Üzeyir bəy Hacıbəyliyə ana dilində danışdığına görə töhmət verilmişdi. Belə çətin, gərgin şəraitdə təhsil alan məzunlar sonralar etiraf edirdilər ki, xalqlarının azadlığı və müstəqilliyi uğrunda son nəfəsədək mübarizə aparmaqda miropyevlərin, saakovların, arutyunovların "böyük rolu" oldu. Firidun bəy Köçərli isə artıq təzyiq və təqiblərə dözə bilmirdi. O, üzünü mürtəce Miropyevə tutaraq: ***"Məncə, ana dilində danışmaq qəbahət deyil. Bu uşaqlar sabah seminariyanı bitirdikdən sonra kənd məktəblərində dərs deyəcəklər. Əgər ana dilləri ölərsə, dindaşlarına necə dərs keçəcəklər? Daraşmısınız Qafqaz müsəlmanlarının canına. Cənab Qənizadədən sonra mürtəce fəaliyyətinizi daha da genişləndirmək fikrinə düşürsünüz? Bəsdir, Azərbaycan şöbəsini addım-addım güdməyiniz"*** – deyirdi. Ancaq bütün bunlara baxmayaraq, müsəlmanlara və o cümlədən də, azərbaycanlılara təzyiqlər davam edirdi.

# SEMİNARİYANIN AZƏRBAYCAN ŞÖBƏSİNİN QAZAXA KÖÇÜRÜLMƏSİNDƏ FİRİDUN BƏY KÖÇƏRLİNİN ROLU

***Dəmir yolu dayanacağında qatarın tərpənməsinə az qalırdı. Millətinə maarif işığı aparan Firidun bəyin necə həyəcan və sevinc hissi keçirdiyini görürdüm.***

**Əli Hüseynov**

O dövrdə yaşayan Azərbaycan ziyalıları Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müsəlman əhalisinin daha sıx yaşadığı Bakı, Şamaxı, Gəncə, Ağdam, Şuşa şəhərlərindən birinə köçürülməsi üçün zaman – zaman təkliflər irəli sürürdülər. Lakin hər addımda çətinliklərlə üzləşirdilər. Çar Rusiyası müxtəlif yollarla, bürokratik, süni əngəllərlə bu işə mane olurdu. Bütün maneələrə baxmayaraq, ziyalılar bu yoldan çəkinmirdilər. 1884-cü ildən başlayaraq Azərbaycan maarifçiləri bu işə xüsusi təşəbbüs göstərməyə başladılar. Onlar bir neçə məsələ ilə bağlı fikirlərinə aydınlıq gətirirdilər. Məsafə uzaqdır, Qoridə azərbaycanlılar yaşamır, vəsait çətinliyi var, şagird azlığının olması müəllim kadrlarının lazımi səviyyədə hazırlanmasına mane olur və s. Səfərəli bəy Vəlibəyov seminariyada keçirilən şura iclaslarında dəfələrlə eyni məzmunda təkliflərlə çıxış etsə də, hər dəfə ona sərt şəkildə etiraz olunur və əsassız cavablar verilirdi. 1906-cı ildə N.Nərimanov “Həyat” qəzetində yazırdı:

***"Qori seminariyasına 60 nəfərdən artıq şagird qəbul olunmur. Darülmüəllim Bakıda, Gəncədə və ya qeyri-müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan 60 nəfər müsəlman uşağın seminariyada elm-təhsil almağa imkanları olacaq."***

Həmin il Firidun bəy Köçərli Bakıda "Nəşri-maarif" cəmiyyətinin iclasında çıxış edərək Tiflisdəki seminariyanın Azərbaycan şöbəsində vəziyyətin ağır olduğunu bildirir və məktəbin Azərbaycan şəhərlərinin birinə köçürülməsi məsələsini yenidən qaldırır. Lakin nə çar üsul-idarəsi, nə də gürcü knyazlığı buna icazə vermir. Bütün bunlara baxmayaraq, öz üzərində daha çox məsuliyyət hiss edən xalqımızın maarifpərvər, mütərəqqi ziyalısı Firidun bəy Köçərli bu məsələ ilə bağlı daim düşünür və yeni yollar axtarırdı. Zaman özü hər şeyi həll etdi. Baş verən hadisələr, yəni, inqilab nəticəsində çar hökuməti devrildi. Rusiya çarının devrilməsi ilə bağlı həm rusları, həm də gürcü knyazları yeni hökumət qurmağa başladılar. 1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanını dövlət müstəqilliyini elan edir. Yeni yaranan müstəqil dövlətin qarşısında bir sıra mühim məsələlərlə yanaşı, maarifin inkişafı ilə bağlı təxirəsalınmaz işlərin görülməsinə də xüsusi diqqət yetirilirdi. Bu təxirəsalınmaz işlərdən biri də Qori Müəllimlər Seminariyasının tatar şöbəsinin Azərbaycana köçürülməsi idi. Gürcüstana yaxınlığını nəzərə alaraq şöbənin Qazaxa köçürülməsinin məqsədəuyğun olduğunu qərarlaşdırdılar. AXC hökuməti bunula bağlı 1918-ci il 22 iuyn tarixli qərarı ilə şöbənin keçmiş müfəttişi Firidun bəy Köçərlinin sərəncamına 5000 rubl pul vəsaiti ayırır. Firidun bəy Köçərli seminariyanın Azərbaycan şöbəsinə məxsus bütün dəftərxana ləvazimatını, müxtəlif avadanlıqları qatara dolduraraq həmin vəsaitlə Qazağa aparır. Beləliklə, AXC-nin Xalq

Maarif Naziri Nəsib bəy Yusifbəylinin 1918-cı il 12 oktyabr tarixli əmri ilə Qori Müllimlər Seminariyasının Azərbaycan şöbəsi Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə vəsaiti hesabına Qazağa köçürülür.

1920-ci ildən 1940-cı ilə qədər Qazax Pedaqoji Texnikumu adı ilə fəaliyyət göstərir. Göründüyü kimi, bu tədris ocağının Qazağa köcürülməsində görkəmli maarifçi-pedaqoq, metodist, ədəbiyyatşünas, publisist Firidun bəy Köçərlinin çox böyük əməyi olmuşdur. Xalqının balalarını maarifləndirmək arzusu ilə yaşayan Məşədi İbrahim adlı ziyalı 17 otaqlı mülkünü seminariya üçün Firidun bəy Köçərliyə bağışlayır. Özü isə doğma kəndi Kosalara köçüb, ömrünü oradakı evində başa vurur. Bu da məlumdur ki, 1914-cü ildə onun oğlu Museyibin də təhsil almasında, maariflənməsində Firudin bəy Köçərlinin mühüm rolu olmuşdur. Məşədi İbrahim oğlunun həyatında müəllimin, təhsilin, böyük və əvəzsiz rolunu görürdü. Yetişən nəsillərin mənəvi zənginlik zəminində, milli-mənəvi dəyərlərin qorunması sahəsində bu seminariyanın böyük əhəmiyyət kəsb etdiyini bildiyindən belə cəsarətli və səxavətli bir işə imza atmışdı. Bu, əsl müdriklik idi.

Yaşadıqları dövrdə onların nə qədər zəngin mənəviyyata və dünyagörüşünə malik ziyalılar olduğu bir daha nəzərə çarpdı. Təhsilimizdə, mədəniyyətimizdə, ədəbiyyatımızda xüsusi xidmətləri olan böyük şəxsiyyətlərin yetişməsində Qazax Müəllimlər Seminariyasının xüsusi rolu və əhəmiyyəti danılmaz faktdır. Həmin şəxsiyyətlər sırasında fəxri yer tutan Səməd Vurğun, Mehdixan Vəkilov, Osman Sarıvəlli, Mehdi Hüseyn, Seyfulla Samilov, İsmayıl Şıxlı kimi böyük bir ziyalı nəsli Qazax Müəllimlər Seminariyasının yetirmələridir.

Qazax seminariyasının Azərbaycan şöbəsinin bazasında müstəqil Qazax Müəllimlər Seminariyasının təntənəli açılı-

şında Qazaxda dislokasiya yerində olan türk ordusunun komandanı Səbri bəy, türk qarnizonunun rəisi Camal bəy, Qazaxın polis rəisi H. Şıxlinski və yerli hökumətin məmurları iştirak edirdilər. Bu da məlumdur ki, Cəbrayıldan, Şamaxıdan, Goyçaydan, Naxçıvandan, Zaqataladan və başqa rayonlardan da şagirdlər gəlib burada təhsil alırdılar. Böyük maarifçi və ictimai xadim Firidun bəy Köçərli seminariyaya başçılıq etməklə yanaşı, Qazaxda yüzlərcə qız uşağının savadlanması üçün yetimlər kursu təsis edir, qaçqınlara yardım fondu yaradır.

1920-ci ildə bolşeviklərin XI qırmızı ordusunun Bakını işğal etməsi ilə Azərbaycanda Sovet hakimiyyəti quruldu. Firidun bəy Köçərli Müsavat partiyasının üzvü olduğuna görə həbs edildi və vəzifəli erməni terrorçuları tərəfindən qətlə yetirildi. Bundan sonra seminariyaya xalq yazıçısı Mehdi Hüseynin atası Əli Hüseynov rəhbərlik etməyə başladı.

Qazax Müəllimlər Seminariyasının fəaliyyəti Azərbaycanda təhsilin, maarifin inkişafına böyük təkan verdi. Görülən təcili tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Bakıda, Gəncədə, Şəkidə, Salyanda, Şuşa və Qazaxda 23 dövlət orta təhsil müəssisəsi, o cümlədən, 6 kişi, 4 qadın gimnaziyası, 5 real məktəb, 3 müəllim seminariyası, 3 qadın təhsil müəssisəsi, 1 politexnik və 1 ticarət məktəbi fəaliyyət göstərirdi. Qori Müəllimlər Seminariyasının bəhrəsi Azərbaycanda daha çox nəzərə çarpırdı. O dövrdə qısa vaxt ərzində Azərbaycanda pedaqoji kursların təşkilinə başlanıldı. Gəncədə, Qazaxda, Şuşada, Şəkidə kişi, Bakı, Şəki və Gəncədə ikiillik qadın kursları açıldı. Maarifi və milli mədəniyyəti təbliğ edən cəmiyyətlər, xeyriyyəçi kurslar təşkil edildi. Gənclərin milli ənənələr, milli özünüdərk və vətənpərvərlik ruhunda tərbiyə olunmasında nəzərə çarpan amillərdən biri də Qori Müəllimlər Seminariyasını bitirən mütəxəssislərin geniş fəaliyyəti idi.

Təhsilin ana dilində aparılmasında yaranmış çətinliklər də daim gündəmdə olan məsələlərdən sayılırdı. Bu çətinliklər onunla əlaqədar idi ki, ana dilini bilən yüksək ixtisaslı kadrlar yox idi. Bundan əlavə, Azərbaycan dilində dərsliklər çatışmırdı. Məhəmməd ağa Şahtaxtlı 1919-cu ildə "Azərbaycan" qəzetində dərc etdirdiyi məqaləsində yazırdı: ***"Universitetdə təhsilin rus dilində aparılmasından qorxmaq lazım deyil, universitet təhsilinin həyata keçirilməsi Azərbaycanda yüksəkixtisaslı kadrların yetişməsinə zəmin yaradacaq, nəticədə milli kadrlar yetişdikcə universitetdə təhsil tədricən Azərbaycan dilində keçiriləcəkdir".***

Unutmaq olmaz ki, çar dövründə məktəblərdə təhsil rus dilində olduğundan ziyalılar da bu dildə təhsil almağa məcbur idilər. Sovetlər birliyinə daxil olan ölkələr arasında ortaq danışıq və dövlət dili rus dili hesab olunsa da, təhsil ana dilində də aparılırdı. Ancaq nədənsə ziyalılarımızın əksəriyyəti rus dilində təhsilə üstünlük verirdilər. Bu da doğma ana dilinin ikinci plana keçməsinə gətirib-çıxarır və sonda demək olar ki, tədricən unudulurdu.

1991-ci il oktyabrın 18-də ikinci dəfə respublikamız müstəqilik əldə etdikdən sonra Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilini dövlət dili kimi təsdiqlədi. Bununla bağlı bütün sənədləşmələr Azərbaycan dilində aparılır. Təəssüf ki, müstəqillik dövründə də müəyyən sosial statusa malik olan insanlar öz doğma dilində səlis danışa bilmədiklərindən xarici dillərə üstünlük verirlər. Doğrudur, dil öyrənmək çox yaxşıdır, əhəmiyyətlidir, mədəniyyətlərə inteqrasiyadır. Bununla belə, ana dilini əvəz edə bilməz. Azərbaycanın filosof – vətənpərvər şairi Bəxtiyar Vahabzadənin mənim dilim haqqında dediyi fikirləri oxuduqca bir daha doğma dilimizin zənginliyini, saflığını, xüsusi avazlı və axıcı olmasını duyuruq:

***"Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,***
***Bu dil bir-birimizlə əhdi-peymanımızdır.***
***Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,***
***Bu dil əcdadımızın bizə miras verdiyi***
***Qiymətli xəzinədir... onu gözlərimiz tək***
***Qoruyub, nəsillərə biz də hədiyyə verək."***

Hətta Sovetlər birliyində Azərbaycana rəhbərlik edən Heydər Əliyev rus dilini mükəmməl bilməsinə baxmayaraq, ana dilində danışmağa üstünlük verirdi. Onun mükəmməl, səlis, rəvan nitqi dinləyənləri heyran etməklə yanaşı, Azərbaycan dilinin axıcılığı, sanki həzin musiqiyə bənzəməsi ilə də valeh edirdi. Bu Ümummilli Liderin öz xalqına, ana dilinə olan məhəbbətinin parlaq nümunəsi idi.

# ZAQAFQAZİYA MÜƏLLİMLƏR SEMİNARİYASININ ŞUŞALI MƏZUNIARI

## FİRİDUN BƏY KÖÇƏRLİ

***Öz fəaliyyəti üçün pedaqoji sahəni seçmiş hər bir müəllim ağlı, biliyi, sənətsevərliyi ilə yanaşı, həm də uşaqlara məhəbbət və qayğı ilə döyünən ürəyə malik olmalıdır.***

**F.Köçərli**



Azərbaycan ədəbiyyatı tarixi elminin banisi, pedaqoq, metodist, ədəbiyyatşünas, publisist Firidun bəy Köçərli 1863-cü il yanvarın 26-da Şuşa şəhərində, “Köçərli” məhəlləsində anadan olub. O, doğulduğu məhəllənin adını özünə soyad qəbul edib. İlk təhsilini 1872-1876-cı illərdə Şuşada mədrəsədə alıb. 1876-cı ildə isə Şuşa şəhər məktəbində təhsilini davam etdirib.

1879-ci ildə tələbə toplamaq məqsədi ilə Qori semi-

nariyasının rəhbəri Aleksey Cernyayevski Şuşaya gəlir, Firidun bəyin oxuduğu məktəbdə onunla tanış olur. Rus dilini bilməsini və bacarığını nəzərə alaraq təhsil almaq üçün onu özü ilə Qoriyə aparır. Beləliklə, 1879-cu ildə Firidun bəy ilk olaraq Zaqafqaziya Müəllimlər Seminariyasının hazırlıq bölməsində təhsil alır, sonra isə əsas siniflərə daxil olur. Təhsil aldığı illərdə müəllimləri A.O.Cernyayevski və M.Kipiani ilə yaxın əlaqədə olur. O, 1884-cü ildə Qori Müəllimlər Seminariyasında təhsil alarkən "Təlimi-Sokrat" əsərini yazıb. "Tatar komediyaları" adlı ilk elmi məqaləsi Tiflisdə "Novoye obozreniye" qəzetində dərc olunub. Firidun bəy Köçərli 1885-ci ildə seminariyanı bitirdikdən sonra Şirvan gimnaziyasına təyinat alır. O, bu gimnaziyada ana dili, hüsnxətt fənlərini tədris edir, həmçinin pansion mürəbbisinin köməkçisi vəzifəsində çalışırdı. O, 1886-cı ildə ilk teatr əsərini, 1890-cı ildə isə İrəvanda "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaya qoyub. 1891-ci ildə "Təlimi-Sokrat" adlı kitabı Bağçasarayda "Tərcüman" mətbəəsində, 1892-ci ildə isə tərcümə etdiyi A.S.Puskinin "Torçu və balıq" mənzum nağılını kitab halında İrəvan şəhərində nəşr etdirmişdir. O, həmçinin İrəvan gimnaziyasında çalışdığı illərdə Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türkü" adlı dərslik tərtib etmişdir. Həmin illər ərzində pedaqoji sahədə göstərdiyi yüksək fəaliyyətinə görə dəfələrlə mükafatlandırılmışdı. Ona kollec katibi, titulyar müşavir və mülki müşavir rütbələri verilmişdir. 1895-ci ildə o, Qori Müəllimlər Seminariyasının tatar şöbəsinin Azərbaycan dili və şəriət müəllimi təyin edilir. Beləliklə, İrəvan şəhərindən ayrılır. 1910-cu ildə Firidun bəy əvvəl Qori seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı, sonra isə Azərbaycan şöbəsinin inspektoru vəzifəsində çalışır.

"İrşad " qəzetində "Bir darülmüəllimin kifayətdir" adlı məqalə ilə çıxış edərək Azərbaycanda müstəqil müəllimlər seminariyası yaradılması məsələsini qaldırır. O, eyni zamanda Cəlil Məmmədquluzadənin eyniadlı məqaləsini "Usta Zeynal" kitabçası haqqında "Znaniye" qəzetində çap etdirir. 1911-ci ildə Tiflisdə M.F.Axundzadənin anadan olmasının 100 illik yubileyi keçirilir. Firidun bəy bu yubileydə M.F.Axundzadə ilə bağlı geniş bir məruzə ilə çıxış edir. Yubileydən sonra o, "Mirzə Fətəli Axundov" adlı kitabını nəşr etdirir.

Onun uşaqlar üçün 1912-ci ildə yazdığı "Balalara hədiyyə" kitabı Bakıda "Kaspi" mətbəəsində çap olunur. 1913-cü ildə "Azərbaycan ədəbiyyatı tarixi" adlı üçcildlik əsərini yazır.

Seminariyada işlədiyi dövrdə daim Azərbaycan dilinin qarışıq sözlərdən təmizlənməsi haqqında düşünür və bununla bağlı məlumatlar toplayırdı. Ziyalılarla görüşlərində o deyərdi: ***"Fars və ərəbə meyl və rəğbətimiz o qədər çox olubdur ki, öz dilimizdə olan sözləri ötüb, əvəzinə, əcnəbi dillərinin qəliz ibarələrini və sözlərini götürmüşük və götürdüyümüz sözləri və ibarələri öz dilimizin şivəsinə uydurmayıb, həmin hal ilə dilimizə qarışdırmışıq və naqabil pinəçilər kimi əlimizə nə düşübsə, paltarımıza yamamışıq. Gözəl libasımızı hoqqabaz libasına bənzətmişik...".***

Yəqin ki, Firidun bəy sağ olsaydı, indi bu fikirlərində "ərəb və fars dili" sözlərini "rus və ingilis" dili sözləri ilə əvəz edərdi.

Qori seminariyasında təhsil rus dilində aparıldığından və ora gəlmək istəyən azərbaycanlıların imkanları məhdud olduğundan, həmçinin dil bilmədiklərindən müəyyən çətinliklərlə qarşılaşırdılar. Odur ki, Firidun bəy 1916-1917-ci illərdə seminari-

yanın Azərbaycana köçürülməsi üçün təşəbbüs göstərərək müvafiq təkliflər irəli sürmüşdür.

F.Köçərli M.Y.Lermontovun "Üç xurma ağacı" və A.Koltsovun "A kişi, niyə yatıbsan?" şeirlərinin tərcüməsindən ibarət kitabı Susada çap edilmişdir. 1918-ci ilə qədər Qoridə pedaqoji fəaliyyətini davam etdirir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaranır. Elə həmin il Firidun bəy Milli Suranın üzvü seçilir və İstiqlal bəyannaməsini imzalayır. Sonralar AXC Firidun bəyin köməyi ilə həmin seminariyanı yenidən Qazaxa köçürmüşdü ki, bunun da əsasında Azərbaycan Müəllimlər Seminariyası yaradılmışdır. Firidun bəy Köçərli seminariyanın direktoru təyin edilir. Beləliklə, 1918-ci il sentyabrın 17-də Qazax Müəllimlər Seminariyasında ilk dərslər başlayır. Elə həmin il Qazaxda ilk uşaq evi də onun vasitəsilə açılır. Firidun bəy o dövrdə fəaliyyət göstərən "Musavat" partiyasına üzv olaraq siyasi proseslərə də qoşulmuşdu. O, 1919-cu il fevralın 1-də Müsavat partiyası səyyar bürosunun Mərkəzi Komitəsinin təşəbbüsü ilə təşkil edilmiş Qazax şöbəsinə sədr seçilmişdir.

Firidun bəy Sovet işğalına qədər Qazax Müəllimlər Seminariyasgna rəhbərlik edir. 1920-ci ildə "Vətən dili"nin I hissəsinin yenidən nəşr olunmasında iştirak etmiş, onlarla dərsliyə düzəliş edərək nəzəri materialı, hekayələri artırmış, metodika və üslubiyyəti zənginləşdirmişdir. Azərbaycan ədəbiyytaına böyük töhvələr verəcək Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı kitabını nəşr etdirmək üçün bir çox nəşriyyatlara müraciət etmiş, böyük maneələrlə rastlaşdığından kitabları çap etdirə bilməmişdir. Lakin ölümündən sonra 1925-ci ildə "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabının I hissəsi 1926-cı ildə isə kitabın II hissəsi çap edilmişdir. Uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı isə 1967-ci, 1972-ci və 2013-cü illərdə çap olunmuşdur.

Beləliklə, 20 il Qoridə, 10 il İrəvan gimnaziyasında, 2 il Qazax seminariyasında işləyərək azərbaycanlı gənclərin təlim-tərbiyəsində, savad almasında xüsusi rol oynayan F.B.Köçərlini 1920-ci ilin mayında Qazax kommunistləri və digər "Müsavat" funksionerlərini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə", general-qubernator Ə.Xoyskinin etibarlı şəxsləri olmaqda ittiham etdilər. Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinin təqdimatına əsasən ədib həbs olunmuş, 20-ci diviziyanın 7-ci xüsusi bölməsinin xüsusi şöbəsində şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnməsi haqqında qərar çıxarılmışdır. Qərar 7-ci xüsusi bölmənin rəisi Liberman və fövqəladə komissar Həmid Sultanov tərəfindən təsdiq edilmiş, hökm yerinə yetirilmişdir.

Güllələnmə haqqında çıxarılmış qərar: ***Mən iyirminci diviziyanın xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firidun bəy Köçərlinskinin əksinqilabçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilab Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinskinin özünün hakimiyyətindən və böyük səlahiyyətindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq göstərmişdir. Köçərlinski Qazaxda "Musavat" partiyasının sədri olarkən millətçilik ehtiraslarını qızışdırmışdır. Nəticədə qonşu millətlər arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahat heç də inandırıcı deyil... Məttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini nəticəsiz qoymaq (rədd etmək) lazımdır. Onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsız olaraq qanlarının tökülməsinə səbəb ola bilər.***

***Qərara alınır: müttəhim Köçərlinski güllələnsin.***

***Təsdiq edirəm: 7 №-li Xüsusi bölmənin rəisi Liberman***

***Təsdiq edirəm: Fövqəladə komissar H.Sultanov*.**

Firidun bəy Köçərlinin xatirəsi əziz tutularaq 1967-ci il sentyabrın 12-dən Respublika Uşaq Kitabxanası onun adını daşıyır. 2013-cü ildə Firudin bəy Köçərlinin anadan olmasının 150 illik yubileyi keçirilmişdir.

Firidun bəy Köçərlinin fikirlərini oxuduqca onun böyüklüyü, ziyalılığı, vətənsevərliyi gözlərimiz qarşısında canlanır. Onun xalqına, dilinə, tarixinə, ədəbiyyatına olan məhəbbətini duyur və qürurlanırıq:

***"Hər bir millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayesi mənziləsindədir. Ananın südü bədənin mayesi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və Vətənini sevdiyi kimi, ana dilini də sevir".***

***"Əgər bir xalqı məhv etmək, onu adam toplusuna çevirmək istəyirsinizsə, müəllimini savadsız, həkimini isə kəmsavad eləyin. Biri onun başını, o biri canını zay eləsin".***

***"Hər bir xalqın maddi yoxluğu, iqtisadi düşkünlüyü onun zehni yoxluğunun, mənəvi düşkünlüyünün nəticəsində meydana çıxır".***

***"Əsl ədəbiyyat həyati həqiqətləri əks etdirməklə yanaşı, cəmiyyəti, xalqı aqcıl ideyalarla silahlandırmalıdır, onun azadlıq mübarizəssinə kömək əlidir: həqiqi şair millət və Vətən yolunda canlar fəda etmək lazım isə vətən insanlarının ürəyinə yandırıcı od salıb, onları hər qisim fədakarlığa və nisarlığa şövqmənd etməlidir".***

***"Biz dilimizi bilmirik və bunda təqsir bizdədir, dilimizdə deyil. Fars və ərəbə meyl və rəğbətimiz o qədər çox olubdur ki, öz dilimizdə olan sözləri atıb, əvəzinə, əcnəbi dillərin qəliz ibarələrini və sözlərini götürmüşük və götürdüyümüz sözləri və ibarələri və öz dilimizin şivəsini uydurmayıb eyni halı ilə dilimizə qarışdırmışıq və nəqabil pinəçilər kimi əlimizə hər nə düşübsə,***

***paltarımıza yamamışıq. Bizim qəzetlərdə çap olunan məqalələr, teleqram tərcümələri, hətta elanlar o qədər dolaşıq və çətin dildə yazılır ki, oxuyanlar başa düşməyir və başa düşmədikləri halda qəzetə oxumaqdan rəğbətləri kəsilir. Dilin şivəsini itirmək və üslubunu pozmaq böyük fəsaddır. Mərhum Həsən bəy Məlikovun "Əkinçi" qəzetinin nömrələri əlinizə düşsə, oxuyub bu mətləbin barəsində bir az fikir eləyin".***

Firidun bəyin belə dəyərli fikirləri çoxdur, onların hər biri bir məktəb dərsidir. Azərbaycanın tanınmış şəxsiyyətləri məhz onun pedaqoji irsini qiymətləndirərək Firidun bəy haqqında dəyərli fikirlər söyləmiş və onun kimliyini açıqlamışlar. Daha aydın olmaq üçün onlardan ikisinin fikirləri ilə tanış olmaq kifayətdir: ***«Firidun bəyin ədəbiyyatı Azərbaycan ədəbiyyatşünaslığı üçün çox qiymətli və tarixi xidmətdir. Onun sayəsində qədim dövrün bir çox şairləri və əsərləri meydana çıxarılıb, xalqa tanıdılmışdır. Yenə onun tədqiqatı sayəsində böyük-kiçik Azərbaycan şairləri haqqında, vaxtında ilk təsəvvür hasil edilmişdir. Onun əsərləri uzun illər qədim ədəbiyyat tarixçiləri üçün mənbə və vəsait olmuşdur. Bir institutun görə bilmədiyi işi F.B.Köçərli təkbaşına görmüşdür».***

**Mir Cəlal**

***«Firidun bəyin təkcə bir müəllim kimi deyil, həm də öz xalqının ədəbiyyatını sevən alovlu vətəndaş kimi Azərbaycan ədəbiyyatını təbliğ etməsi mənim qəlbimdə nəcib hisslər oyadırdı. Firidun bəy haqqında hamı belə fikirdə idi ki, o, son dərəcə böyük adamdır. Böyüklüyü də ondadır ki, doğulduğu torpağa, mənsub olduğu xalqa -onun ədəbiyyatına ideal dərəcədə sadiqdir».***

**Əli Səbri Qasımov**

# ƏBDÜLƏLİ BƏY MUXTAROV

***Əsl müəllim nəfsi-izzətindən və nəzakətindən bəllidir.***

**Ə.Muxtarov**



Əbdüləli bəy Bağır oğlu Muxtarov 1855-ci ildə Şuşada anadan olub. O, Qarabağda-Şuşada məşhur olan Muxtarovlar soyuna mənsubdur. Atası Bağır Hacı Əsgər oğlu ticarətlə məşğul idi. Babası Əsgər Muxtar oğlu mədrəsə təhsili almış və İbrahimxəlil xan Cavanşirə xidmət etmişdi. Ona dövlət tərəfindən bəy titulu verilmişdi.

Əbdüləli bəy dini təhsil almış, sonra isə Şuşa qəza məktəbində oxumuşdur. O, təhsilini artırmaq üçün Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuş və 1876-cı ildə seminariyanı bitirmişdir. Elə həmin tədris ilində Qazax qəzasının Dağkəsəmən kənd rus-tatar məktəbinə təyinat almışdır. Bir müddət burada işləmiş, sonra məktəbin müdiri Petrovla birlikdə axşam kursları açaraq yaşlı adamlara rus dilini öyrətməklə məşğul olmuşdur. Lakin çox keçmədən Şuşa qəzasının Ağcabədi kənd məktəbinə dəyişilmişdir. Onun gəlişi burda mədəniyyətin, maarifin, səhiyyənin səviyyəsinin artmasına müsbət təsir göstərmişdir. O, Ağcabədi kənd məktəbinin müdiri vəzifəsində işləyərkən apardığı müşahidələr əsasında yazırdı: ***"Ağcabədinin şəhərdən aralı ol-***

***ması və digər səbəblərə görə burada xalq maarifi çoxdandır ki, ləng inkişaf edirdi. Kəndli öz oğlunu heç olmasa, ana dilini öyrənmək üçün kənddə və ya kənarda məktəbə qoymağa çox nadir halda imkan tapırdı. Lakin burada məktəbin açılması ilə kəndlilər məktəbin faydasını get-gedə dərk etməyə başlamışlar. Yeni məktəbin açılması ilə köhnə təhsilin xarakteri dəyişir. Köhnə qayda və üsul yenisi ilə əvəz edilir, yeni qayda təlimin tezliklə mənimsənilməsinə səbəb olur. Kəndlilərin öz uşaqlarının tərbiyəsinə cəhd etmələri də ancaq məktəbin təsiri ilə əlaqədardır".***

Əbdüləli bəyin apardığı maarifçilik işlərinin sayəsində savadlanan əhali get-gedə məktəbdə yeni siniflər açılmasını tələb edirdi. Uşaqlarının savadlanmasını istəyən kənd əhalisi bu məktəbin, heç olmasa, ikisinifli məktəbə çevrilməsini tələb edirdi. Hətta məktəbin tam kursunu bitirənlər aldıqları təhsil ilə kifayətlənmir və təhsillərini davam etdirmək üçün digər məktəblərdə yer axtarırdılar. Onun müdir olduğu məktəb kənddə mədəni-maarif işi ilə yanaşı, səhiyyə işinin inkişafına da müsbət təsir göstərirdi. Müəyyən qədər tibbi biliklərə malik olan və bu sahədə ailədən gəlmə təcrübəyə yiyələnən Əbdüləli bəy Muxtarov bəzən həkimlik vəzifəsini də öz üzərinə götürür, xalqa tibbi yardım göstərirdi. O, 1892-ci ildə bu kənd məktəbinin nəzdində əczaxana da açmışdı.

1889-cu ildə Tiflisdə kənd təsərrüfatı və sənaye sərgisinin iştirakçısı olan Əbdüləli bəy Muxtarovun rəhbərlik etdiyi Ağcabədi kənd məktəbi bürünc medala və III dərəcəli diploma layiq görülmüşdü. O, məktəbin nəzdində meteroloji stansiya da təşkil etmişdi. 1891-ci ildə yenilikci müəllim atmosfer yağıntısı üzərində aparılan aylıq müşahidələri dərc etdirmək məqsədilə Peterburqda yerləşən Baş Fizika Rəsətxanasına göndərmişdi.

1896-cı ildə Əbdüləli bəy Muxtarov bacarıqlı və təşkilatçı bir pedaqoq kimi Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində

açılmış ibtidai məktəbə müdir təyin edilmişdi. O, uzun müddət hazırlıq sinfində dərs demiş, neçə-neçə gələcək ziyalının ilk müəllimi olmuşdur. Qori Müəllimlər Seminariyasında dərs apardığı müddət ərzində oxuyan uşaqlara dərsdən əlavə, nəzakət qaydalarını da öyrədirdi. Onlarla ciddi söhbət aparır və mənəvi dəyərləri aşılamaqla yanaşı, bütün etik qaydaları da öyrətməyə çalışırdı. O, həmçnin bacısı oğlanlarının da təhsil almalarına yardım edirdi.

Əbdüləli bəy Muxtarov öz zəngin mədəniyyəti, yenilməzliyi, mərdliyi və geniş dünyagörüşü ilə Azərbaycan xalqının gələcək nəsillərinə nümunə göstəriləcək şəxsiyyətlərdən sayılır.

## ZƏKƏRİYYƏ BƏY ASLANOV

***Məktəb savad, teatr həyat öyrədir.***
**Z.Aslanov**



Zəkəriyyə bəy Mirzə Mehdiqulu bəy oğlu Aslanov 1858-ci ildə Şuşada anadan olmuşdur. İlk təhsilini Şuşa şəhər məktəbində alan Zəkəriyyə bəy sonra Zaqafqaziya Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir.

1885-ci ildə seminariyanı bitirdikdən sonra 32 il xalq maarifi sahəsində əzmlə çalışmışdır. İlk olaraq Şuşa

qəzasının Gülablı və Ağdam zemstvo məktəbində müəllim işləmişdir. Səfərəli bəy Vəlibəyovun yaxın dostu olan Zəkəriyyə bəy həm də xeyriyyəçi idi. Maarifin inkişafı və maarifçilik ideyalarının yayılmasında xüsusi fəallıq göstərmişdir. "Dəbistan" jurnalı maddi çətinliklə üzləşəndə ona dəstək olan ziyalılar arasında Zəkəriyyə bəy də var idi.

O, həmçinin Ağdamda müəllimlik etdiyi vaxtlarda Azərbaycan teatr sənətinin təbliğatçılarından biri olmuşdur. Zəkəriyyə bəy teatr sənətinin inkişafı üçün fəal iştirak etməklə tamaşalara yardımcı olur, həm də əldə edilən gəlirin xeyirxah işlərə sərf olunmasında xüsusi rol oynayırdı.

Zəkəriyyə bəyin "Dağılan tifaq", "Nadanlıq", "Nadir şah", "Müsibəti Fəxrəddin" kimi əsərlərinin teatr tamaşalarında həvəskar aktyor kimi çıxış etməsinə Nəriman Nərimanov yüksək qiymət verirdi. Zəkəriyyə bəy 15 il Qarabağın müxtəlif kəndlərində müəllimlik edərək maarifin inkişafına da əhəmiyyətli təsir göstərmişdir.

1900-cü ildə o, Bakıya köçmüşdür. Burada da öz şərəfli vəzifəsini böyük həvəslə davam etdirərək IV rus-tatar məktəbində müəllim işləmişdir. O, burada 17 il fasiləsiz olaraq maarif işlərinin genişlənməsində fəal iştirak etmişdir.

Zəkəriyyə bəy Əzizə xanım Şeyx Həsən qızı Vəlibəyovla ailə həyatı qurmuşdu. Bu evlilikdən onların üç oğlu (Əmir bəy, Teymur bəy, Nadir bəy) və iki qızı (Sona xanım və Mina xanım) var idi. Ömrünü maarifin inkişafına sərf edən, dəyərli pedaqoq Zəkəriyyə bəy Aslanov 1917-ci il fevral ayının 4-də Bakı şəhərində dünyasını dəyişmişdir. Üzeyir bəyin qardaşı Ceyhun bəy Hacıbəyov "Kaspi" qəzetinin 7 fevral 1917-ci il tarixli, 30-cu nömrəsində belə bir nekroloq yazmışdı:

***"Fevralın 4-də Bakı müsəlman müəllimləri ailəsi həyatının 32-ci ilini xalq maarifi işinə həsr eləyən özünün qoca-***

***man üzvlərindən birini itirdi. 4-cü şəhər rus-tatar məktəbinin müəllimi Zəkəriyyə bəy Aslanov vəfat etdi.***

***Təvazökar xalq zəhmətkeşinin vəfatı gözəl bir şəraitdə olmuşdur. Özünün kiçik məqaləsini məktəbdə bitirən mərhum idarəyə məktəb şöbəsinə gəlib ki, qohumluq işlərinə ilə əlaqədar Buxaraya getmək üçün 20 günlük məzuniyyət barədə ərizə versin və burda, idarənin binasında, məktəb şöbəsinin otağında qocaman müəllim 2-3 dəqiqə ərzində əbədi məzuniyyətə getdi, özünün son rahatlığını tapdı, 32 illik nüfuzlu və məsuliyyətli zəhmətinə görə son istirahətini aldı...***

***Zəkəriyyə bəy çox qədim zamanlarda müəllimlər seminariyasında nəvazişlə qarşılanan öz xalqı arasında maarifin yayılmasında pioner ailəsinin biri olmuşdur. Çünki Qafqazın müsəlman əhalisi arasında xalq müəllimi yox idi.***

***1885-ci ildə Qori seminariyasını olduqca yetkin və əmək qabiliyyəti olan yaşında bitirərək Zəkəriyyə bəy 15 il ərzində Qarabağın müxtəlif kəndlərində maarifi yaymış və 1900-cü ildə Bakıya gəlmişdir ki, öz uşaqlarına təhsil vermək imkanı olsun. Burda mərhum 17 il ərzində istirahət etmədən, həyat enerjisi tükənmədən öz xeyirxah və sevimli vəzifəsini yerinə yetirmişdir. Mərhum özünün xidmət etdiyi işin xeyrini çox gözəl anlayaraq özünün cüzi vəsaiti hesabına bütün uşaqlarına təhsil verə bilmişdir.***

***Mərhumun böyük oğlu bu il Kiyev universitetinin tibb fakultəsini bitirmiş və indi Qurultay Şurasının Balaxanı xəstəxanasında həkim vəzifəsində işləyir. Qızı Bakı şəhər rus-tatar qız məktəblərində xalq müəllimi kimi xidmət edərək atasının məsuliyyətli vəzifəsini davam etdirir. Mərhumun o biri iki kiçik oğlu-biri gimnaziyada, o biri isə realni məktəbdə oxuyur.***

***Öz maarifçilik missiyasını təvazökarlıqla aparan mərhum xalq zəhmətkeşini yaxından tanıyanlar üçün demək lazımdır ki, o öz vəzifəsini tərk etsə də, yerində xalqın xeyri üçün xidmət edə biləcək səyli və enerjili ardıcıllar qoyub-getmişdir.***

***Mərhumun təntənəli dəfni və orda bizim gənclərin qızğın və təsiredici iştirakları xalqın bir neçə yaxşı əlamətini göstərdi.***

***Öz ailə başçısını qəflətən itirən ailə üçünsə bu, ağır bir dərddir”.***

**Cey Dağıstani**

## BAHƏDDİN BƏY KÖÇƏRLİ

***Ya ki, insan düşündüyün demək iqtidarında deyilsə, mübtəla o azad deyil.***

**B.Köçərli**

Bahəddin bəy Abbas bəy oğlu Köçərli (bəzən ona Baxış bəy də deyərək müraciət edirdilər) 1858-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini molla yanında almış, sonra isə mədrəsədə oxumuşdu. Bahəddin on yaşına çatanda rus-tatar məktəbində oxumuşdur. O, burada fars və rus dillərini mükəmməl öyrənmişdi.

Bahəddin bəy təhsilini Zaqafqaziya Müəllimlər Seminariyasında davam etdirmişdir. Seminariyanı bitirdikdən sonra Yelizavetpol (indiki Gəncə ) quberniya idarəsinin təhsil şöbəsində imtahan verib, müəllimlik şəhadətnaməsi almışdı. O, bir müddət Gorus qəsəbəsində müəllim kimi səmərəli fəaliyyət göstəmişdir. Onun kollec katibi mülki rütbəsi vardı.

Ölkədəki məktəblərin acınacaqlı vəziyyəti onu daim düşündürürdü. Təbii ki, hərtərəfli biliyə malik olan Bahəddin bəy bütün bunların müsəlman xalqlarının savadsız qalmaları üçün edildiyini dərk edir və maarifpərvər bir ziyalı kimi bir sıra başlıca tələbləri irəli sürməkdən də çəkinmirdi. Buna görə də Bahəddin bəy Köçərli çar xəfiyyələrinin siyahısında idi və onu gecə -gündüz izləyirdilər. Əfsuslar olsun ki, onun sonrakı taleyi haqqında heç bir məlumat yoxdur.

## İSMAYIL BƏY ŞƏFİBƏYOV

***Teatr ən gözəl həyat səhnəsidir.***

**İ.Şəfibəyov**

İsmayıl Məşədi Məhəmməd bəy oğlu Şəfibəyov 1859-cu ildə Şuşa şəhərində dünyaya gəlmişdir. O, ilk təhsilini Şuşa real məktəbində almışdır. 1880-cı ildə Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuşdur. Rus dilini zəif bildiyindən əlavə olaraq sınaq dərslərindən keçmiş və bundan sonra məşğələlərə davam etmək imkanı qazanmışdı. Əlavə sınaq dərslərinə buraxılmasında ona Azərbaycan bölməsinin rəhbəri A.O.Çernyayevski yardımcı olmuşdu. Lakin son sınaq imtahanlarından çıxa bilmədiyindən kursda qalmışdı. Buna görə də o,  Cəlil Məmmədquluzadə ilə bir sinifdə oxumuşdu.

1887-ci ildə İ.Şəfibəyov seminariyanı bitirir. O, ilk müəllimlik fəaliyyətinə Şuşa qəzasının Gülablı kəndindən başlayır. İsmayıl bəy Şuşa şəhərində teatrın inkişafında yaxından iştirak etmiş və xüsusi xidmətləri olmuşdur. Gənc müəllim teatr səhnəsində M.F.Axundzadənin, N.Vəzirovun əsərlərini tamaşaya qoymuşdur və seminariyanın məzunlarından bir

çoxları – B.Bədəlbəyli, Ə. Vəlibəyov və başqaları ilə birlikdə fəaliyyət göstərmişdir. Bundan sonra gənc müəllim İrəvan kişi gimnaziyasına göndərilir. O, burada nümunəvi pedaqoji xidmət göstərir.

F.Köçərli 1895-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasına müəllim təyin olunur. İsmayıl bəy ilə birlikdə 23 il İrəvan gimnaziyasında fəaliyyət göstərir.

İsmayıl bəy Səfibəyov 1918-ci ildə vəfat etmişdir.

## MİRZƏ ŞƏRİF MİRZƏYEV

***Məxfi saxlanılsa da Qafqaz xalqlarının dostluğuna pəl qatanlar çar çinovnikləridir.***

**M.Mirzəyev**

Mirzə Şərif Mirzəyev 1860-cı ildə Tiflis şəhərində anadan olmuşudr. Əslən şuşalıdır. O, mədrəsədə oxumuş, sonra Zaqafqaziya Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir.

1882-ci ildə təhsilini başa vurduqdan sonra onu Tiflis şiə məktəbinə rus dili müəllimi təyin etmişlər. 1888-ci ilə qədər burada müəllim vəzifəsində çalışmışdır.

1888-ci ildə Mirzə Şərifi Qafqaz Hərbi Dairəsi qərargahına Şərq dilləri tərcüməçisi vəzifəsinə keçirmişlər. Burada işlədiyi müddət ərzində İran və Türkiyə dövlətləri ilə aparılan diplomatik danışıqlarda tez-tez tərcüməçi kimi iştirak etmişdir. O, həmçinin Buxara əmirinin və digər ölkələrin dövlət xadimlərinin Qafqazda müşayiətçisi, həm də tərcüməçisi olmuşdur.

1906-cı ildə Mirzə Şərif Mirzəyevi Qafqaz Senzura Komitəsində seminaristlərin ciddi səyi və təkidi ilə yerli və Şərq dilləri üzrə kiçik senzor vəzifəsinə təyin etmişlər. 1908-ci ildə isə elə orada həmin dillər üzrə böyük senzor vəzifəsinə keçirmişlər. Mirzə Şərif bu vəzifədə 1917-ci ilə, yəni, komitə ləğv olunana qədər həmin vəzifədə işləmişdir. Mirzə Şərif daim Azərbaycan xalqının maariflənməsi yolunda xeyli faydalı işlər görmüşdür. O, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin tərəqqisi yolunda hər cür əziyyətə qatlaşmışdır.

Mirzə Şərif tarixən mürəkkəb və ziddiyyətli bir dövrdə yaşadığından daim maneələr və çətinliklərlə üzləşmişdir. Belə bir dövrdə senzura tərəfindən qadağa qoyulan məqalələrlə mətbuatda daim çıxış etmək o qədər də asan deyildi. Lakin Mirzə Şərif hər cür narahatçılığı nəzərə alaraq ardıcıl olaraq mətbuatda çıxış edir, mollaları tənqid atəşinə tuturdu. Qafqaz xalqlarını dostluğa çağırır, çarizmin milli-qırğın siyasətinin qüsurlarını hər vasitə ilə pisləyirdi. Bütün bunlar demək olar ki, onun senzura komitəsindəki fəaliyyəti ilə, yaşadığı mühitlə bağlı idi. Bəzən onun mətbuat səhifələrindəki çıxışlarında ictimai mühitlə bağlı müxtəlif mövqelərdən yanaşmalar olurdu. Məhz bununla bağlı onun "Qafqazda türk mətbuatı və onun tarixi" məqaləsindəki xatirələrini oxuduqda görünür ki, senzura ilə əvvəllər heç bir əlaqəsi olmamış, yalnız mətbuat komitəsində işləmək haqqında təklifə ona görə razılıq vermişdi ki, daim sıxışdırılan, panislamist və panturkist damğası vurulan Azərbaycan mətbuatının nəşrinə azacıq da olsa, bu yolla qayğı göstərməyə imkan əldə etsin. Odur ki, Mirzə Şərif yaradıcılığında olan bu mövqeyə ictimai-siyasi hadisələr konteksində yanaşılmalıdır.

Mirzə Şərif Tiflisin rusdilli "Kafkaz" və "Novoye obozreniye" qəzetlərində Azərbaycan teatrına, milli ədəbiyyata, ic-

timai fikrə, həmçinin Şərq ölkələrinin mədəni və ictimai-siyasi həyatına dair məqalələrlə müntəzəm çıxış edirdi. O, həmçinin "Qafqaz" qəzetinin Yaxın Şərq üzrə xüsusi müxbiri vəzifəsində də çalışmış, bu vəzifə ilə bağlı işlərin öhdəsindən layiqincə gəlmişdir.

Daim öz üzərində işləyən, bilik və maraq dairəsini genişləndirən Mirzə Şərif artıq geniş tədqiqat işləri aparmaq və arxiv sənədlərilə işləmək bacarığına malik olan bir mühərrir kimi də yetişmişdi. Bütün bu göstərilən faktlar 1886-cı ildə onun "Novoe obozreniye" qəzetində çap etdirdiyi A.S.Qriboyedovun öldürülməsi ilə bağlı elmi-tədqiqat xarakterli məqaləsində aydın görünürdü. 1891-1901-ci illərdə "Novoye obozreniye" və "Kafkaz" qəzetlərində çap olunmuş "Şərqdən xəbərlər", "Parçalar", "Şərq müdriklərinin fikirləri", "Müsəlman qadınları arasında maarifin inkişafına dair", Xan qızı Natəvanın oğlu Mehdiqulu xan Usmiyevin vaxtsız vəfatı münasibətilə yazdığı "Knyaz Mehdiqulu xan Usmiyev", "İranda şiələr", "Sultan Həmid hakimiyyətinin 26 illiyi", "Şərq həyatı" və s. elmi-ədəbi publistik məqalələrində M.Ş.Mirzəyev Şərq, xüsusən də, Azərbaycan ədəbiyyatının incəliklərini, ictimai-siyasi fikirlərini bu sahələrin bilicisi kimi nəzərə çatdırırdı.

Təsadüfi deyildi ki, onun geniş tədqiqatçılıq fəaliyyəti elmi ictimaiyyətin diqqətini cəlb etmiş və onu 1901-ci ildə Tiflisdə təsis edilən Rusiya Şərqşünaslıq Cəmiyyəti Tiflis şöbəsinin katibi kimi məsul bir vəzifəyə seçmişdilər. Məhz elə həmin ildən də XX əsrin ilk Azərbaycan qəzetinin, Tiflisdə isə üçüncü milli mətbuat orqanı olan "Şərqi-rus" qəzetinin meydana çıxmasına imkan yaradılmışdır.

M.Ş.Mirzəyevin "İran inqilabçıları Londonda" və "Zaqafqaziya Şeyxül-islamının seçilməsi məsələsinə dair" məqalə-

lərində vacib ictimai mətləblərə, mədəni-maarif məsələlərinə və milli özünütəsdiqə, münasibətə diqqət yetirilmişdir. Buna görə də 90-cı illərdə onların nəşrinə Qafqaz Senzura Komitəsi tərəfindən qadağa qoyulmuşdu.

Mirzə Şərif yaxın Şərq tarixi, ictimai-siyasi fikri, Rusiya-Şərq münasibətləri ilə də maraqlanır, bunlarla bağlı məqalələr də yazıb nəşr etdirirdi. "Kazak briqadaları İranda", "Müsəlman Şərqində ingilis siyasəti", "İran işləri" və s. məqalələrini nümunə göstərmək olar.

1918-1919-cu illər ərzində Gürcüstan menşevik hökuməti tərəfindən haqsız olaraq dəfələrlə həbs edilən "Molla Nəsrəddin" jurnalının banilərindən biri Ö.F.Nemanzadəni cəsarətlə müdafiəyə qalxır, onun haqqında tez-tez məqalələr nəşr etdirirdi. Bununla o, Ö.F.Nemanzadənin Azərbaycan milli mətbuatı, ictimai fikir tarixində mühüm rol oynayan mütərəqqi və qorxmaz bir şəxs olduğunu sübuta yetirirdi. Mirzə Şərif digər ziyalılarla birlikdə qabaqcıl ictimaiyyətin ciddi etirazı və təkidi ilə Ö.F. Nemanzadənin Metex qalasından azad edilməsinə nail olmuşdur.

Onun "Gürcü-müsəlman münasibətləri" məqaləsində xalqlar arasında dostluqdan, "Qarabağ" məqaləsində isə Qarabağın tarixindən bəhs olunurdu. Bu məqalələr axtarıcılıq qabiliyyətinə malik olan bir jurnalistin bacarığını göstərirdi. M.Ş.Mirzəyev demək olar ki, Tiflis ədəbi-ictimai mühitinin ən fəal iştirakçılarından biri idi.

O, 1886-cı ildən fəaliyyətə başlayan Tiflis Azərbaycan teatrında milli səhnə sənətinin professional qrupunun yaranması və inkişafında xüsusi rol oynayırdı. Burada mövcud olan süni çətinliklərin aradan qaldırılmasına yardım edirdi. 1904-cü il 12 dekabr tarixli çap fərmanında teatrla bağlı maneələrin tez bir zamanda aradan qaldırılması üçün qərar qəbul olunsa

da, fərmandan sonra da müsəlman teatrlarına biganəlik hiss edilirdi. Azərbaycan mətbuatında da bununla bağlı problem məsələlər öz əksini tapmırdı.

Senzuraçılar milli azlıqları sıxışdırmaq üçün hər cür amansız, ləyaqətsiz hərəkətlərindən əl çəkmirdilər.

Görkəmli şərqşünas, maarifçi, publisist, mühərrir və ictimai xadim Mirzə Şərif Mirzəyev 1937-ci ildə repressiya qurbanı olmuşdur.

## SƏFƏRƏLİ BƏY VƏLİBƏYOV

***Hərgah kamil oxumuş adamların sayı artarsa, millətimiz qabağa getmək istəyəcək,ana dilimizə məhəbbət artacaq və onun qorunub-saxlanılmasına cəhd olunacaq.***

**S.Vəlibəyov**

Səfərəli bəy Şeyx Həsən oğlu Vəlibəyov 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini mollaxanada almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdi. 1875-ci ildə Şuşa dördsinifli şəhər məktəbinə daxil olmuş və 1879-cu ildə oranı bitirmişdir. Məlumdur ki, həmin illərdə Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə 1879-cu ildən 1893-cü illə qədər tanınmış pedaqoq, qabaqcıl fikirli şəxsiyyət, gələcəyə müəllim hazırlığında xüsusi xidmətləri olan A.O.Çernyayevski rəhbərlik edirdi.

1879-cu ildə S.Vəlibəyovun həyatında da əlamətdar bir hadisə baş vermişdi. Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində açılmış Azərbaycan şöbəsinə tələbə tapmaq məqsə-



dilə Şuşaya gələn A.O.Çernyayevski digər gənclər kimi Səfərəli bəylə də söhbət aparmış və bacarıqlı oğlanın zirəkliyi, hazırcavablığı onda böyük maraq oyatmışdı. Seminariyanın Azərbaycan bölməsində səlahiyyət sahibi olan A.O. Çernyayevski gənc Səfərəli bəyin xüsusi keyfiyyətlərini nəzərə alaraq onu seminariyanın ikinci sinfinə qəbul etmişdi. Seminariya həyatı, buradakı təlim-tərbiyə sistemi və qabaqcıl müəllimlər S.Vəlibəyovun mənəvi inkişafına müsbət təsir göstərir. S.Vəlibəyov seminariyada təhsil aldığı müddətdə burada mövcud olan təlim-tərbiyə sistemi, qabaqcıl müəllimlərin aşıladıqları bilik və bacarıqlar, tələbələrə yanaşma metodları onun mənəvi inkişafında mühüm rol oynadı. Səfərəli bəy oxuduğu müddət ərzində ilk günlərdə özünü qabil və işgüzar gənc kimi göstərir, tədris olunan elmlərə dərindən yiyələnir, dünya ədəbiyyatı nümunələrini sevə-sevə oxuyur, pedaqogika elmi haqqında mükəmməl bilik əldə etməyə çalışırdı.

Seminariyada müəllim çatışmazlığına görə A.Çernyayevski S.Vəlibəyova daha çox diqqət yetirir və onu öz yerinə hazırlayırdı. Səfərəli bəy hələ tələbə ikən müəllimi Çernyayevski

ilə yaxından əlaqə zəminində onun "Vətən dili" (I hissə) kitabının hazırlanmasına lazımi kömək edirdi. 1881-ci ildə S.Vəlibəyov seminariyanı bitirir. Elə həmin ildən də onun bütün fəaliyyətindəki müsbət dəyərlər nəzərə alınaraq seminariyada müəllim kimi saxlanılır. Beləliklə, S.Vəlibəyov 1896-cı ilə qədər həmin məktəbdə işləyir, şagirdləri seminariyanın əsas şöbəsinə hazırlayır, gələcək müəllimlərə pedaqoji təcrübə dərsi deyirdi. S.Vəlibəyov əsas pedaqoji fəaliyyəti ilə yanaşı, seminariyanın ictimai işlərində də əzmlə çalışırdı.

Səfərəli bəy seminariyada işlədiyi müddət ərzində tələbələrin sinifdənkənar məşğələlərinə də xüsusi fikir verirdi. Gənc müəllim ictimai və pedaqoji fəaliyyətini tətil vaxtlarında da davam etdirirdi. Adətən, tətil zamanı Şuşaya dincəlməyə gələrkən burada uşaqlara pulsuz dərs deyər, onları orta və ali məktəblərə daxil olmaq üçün hazırlayardı. Şuşa və ətraf kənd məktəblərində dərs deyən müəllimləri bir yerə yığır, onlara sövti üsulla dərs demək metodikasını öyrədir, bunun üstün cəhətlərini nümayiş etdirirdi. Bu nəcib işinə görə o, hətta Qafqaz Təhsil Dairəsi popeçiteli tərəfindən mükafatlandırılmışdı.

Görkəmli maarifçi Səfərəli bəy Vəlibəyov Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində fəaliyyət göstərdiyi illər ərzində 250-dən artıq əsl xalq müəllimi hazırlanmasında xüsusi rol oynamışdır. Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Əliş bəy Tahirov, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Pənah Qasımov, Hənəfi Terequlov, Əli Hüseynov, Fərhad Ağazadə, Səməd bəy Acalov, Teymur bəy Bayraməlibəyov, Süleyman Sani Axundov, Bədəl bəy Bədəlbəyli, Azad Əmirov, Əhməd ağa Mustafayev, Yusif Qasımov, Əli Qəmərli, Müseyib İlyasov, Əhməd Seyi-

dov və başqaları müəllimlik peşəsinin vurğunu olmuş, xalqını təhsil nuru ilə işıqlandıran elm, maarif, mədəniyyət və incəsənət carçıları kimi çoxşaxəli fəaliyyət göstərmişlər. Təsadüfi deyil ki, bu insanların hər biri tarixi şəxsiyyət, böyük sənətkar və ustad səviyyəsinə qalxmışlar.

S.Vəlibəyov seminariya daxilində gedən kəskin məfkurə mübarizəsində də fəallıq göstərirdi. XIX əsrin 90-cı illərində Qafqaz təhsil orqanlarının irticaçı başçıları Azərbaycan və gürcü dillərini seminariyanın tədris proqramından çıxarmağa cəhd etdikləri zaman A. Çernyayevski, Ə. Axundzadə və N. Lomouri ilə birlikdə o da bu mürtəce siyasətə qarşı çıxmışdı. Onun seminariyadan çıxarılmasının bir səbəbi də bu məsələdə prinsipial mövqe tutması ilə bağlı idi.

XIX əsrin 80-ci illərindən başlayaraq qabaqcıl ziyalıların ana dili məktəbi yaratmaq cəhdləri get-gedə artırdı. Bakı, Naxçıvan, Şəki, Şamaxı və digər şəhərlərdə ayrı-ayrı şəxslər, mütərəqqi maarifçilər ibtidai təhsil verən ana dili məktəbləri açmaqda davam edirdilər. Belə məktəblərdən biri 1883-cü ildə Şuşada S. Vəlibəyov tərəfindən açılmışdı. Yay tətili zamanı burada istirahət edən Səfərəli bəy mövsümi olaraq bir məktəb açıb, uşaqlara savad öyrədirdi. Onun məktəbində müxtəlif təbəqələrdən olan 25 şagird oxuyurdu. Tədris səs üsulu ilə aparılırdı. S. Vəlibəyov şagirdlərə yalnız savad öyrətməklə kifayətlənmirdi. O, eyni zamanda yerli məktəbdarlara səs üsulunun üstünlüyünü izah edir, bu üsul ilə dərs deməyin əhəmiyyətini əyani olaraq göstərirdi.

Azərbaycan məktəbi və pedaqoji fikir tarixində səs üsulu ilə yazılıb nəşr edilmiş dərslik və tədris vəsaitlərinin tətbiqinin böyük elmi-pedaqoji əhəmiyyəti var. Belə ki, bu gün ali pedaqoji məktəblərdə, pedaqoji texnikum, kollec və universitetlərdə tədris edilən Azərbaycan məktəb və pedaqoji fikir ta-

rixi kursunun proqramında səs üsulu ilə hazırlanan dərsliklər ayrıca yer tutur. Buna görə də fənni tədris edən müəllim, müəllimlik peşəsinə hazırlanan hər bir gənc mütəxəssis həmin dərsliklərin məziyyətlərini, onun məzmununu və tərtibi prinsiplərini bilməlidir.

1839-cu ildə Tiflisdə nəşr edilən "Təmsillər və hekayələr" adlı kitab bədnam qonşularımız tərəfindən "özəlləşdirilərək" 1967-ci ildə İrəvanda nəşr edilən "Erməni kitabı"na daxil edilmişdi (I cild, səh.248). Belə misalların sayını artırmaq da olar. Lakin Azərbaycan dilinin tədrisi üçün hazırlanmış dərsliklərin tarixini öyrənmək, imkan daxilində onlara yeni nəfəs vermək, ərəb qrafikasından latına çevirərək müvafiq izahat, şərh və lüğət əlavə etməklə çap etdirib, oxuculara çatdırmaq da böyük əhəmiyyət kəsb edir. "Təhsilin aktual problemləri" adlı elmi-tədqiqat laboratoriyasında son vaxtlar görülən işlər də bu mənada xüsusilə diqqətəlayiqdir.

Qeyd etmək yerinə düşər ki, 2007-ci ildə bu laboratoriyanın əməkdaşları ana dili dərsliklərimizdən birini - A. Çernyayevskinin 1882-ci ildə Tiflisdə nəşr etdirdiyi "Vətən dili" dərsliyinin birinci hissəsini latın qrafikasında çap etdirmişlər. 193 səhifədən ibarət olan kitaba AMEA-nın həqiqi üzvü, professor Vasim Məmmədəliyev ön söz yazmışdır. Kitabın redaktoru filologiya elmləri doktoru, professor Kamandar Şəriflidir. Lüğətin müəllifi Kəminə Həvil qızıdır.

Azərbaycan dilində tərtib edilən oxu kitabları içərisində S.Vəlibəyovun 1888-ci ildə Tiflisdə "Kəşkül" qəzetinin mətbəəsində çap etdirdiyi risalə ayrıca əhəmiyyət kəsb edir. Kitabın titul səhifəsində rus dilində bu sözlər yazılmışdır: ***"Книжка для самостоятельного чтения на татарско-Азербайджанской наречи".***

Azərbaycan dilində isə kitabça belə adlanır: ***"İbtidai məktəb şagirdlərinə məxsus və əxlaqa dair Azərbaycan dilində oxu risaləsi".*** Risaləyə "Qüdrəti-Xuda" yəni, "Allahın qüdrəti" sözləri epiqraf seçilmişdir. Kitabın Azərbaycan dilində olan titul səhifəsində onun Tiflisdə nəşr olunduğu göstərilir. Əsər Sankt-Peterburq şəhərindəki S. Şedrin adına Dövlət Kütləvi Kitabxanasının SSRİ xalqlarının ədəbiyyatı şöbəsində saxlanılır.

Əsəri şərti olaraq iki hissəyə ayırmaq olar. Cəmi üç səhifədən ibarət olan birinci hissə "Kitabın yazılma səbəbi" adlanır. Kitabçanın əsas hissəsini qiraət üçün əxlaqi-tərbiyəvi xarakterli oxu mətnləri təşkil edir. Bura 20 mətn daxil edilmişdir.

Kitabçaya 1888-ci il iyunun 3-də Cənubi Qafqaz məmləkətlərinin müftisi Hüseyn Əfəndi Qayıbov, iyunun 4-də isə Cənubi Qafqaz məmləkətlərinin şeyxülislamı Axund Mirzə Hüseyn Tahirov rəy vermişlər. H.Ə.Qayıbovun rəyində deyilir: ***"Bu kitabçanı əvvəlindən axıradək diqqətlə oxuduqda ibtidai məktəblərin şagirdləri üçün uyğun və faydalı bir dərslik olduğu məlum olur".***

Şeyxülislam isə rəyində yazırdı: ***"Mülahizə olunan hikmət və nəsihətə dair Azərbaycan dilində yazılmış ibtidailər üçün doğrudan da, faydalı və asan cümləli kitabçadır".***

Oxu üçün seçilən mətnlər rəhmli və mərhəmətli Allahın adı ilə başlanır. Ətraf aləmdə, kainatda baş verən hadisələr, Allah-Təalanın qüdrətilə yaranan canlılardan, gecə və gündüzdən, uşaqların böyüdükcə əxlaqi-mənəvi keyfiyyətlərə sahib olmasından, "Qurani-Kərim"də zikr olunan hikmət və nəsihətlərə əməl etməkdən bəhs olunur. Uşaqların təlim-tərbiyəsindən, kitab oxumasından söhbət açılır və qeyd olunur ki, adamların alim olmasına səbəb təlim-tərbiyə və kitab oxumaq oldu.

Səfərəli bəy müasirləri arasında təkcə yaxşı müəllim kimi tanınmırdı. O, həm də görkəmli maarif xadimi, ustad metodist, bacarıqlı tərcüməçi və hərtərəfli biliyə malik alim kimi şöhrətlənmişdi. Onun "Vətən dili" (II hissə, A. Çernyayevski ilə birlikdə) dərsliyi, rus dilindən etdiyi tərcümələr, "Qüdrəti-xuda", "Üsuli-cədid", tarix, ədəbiyyat, coğrafiya kitabları və görkəmli adamların tərcümeyi-halına dair məlumat verən "Xəzineyi-əxbar" adlı ensiklopedik səviyyəli əsəri uzun illər Azərbaycanda uşaqların ən çox sevdikləri kitablardan olmuşdur. Seminariyanın məzunları sırasında Səfərəli bəy Vəlibəyovun xidmətləri xüsusi vurğulanmalıdır. O, Zaqafqaziya Müəllimlər Seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri idi. Ömrünün on səkkiz ilini pedaqoji işə sərf etmişdi. Bu müddət ərzində Səfərəli bəy onlarla istedadlı gənc yetişdirmişdir ki, bu gənclər elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışmış, vətənə və xalqa şərəflə xidmət etmişlər. İbtidai təhsillərini S.Vəlibəyovdan almış böyük ədiblər və ictimai-siyasi xidmətləri olan C.Məmmədquluzadə, N.Nərimanov, S.S.Axundov və bir çox başqaları, tələbkar və qayğıkeş müəllimlərini həmişə böyük məhəbbət hissi ilə yad etmişlər.

S. Vəlibəyov həm də mahir publisist idi. Onun məqalələri XIX əsrin 80-90-cı illərində "Ziyayi-Qafqaziyyə", "Tərcüman", "Kəşkül", "Kafkaz", "Novoye obozreniye", "Kaspi" kimi müxtəlif dövri mətbuat orqanlarında çap olunmuşdur. Görkəmli maarifçi "Türk dili barəsində", "Qoridən məktub", "Təzə kitabxana və qiraətxana", "Tiflisdən məktub", "Şuşadan məktub", N.Nərimanovun "Dilin bəlası" əsərinin ilk tamaşası haqqında yazdığı "Bakıdan məktub", A. Çernyayevskinin "Vətən dili" (I hissə) dərsliyinin təhlilinə həsr olunmuş "Biblioqrafiya" və digər məqalələrində dövrün mühüm ədəbi və

ictimai hadisələrinə münasibət bildirmiş, qabaqcıl demokratik ideyalar mövqeyindən onların dərin təhlilini vermişdir. Səfərəli bəy Vəlibəyovun elmi-pedaqoji fəaliyyətində onun məşhur tatar maarifçisi, ümumtürk milli intibahının tarixi təşəkkülündə müstəsna xidmətləri olan İsmayıl bəy Qaspiralı ilə görüşü də böyük rol oynamışdır. XIX əsrin 90-cı illərində seminariyanın nəzdində olan ibtidai məktəbin müdiri vəzifəsində işləyən Səfərəli bəy Vəlibəyov Qori seminariyasının Azərbaycan şöbəsinin müdiri, tanınmış maarifçi-pedaqoq Firidun bəy Köçərli ilə bərabər Krıma, İsmayıl bəyin yaşadığı Baxçasaraya getmiş, onunla təmasda olmuş və bu görüş onda böyük təəssürat yaratmışdır. Bu barədə Firidun bəy Köçərli yazmışdır: ***"1890-cı sənədə həqir müsəlman şöbəsinin nəzdindəki ibtidai məktəbin sabiq müəllimi Səfərəli bəy Vəlibəyovla möhtərəm ustadımızı ziyarət etmək məqsədilə Baxçasaraya səfərə çıxdıq. On gündən çox İsmayıl bəy öz evində bizi qonaq saxladı. Möhtərəm həyat yoldaşı ilə bizlərə çox-çox yaxşılıqlar etdilər ki, heç vaxt o nəvazişlər unudulmaz".***

Orada olarkən İsmayıl bəy Zincirli mədrəsəsinin müdiri, mərhum Əlihacı Həbibulla əfəndi və Baxçasarayın digər tanınmış şəxsləri ilə onları tanış etmiş, yeni üsulda təsis etdiyi məktəbi göstərmiş və üsuli-təlimdə mahir olan S. Vəlibəyov təcrübəli müəllimlərin hüzurunda gözəl bir nümunə dərsi vermişdi. S.Vəlibəyov qarşılıqlı mənası Azərbaycan dilində olan ərəb-fars sözlərini danışıqda və yazıda işlətməyin əleyhinə idi. Bu halı o, dogma dilə hörmətsizlik kimi qiymətləndirir və "Ziyayi-Qafqaziyyə"də çap etdirdiyi məqalədə yazırdı: ***"O sözlər ki, qədim əyyamdan daxil olub, türk*** *(Azərbaycan – Ə.B.)* ***dilinə, camaatın çoxuna məlumdur və əvəzində bizim dildə söz yoxdur, onları çıxarıb türk dilindən atmaq namümkündür. Amma nə lazımdır ki, öz dilimizdə olan sözləri qo-***

***yub ərəb və farsi sözlərini işlədək və onun ilə dilimizi çətinə salaq. Lakin bu əvafir vaxtlarda məlum olmuşdur ki, fars insanından bizlərə ən gərəkli dil özümüzün ana və vətən dilimizdir. Ona görə neçə illərdən bəri məktəblərimizdə öz vətən dilimiz olan Azərbaycan türkisi lisanında təlim və tədris eyləməyə başlamışlar və çox yerlərdə fars dilinə mayıl olmayıb, kitabların dəxi-türk (Azərbaycan) dilində yazmağa iqdam etmişlər. Hal-hazırda qeyri-lisanlarda olan kitablara nisbətən türk (Azərbaycan) lisanında meydana çıxmış kitab və risalələr çox az olduğundan və tazə oxumağa başlayan ətfallarımız üçün dərs kitablarından başqa, əldə qiraət ediləcək kitabçalar olmadığına bina xahişmənd oldum ki, bu yolda bizaye qüvvəm ilə bir xidmət göstərir. Buna görə qəstimdə olduğum qiraət kitabçasını rus müəllimlərindən Krotun rus dilində mütədai olan əsərini səbk və sayağında sadə vətən dilimiz üzrə qələmə aldı".*** "Qüdrəti-xuda" kitabı cəmi 44 səhifədən və 20 qiraət materialından ibarət idi. Hekayələrin çoxu idealistlik ruhda yazılmışdır. Müəllif uşaqları ecazkar, əsrarlı sahə və hadisələri ilə tanış edir və bütün hikmətləri allahın qüdrəti ilə bağlayırdı ki, buna görə də kitabını "Qüdrəti-xuda" adlandırmışdır. Buna baxmayaraq, "Qüdrəti-xuda" dövrünə görə uşaqlar üçün qiymətli hədiyyə idi.

A. Çernyayevski və S. Vəlibəyovun təcrübəsindən sonralar Azərbaycanın bir sıra pedaqoqları da istifadə etmişlər. Müəlliflərin Azərbaycan dili dərsliyinin tərtibi təcrübəsindən Şimali Azərbaycanda olduğu kimi, Cənubi Azərbaycanda da geniş istifadə olunmuşdu. 1894-cü ildə Təbrizdə Mirzə Həsən Rüşdiyyə Təbrizi (1850-1944) tərəfindən eyni adda "Vətən dili" dərsliyi nəşr olunmuşdu. Rüşdiyyə də öz kitabını sövti üsulla tərtib etmişdi.

S.Vəlibəyov 1896-cı ildə Bakıya köçmüş, burada iki il Bakı Real məktəbində müəllimlik etmişdir. Sonralar isə Bakı gömrükxanasında tərcüməçi vəzifəsində çalışmışdır.

Səfərəli bəyin həyat yoldaşı şahzadə Bəhmən Mirzə Qacarın qızı Xurşud xanım idi. Onun Nigar və Sürəyya adında iki qız övladı vardı.

Bütün fəaliyyəti dövründə Səfərəli bəy müxtəlif mükafatlarla təltif olunmuşdur. 1888-ci ildə III dərəcəli "Müqəddəs Stanislav" ordeni, 1895-ci ildə "Müqəddəs Anna"ordeni, 1896-cı ildə "İmperator III Aleksandr hökmranlığının xatirəsinə" medalı, 1899-cu ildə Buxara əmirliyinin I dərəcəli "Buxara ulduzu" ordeni, 1902-ci ildə isə İranın IV dərəcəli "Şiri-Xurşid" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan pedaqoji fikir tarixində tanınan, xüsusi mövqeyi olan maarifpərvər yazıçı Səfərəli bəy Vəlibəyov 1902-ci il avqustun 31-də ürək xəstəliyindən qəflətən vəfat etmişdir.

## CAMAL BƏY FƏTƏLİBƏYOV

***Xalqın övladlarının savadlanmasını istəyənə məktəb açmaq üçün puldan çox, maraq və həvəs lazımdır.***

**C.Fətəlibəyov**

Camal bəy Fətəlibəyov 1861- ci ildə Şuşa qəzasının Kəbirli kəndində anadan olmuşdur. İlk olaraq Şuşa qəza məktəbində oxumuş, sonra isə Zaqafqaziya Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir.

Seminariyanı bitirdikdən sonra Şuşada müəllimlik fəaliyyətinə başlamış və burada maarifçiliklə bağlı xeyli quruculuq işləri aparmışdır.

1888-ci ilin mart ayında Şuşa şəhərində III dərəcəli oğlan məktəbi açmışdı. Bu məktəb Zaqafqaziyada mövcud olan və ümumi qaydalarla işləyən məktəblər sırasına daxil olmuşdu. Əvvəlcə məktəbə 25 şagird qəbul olunmuşdu. Sonralar şagirdlərin sayı xeyli artmışdı. 1895-ci ildə 60, 1896-cı ildə isə 70 şagird təhsil almışdı.

Xalq arasında bu məktəb "Camal bəyin məktəbi" adlandırılırdı və ən çox şagirdi olan təhsil ocaqlarından sayılırdı. Burada təhsil alanlar, əsasən, kasıb və aztəminatlı ailələrin uşaqları idi. Məktəb iki sinifdən ibarət idi. Bu məktəbdə təlim yeni üsulla dini tələblərə uyğun səviyyədə aparılırdı. Burada oxuyan şagirdlər iki il ərzində Azərbaycan və rus dillərində mükəmməl təhsil alırdılar. Məktəbin tədris planına ana dili, rus dili, hesab, rəsmxətt, nəğmə dərsləri daxil idi. Mahiyyət etibarı ilə hazırlıq sinfi rolunu oynayırdı. Bu məktəbi bitirən şagirdlər çox hazırlıqlı olduqlarına görə real və şəhər məktəblərində təhsil almaq hüququ qazanırdılar. Fətəlibəyovun məktəbi Adıgözəlovların evində kirayə olaraq yerləşmişdi. İldə 60 manat kirayə haqqı ödənilirdi. Məktəb təhsil haqqından toplanan vəsaitlə idarə olunurdu. İldə hər şagirddən 6-12 manat təhsil haqqı alınırdı. Kasıblar təhsil haqqından azad edilirdi. 1896-cı ildə burada kasıb ailələrin uşaqlardan 12 nəfəri pulsuz oxuyurdu.

Yusif Vəzir Çəmənzəminli bu məktəbin fəaliyyəti haqqında belə yazırdı: ***"1896-cı ildə Şuşaya döndüm, hazırlaşıb realnı məktəbə girməli idim. O zamana qədər bu məktəblərdə bəy balaları oxuyurdular, indi tacir və əsnaf arasında da bu məktəbə həvəs oyanır. Çocuqları realnı məktəbə hazırla-***

***maq üçün Camal bəy, Səməd bəy Ağayev kimi müəllimlər tərəfindən də məktəblər açılmışdı".***

Məşhur maarifçi, xalq arasında böyük nüfuza malik olan Fərhad Ağazadə bu məktəbin yetirmələrindən idi.

1896-cı ilin sonlarında Ağcabədi kənd məktəbinin müdiri Əbdüləli bəy Muxtarovun Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində fəaliyyət göstərən ibtidai məktəbə müdir təyin olunması ilə bağlı Camal bəy Fətəlibəyov Ağcabədi məktəbinə müdür vəzifəsinə göndərilmiş, 1900-cü ilə qədər Ağcabədidə işləmişdir. Həmin dövrdə Camal bəyin məktəbinə Səməd bəy Ağayev rəhbərlik etmişdir. Tanınmış pedaqoq, maarifpərvər ziyalı Camal bəy Fətəlibəyovun vəfat tarixi bizə məlum deyil.

## QASIM QASIMOV

***El-obanın ümidi orda açılan***
***məktəbdən aydınlanır.***

**Q.Qasımov**

Qasım Mirzə Cəfər oğlu Qasımov 1862-ci il dekabr ayının 5-də Şuşada anadan olmuşdur. O, ibtidai təhsilini atasından almış, sonra isə 1879-cu ildə Şuşa şəhər dördillik məktəbini bitirmişdir. 1879-cu ildə Qoriyə gedərək Zaqafqaziya Müəllimlər Seminariyasına qəbul edilmişdir. Qasım Qasımov seminariyanı 1882-ci ildə əla qiymətlərlə başa vurmuşdur. Bir müddət Ağdaş ikisinifli məktəbində müəllim işləmişdir. 1883-cü ildə isə Ordubad şəhər ibtidai məktəbinin müdiri vəzifəsinə təyin edilmişdir. 1886-cı ildə yenidən Ağdaşa qayıtmışdır.

Qasım Qasımov sonra Gəncəyə dəyişilmiş və burada yeni rus-tatar məktəbi açmışdır. O, eyni zamanda rəsmi surətdə icazə alaraq 1893-cü il iyun ayının 14-də şəhərdə azərbaycanlı uşaqlar üçün III dərəcəli xüsusi məktəb açmışdı. Bu məktəb 1894-cü il yanvarın 24-də cəmi dörd şagirdlə fəaliyyətə başlamışdı. Lakin Qasım Qasımovun xəstəliyi ilə əlaqədar məktəb həmin il martın 18-də bağlanmışdı. Atası şair Mirzə Cəfər Qarabaği oğlunun xəstəliyinə dözməmiş, intihar etmişdir.

Əsl pedaqoq, tanınmış maarif xadimi, tərcüməçi Qasım Qasımov naməlum vaxtda Şuşada vəfat etmişdir.

## MUXTAR BƏY MURADOV

***Vətənini sevən hər bir savadlı insan xalqının savadlanması üçün çalışmalı, xalqla birgə olmalıdır.***

**M.Muradov**

Muxtar bəy Kərbəlayi Şirin bəy oğlu 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini mədrəsədə molla yanında almış, daha sonra Şuşa şəhərindəki real məktəbi bitirmişdi. Zaqafqaziya Müəllimlər Seminariyasında tərbiyəçi kimi işə başlamışdı. Pedaqoji təcrübə topladıqdan sonra seminariyanın müəllimi olmuşdu. Azərbaycan ziyalılarının yetişməsində onun önəmli rolu var idi.

Muxtar bəy Muradov milli mədəniyyətimizin inkişafı üçün əlindən gələni edirdi. O, həvəskar aktyor kimi də bir çox tamaşalarda oynamışdı.

Muxtar bəy Muradov əsl vətənpərvər idi. Ermənilərin qisasçı "Daşnaksütyun" partiyasına qarşı fəaliyyət göstərən "Difai" partiyasının Şuşa komitəsinin üzvü idi. Şuşa komitəsinin əsas üzvlərindən olan Muxtar bəy Muradov, İsmayıl bəy Axundov (bazar darğası), Süleyman Əsgərov (tacir), Hacı Sadıq Məmmədov, Məşədi Cəfər oğlu (İran təbəəsi), Məşədi Əhməd Əzimov, Hacı Mirzə Hüseyn Kərim oğlu Münşizadə, Əfrasiyab Əzimov, Kərbəlayı Yusif Mirsiyabov və başqaları daha çox tanınırdı. Şura üzvləri 18 nəfərdən ibarət idi.

Muxtar bəy Muradov "Difai" partiyasının maarif sahəsinə başçılıq edirdi. Burada işlədiyi müddət ərzində maarif sahəsi üçün gərəkli proqramların hazırlanmasında səmərəli fəaliyyət göstərirdi. Maarif sahəsində hazırlanması nəzərdə tutulan proqramlarda təxirəsalınmaz vəzifələrdən biri belə adlanırdı: kişi və qadın cinsindən olan uşaqlar üçün təhsil müəssisələri açmaq və onların yeni üsulla öyrədilməsi üçün hər cür səy göstərmək.

Muxtar bəy Muradov eyni zamanda Qarabağ Birlik Məclisinin fəal təbliğatçısı idi. Qarabağ Birlik Məclisinin "Şuşa müsəlmanlarının bacarıqlı, çevik, ağıllı və zehni cəhətdən daha çox inkişaf etmişləri" sırasından seçilmiş təbliğatçıları əhali arasında fəal iş aparırdılar. Kəndlərdə əhalinin ehtiyaclarını öyrənmək üçün rəy sorğusu keçirmək bəhanəsi ilə xalqı bir yerə toplayır, eyni zamanda onlara şəriətin tələbləri izah edilir, heyvan oğurluğuna, qarətlərə son qoymaq tövsiyə olunur, "qüsurlu" insanlar pislənir, ermənilərlə dinc münasibətlər yaratmaq məsələləri təbliğ edilirdi. Bu tələblərin pozulmasına görə xalq qarşısında məsuliyyət barədə də məlumat verilirdi.

1908-ci ilə qədər “Difai”nin fəaliyyəti o qədər geniş miqyas almışdı ki, Azərbaycan qəzalarında çar hakimiyyəti orqanlarının mövcudluğuna təhlükə yaranmışdı. Bundan təşvişə düşən çar hakimiyyət orqanları partiya üzvlərinə qarşı repressiyalara başlamışdılar. Qafqaz canişini özünün 4 mart 1908-ci il tarixli fərmanı ilə “Difai” partiyasının ləğv edilməsi barədə tapşırıq vermişdi. Ermənilərin “Daşnaksütyun” partiyası isə sərbəst fəaliyyət göstərməkdə davam edirdi. Aydın görünürdü ki, ermənipərəst çar hökuməti Azərbaycanın və azərbaycanlıların dirçəlməsinin və inkişafının qarşısını hər vasitə ilə alırdı. Ona görə də ilk növbədə, azərbaycanlı ziyalıların məhv edilməsi planını işə salmışdı. Muxtar bəy Muradov şıdırğı tuthatutlar və həbslər zamanı birtəhər aradan çıxıb, Qoriyə getmiş, beləliklə də, canını təqiblərdən və həbsdən qurtarmışdı. Lakin sonralar onu çox sevdiyi müəllimlik peşəsindən də uzaqlaşdırmışdılar.

Yeri gəlmişkən qeyd edək ki, Muxtar bəy Muradov mülkədar idi. Onun Qaryagin qəzasının Yağlıvənd obasının “Dəlmə” sahəsində xeyli torpağı vardı.

O, 1918-1920-ci illərdə Bakı-Culfa dəmiryolunun Cəbrayıl qəzasından keçən hissəsində aparılan tikintinin mühafizə idarəsinin rəisi vəzifəsində işləyirdi. Muxtar bəy Muradov Sovet hakimiyyəti illərində Qaryagin RİK-də məsul vəzifələrdə çalışmışdı.

Muxtar bəy Muradov Qumru xanım Mirzə Sadıq bəy qızı Sultanova ilə ailə qurmuşdu. Adışirin bəy, Halay bəy, Gəray bəy adlı oğlanları, Zöhrə xanım, Silə xanım adlı qızları vardı. Təəssüf ki, Muxtar bəyin həyatının son illəri və vəfat tarixi barədə geniş məlumat əldə etmək mümkün olmadı.

## MƏHƏMMƏD BƏY TAHİROV

***Kənd məktəbinin çevik***
***uşaqları fırtınaya da güc gələr.***
**M.Tahirov**

Məhəmməd bəy Rəsul bəy oğlu Tahirov 1863-cü ildə Şuşa şəhərində dünyaya gəlib. O, Qafqaz şeyxülislamı Axund Mirzə Həsən Tahirovun əmisi oğludur. Məhəmməd bəy ilk təhsilini Şuşa şəhər məktəbində almış, Zaqafqaziya Müəllimlər Seminariyasının ibtidai sinfinə daxil olmuş və oranı bitirdikdən sonra seminariyanın yuxarı sinfinə qəbul olunmuşdur. Böyük həvəs və səylə seminariyada oxumuş, özünü daim fəal, çalışqan tələbə kimi göstərmişdir.

1886-cı ildə seminariyanı bitirən Məhəmməd bəy Şuşa qəzasının Ləmbəran kənd məktəbinə təyinat alıb və bu məktəbdə 1899-cu ilə qədər fəaliyyət göstərib.

1899-cu ildə isə Bərdə kənd zemstvo məktəbinə dəyişilmiş, bir il burada işlədikdən sonra Qaxmux kənd məktəbinə təyin olunmuşdur. 1894-cü ildə isə Məhəmməd bəy Qaraçinar kənd məktəbinə keçirilmişdir.

Məhəmməd bəy həmin illərdə, pedaqoji fəaliyyət dövründə əsl pedaqoq kimi daim xalqın arasında olmuş, kəndləri gəzib-dolaşaraq uşaqları məktəbə cəlb etmişdir. O, azərbaycanlı balalarının savadlanması, onların təhsil alması üçün səylə çalışmış, bu məsələyə çox ciddi yanaşmışdır.

Xalqın sevimli müəllimi, cəfakeş pedaqoq Məhəmməd bəy Tahirovun dünyasını dəyişdiyi tarix bəlli deyil.

## ƏLİŞ BƏY TAHİROV

***Kənd məktəblərində bulunan cocuqların təlimi üçün müəllimlərin ustalığını artırmaq gərək.***

**Ə.Tahirov**

Əliş bəy Sadıq bəy oğlu Tahirov 1863-cü il fevral ayının 4-də Şuşa şəhərində anadan olub. O, ilk təhsilini Şuşa şəhər məktəbində alıb. Məktəbi bitirdikdən sonra Qoriyə gedib müvəffəqiyyətlə imtahan verərək Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olub.

Əliş bəy seminariyada oxuduğu müddətdə uğurlu nəticələrlə digər tələbələrdən seçilirdi. Yüksək səviyyədə pedaqoji biliklər əldə edən gənc tələbə 1883-cü ildə seminariyada təhsilini başa vurub, təyinatla Şuşa şəhər məktəbinə göndərildi. Burada o, bir müddət muzdlu müəllim köməkçisi kimi fəaliyyət göstərdi.

1884-cü cü ildə Qarğabazar kənd orta məktəbinə dəyişilir, sonra həmin məktəbdə direktor işləyir. Bir müddətdən sonra isə Gorus və Ləmbəran kənd məktəblərinə dəyişilir.

Vətənpərvər pedaqoq pedaqoji fəaliyyəti dövründə Aleksey Osipoviç Çeynyayevskinin və Səfərəli bəy Vəlibəyovun pedaqoji təcrübəsindən bəhrələnmişdir. O, burada işləyərkən K.D.Uşinski və A.O.Çernyayevskinin "Vətən dili" dərsliklərindən istifadə etmiş, kitabxana təşkil etmiş, şagirdlərin əmək tərbiyəsinə müsbət təsir göstərməklə ipəkçiliklə məşğul olmaları üçün müvafiq şərait yaratmışdır.

Əliş bəy Tahirov rus dilində "Tatar dilini öyrənənlər üçün" bir dərslik də tərtib edərək 1887-ci ildə Tiflisdə nəşr etdirmişdir. Kitab çox sadə, asan və anlaşıqlı dildə yazılmışdır.

Real həyatda mövcud olan hadisələr kitabda əks edilmişdir. Əliş bəy bir müddət burada işlədikdən sonra 1890-cı ildə Yelizavetpol Dairə Məhkəməsinə tərcüməçi vəzifəsinə göndərilib. Şuşada sevilən və müasirlərinin rəğbətini qazanan Əliş bəy Tahirov 1903-cü ildə elə orada dünyasını dəyişərək əbədiyyətə qovuşmuşdur.

## MEHDİ BƏY MEHDİBƏYOV

***Xalq müəllimi yaşadığı dövrün öndə gedən pioneridir.***

**M.Mehdibəyov**

Mehdi bəy Ağa bəy oğlu Mehdibəyov 1863-cü ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini molla yanında almış, sonra isə rus-tatar məktəbində oxumuşdur. O, sərbəst olaraq ərəb, fars, türk və rus dillərində danışırdı.

Mehdi bəy təhsilini artırmaq üçün Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olur və 1885-ci ildə təhsilini başa vurur. Burada oxuduğu illərdə bacarıq və qabiliyyətinə görə digər yaşıdlarından fərqlənirdi.

Seminariyanı bitirdikdən sonra Qarabağ zonasında bir sıra kənd məktəblərində müəllim işləmişdir. Müstəqil pedaqoji fəaliyyəti dövründə seminariyada öyrəndiyi təlim metodlarından istifadə etməklə yanaşı, özünün yaradıcı üsullarını da tətbiq edirdi. Daim xalq arasında pedaqoji söhbətlər aparır, kənd uşaqlarını təhsilə cəlb edirdi. Mehdi bəyin müxtəlif mövzularda şeir yazmaq qabiliyyəti də var idi. Mehdi bəy Mehdibəyov zəhmətlə, şərəflə mənalı ömür yaşamış, müəllim hikmə-

ti, ziyalı müdrikliyi ilə müxtəlif qəbildən olan insanların məhəbbətini qazanmışdır.

Xalqımızın sevimli oğlu, əsl pedaqoq Mehdi bəy Mehdibəyov 1915-ci ildə əbədi olaraq haqq dünyasına qovuşmuşdur.

## HƏSƏN BƏY BAĞIRBƏYOV

***Balalarla bağlı müəllimlə xalqın***
***birliyi mütləq-məsuldur.***
**H.Bağırbəyov**

Həsən bəy Kərim bəy oğlu Bağırbəyov 1866-cı il fevral ayının 9-da Şuşada anadan olub. O, əvvəlcə Şuşa Real Məktəbində təhsil alıb. Bu məktəbi bitirdikdən sonra isə təhsilini Zaqafqaziya Müəllimlər Seminariyasında davam etdirib.

1885-ci ildə seminariyanı bitirən Həsən bəy Bağırbəyov təyinatla Goran kənd ibtidai məktəbinə göndərilib və 1887-ci ilə qədər burada müəllimlik vəzifəsini şərəflə yerinə yetirib. O dövrdə pedaqoji kadrların çatışmazlığı səbəbindən müəllimləri tez-tez müxtəlif bölgələrə bu şərəfli vəzifəni icra etməyə göndərirdilər. Bu baxımdan Həsən bəy də müxtəlif vaxtlarda Uluxanlı(1887-1890), Padar(1890-1893), Vəndam(1893-1895), Alpout(1895-1900), Gülablı (1900-1902), Gəncədə Bağmanlar (1902-1917) rus-tatar məktəblərində və 1918-ci ildə Şəki Ali İbtidai Məktəbində müəllim və müdir vəzifəsində işləmişdir. O, həmçinin 1919-cu ildə Gəncə şəhər məktəbində müfəttiş vəzifəsində çalışmışdır. 1920-1923-ci illərdə ərzində Gəncə Müəllimlər Seminariyasının müdiri vəzifəsini icra etmişdir. 1923-1929-cu illərdə Bakıda Kaspi

Gəmi İdarəsinin yeddiillik məktəbində müəllim vəzifəsində çalışmışdır.

Həsən bəy Bağırbəyov quberniya katibi və kollej qeydiyyatçısı mülki rütbələri almışdı. Həsən bəy əmək fəaliyyəti dövründə bir çox təltiflərə layiq görülmüşdü. 1896-cı ildə "Xalq maarifi sahəsində əməyə görə" sözləri yazılmış gümüş medalla, 1909-cu ildə III dərəcəli "Müqəddəs Nina" və III dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə təltif edilmişdi.

Həsən bəy Bağırov 1929-cu il may ayının 4-də Bakıda vəfat etmiş və orada dəfn olunmuşdur.

## ƏBDÜLƏLİ BƏY VƏLİBƏYOV

***Bəlağətli sözlər ruhun səsidir.***
**Ə.Vəlibəyov**

Əbdüləli bəy Qasım bəy oğlu Vəlibəyov 1869-cu ildə Şuşa şəhərində anadan olub. İlk təhsilini şəhər məktəbində alıb, daha sonra təhsilini davam etdirmək üçün Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olub. Seminariyada maarifçilik sahəsində tanınmış Tahir Qiyasbəyov, Feyzulla Muradxanov və Azərbaycanın məşhur yazıçılarından olan S.S.Axundovla bir sinifdə oxumuşdur.

1897-ci ildə Bakı şəhər III rus-tatar məktəbinə dəyişmək üçün Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri müdiriyyəti tərəfindən təklif almışdır. Beləliklə, 1900-cü ildən başlayaraq gənc müəllim Bakı şəhərində bu məktəbin 8-9-cu siniflərində Azərbaycan dilini də tədris etmişdir. Bütün bunlarla yanaşı, Əbdüləli bəy Gülablı rus-tatar məktəbində də işləmişdir.



Seminariyanı bitirdikdən sonra Qarğabazar kənd məktəbində işləmiş, sonra isə ayrı-ayrı məktəblərdə müəllimlik fəaliyyətini davam etdirmişdir. Vətənini və xalqını böyük məhəbbətlə sevən Əbdüləli bəy demək olar ki, bütün həyatını xalqın övladlarının maariflənməsinə, təhsilin və mədəniyyətin inkişafına həsr etmişdir.

Kiçik yaşlarından bədii yaradıcılıqla məşğul olan Əbdüləli bəy elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, həm də şair, yazıçı və publisist idi. Onun şeirləri sadə, asan anlaşılan və uşaqları cəlb edən ifa üslubunun zənginliyi idi. Məsələn, "Xanım xalanın xalası var, Xalının yaşılı, alası var" və s.

Maarif, təhsil sahəsində böyük işlərə imza atan, yüksək mədəniyyətə və təhsilə malik olan, ictimai xadim kimi tanınan Əbdüləli bəyi nədənsə Qarabağda hamı şair kimi xatırlayır.

Əbdüləli bəy Vəlibəyov ictimai xadim, şair, yazıçı, maarifpərvər ziyalı, pedaqoq və əsl insan kimi tarixə düşmüşdür.

Ə.Vəlibəyov 1920-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı natamam məktəblər şöbəsində təlimatçı və 1921-ci ildə Bakı şəhəri I dərəcəli 39-cu Sovet məktəbinin müdiri vəzifələrində işləyib.

Əbdüləli bəy Vəlibəyov III dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilmiş, nümunəvi xidmətinə görə dəfələrlə tə-

şəkkür almış və iki dəfə pul mükafatına layiq görülmüşdür. Əfsuslar olsun ki, əsl pedaqoq, tanınmış maarif xadimi Əbdüləli bəy Vəlibəyovun ölüm tarixi bəlli deyil.

## RƏSUL BƏY TAHİROV

***Ana dilini mükəmməl bilməklə yanaşı, digər dilləri də öyrənmək mərifətdir.***

**R.Tahirov**



Rəsul bəy Qəhrəman bəy oğlu Tahirov 1871-ci il dekabrın 8-də Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Şuşa şəhərində almış, daha sonra Qoriyə gələrək Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmaq üçün qəbul imtahanları vermişdir. İmtahanlardan uğurla çıxan gənc Rəsulun sevinci yerə-göyə sığmırdı. O, arzusuna çatmışdı, qəlbən arzusunda olduğu sənətə yiyələnəcəkdi. Seminariyada o müəllimlər və tələbələr tərəfindən çox sevilirdi.

1889-cu ildə seminariyanı bitirən Rəsul bəy Tahirov təyinatla Şuşa qəzasının Ləmbəran kənd ibtidai məktəbinə göndərilir. 1894-cü ildə isə o, pedaqoji fəaliyyətini Min-

kənd məktəbində davam etdirir. İki il burada işlədikdən sonra Şuşa ikisinifli rus-tatar məktəbinə dəyişilir. Burada 1906-cı ilə qədər müəllim və məktəb müdiri vəzifələrində əzmlə çalışır.

Rəsul bəy müəllimliklə yanaşı, bədii yaradıcılıqla və tərcüməçiliklə də məşğul olurdu. Bu istedadlı gənc müəllim Azərbaycan ədəbiyyatını mükəmməl bildiyi kimi rus ədəbiyyatını da dərindən mənimsəmişdi. Pedaqoji fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla və tərcüməçiliklə də məşğul olmuşdu. O, Lev Tolstoyun "Allah haqqı görər, ancaq aşikar etməz" və "Qafqaz əsiri" əsərlərini Azərbaycan dilinə tərcümə etmiş və "Səda" mətbəəsində nəşr etdirmişdi.

Gənc müəllim həmçinin "Hacı Qara", "Dağılan tifaq", "Otello" və digər teatr tamaşalarında həvəskar aktyor kimi müxtəlif rollarda oynamışdır. Rəsul bəy Tahirov yaradıcı və mükəmməl pedaqoji fəaliyyətinə görə kollej katibi mülki rütbəsi almışdır.

Xalq müəllimi kimi şöhrət qazanan Rəsul bəy Tahirov 1925-ci il avqust ayının 7-də Bakı şəhərində vəfat etmişdir.

## MUSA QULİYEV

***Qori seminariyası dostluq ocağı idi.***
**M. Quliyev**

Görkəmli maarif xadimi, publisist Musa Babakişi oğlu Quliyev 1873-cü il dekabr ayının 25-də Cavanşir qəzasının (1846-cı ildə çar hökuməti tərəfindən Şuşa qəzası ərazisi üç yerə bölünmüşdü. Zəngəzur qəzası, Cavanşir qəzası və Cəbrayıl qəzası) Mamırlı kəndində anadan olmuşdur.

O, 1893-cü ildə Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmişdir.

Pedaqoji fəaliyyətə Şuşa qəzasının Ləmbəran kənd məktəbində başlamış, daha sonra Cəbrayıl qəzasının Qarğabazar, Bərdə və Şuşa rus-tatar məktəblərində müəllim və direktor vəzifəsində çalışmışdır. O, həmçinin Şuşa Real Məktəbində, Yelizavetpol və Qaryagin qəza maarif şöbələrində işləmişdir. Təhsilin idarə olunması sahəsinndə səmərəli fəaliyyət göstərmişdi.

Təhsil aldığı müddət ərzində görkəmli ədib və pedaqoqlardan N.Nərimanov, S.S. Axundov, H. Sanılı, Ə. Eyvazov və başqaları ilə yaxından dostluq etmiş, xalq təhsilinin geniş vüsət alması naminə xüsusi fəallıq göstərmişdir.

## İLDIRIM BƏY ŞƏRİFBƏYOV

*Azad yaşayan xalq təxti-tacdadır*
**İ.Şərifbəyov**

İldırım bəy Şərifbəyov Qarabağda məşhur olan Şərifbəyovlar soyuna mənsubdur. Bu soyun ulu babası Şərif bəy Kəbirlidir. O, XVIII əsrin II yarısında Kəbirli mahalının Seyidli obasında yaşamışdır. Onun törəmələri çar dövründə Şərifbəyov, Sovet hakimiyyəti illərində isə Şərifov soyadını daşımışlar.

İldırım Qasım bəy oğlu Şərifbəyov 1873-cü ildə Şuşa qəzasının Seyidli obasında anadan olmuşdur. Kiçik yaşlarından atasını itirən İldırım bəy ilk təhsilini yaxın qohumlarından olan Seyid Həşim Seyid Qara Məhəmməd oğlundan almışdır. Sonra isə Şuşa şəhər məktəbində oxumuşdur. Qori Müəllim-



lər Seminariyasında təhsilini davam etdirmişdir. 1895-ci ildə seminariyanı bitirərək Qarabağın bir çox kənd məktəblərində müəllimlik etmişdir. İşlədiyi illər ərzində xalqın maariflənməsi yolunda fədakarcasına çalışmışdır.

İldırım bəy Şərifbəyov xalqının azadlığı uğrunda çırpınan bir ziyalı idi. O, "Difayi" partiyasının üzvü olmuşdu və burada çox geniş təbliğat işləri aparırdı. Nə qədər gizli iş aparsa da, Şuşa sakini İldırım bəy Şərifbəyov bu partiyaya mənsub olmaqda şübhə doğurduğuna görə həbs edilmişdi. Əfsuslar olsun ki, onun həbsdən sonrakı həyatı haqqında məlumat yoxdur.

## RÜSTƏM BƏY AXUNDOV

***Hüquqlarını bilməyən müəllim nəinki məktəbliləri, heç özünü də qoruya bilməz.***

**R.Axundov**

Rüstəm bəy Axundov 1874-cü il iyunun 16-da Şuşa şəhərində dünyaya gəlib. O, ilk təhsilini şəhər real məktəbində almış, 1882-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olaraq 1886-cı ildə oranı yüksək nəticələrlə bitirib. Oxumaq, daha mükəmməl təhsil almaq həvəsində olan Rüs-

təm bəy bununla kifayətlənməyib, 1886-cı ildə Tiflis gimnaziyasında təhsilini davam etdirmişdir. 1894-cü ildə gimnaziyanı bitirərək Baxçasarayda-Zəncirli kənd mədrəsəsində müəllim işləmişdir. 1897-ci ilə qədər o, burada çox məharətlə müəllimlik etmiş və pedaqoji kollektivin, həmçinin tələbələrin sevimlisi olmuşdur. Rüstəm bəy tatar zadəganları nəslindən olan və Baxçasarayda məskunlaşan Qutlu Soltan xanımla ailə qurmuşdu.

Hüquq sahəsində çalışıb xalqının, millətinin hüquqlarını qorumaq istəyi bu gənci yeni bir ali təhsilə yiyələnməyə istiqamətləndirmişdi. 1900-cü ildə yüksək göstəricilərlə imtahan verərək Xarkov Universitetinin hüquq fakultəsinə daxil olmuş, 1905-ci ildə ali təhsilinin başa vuraraq hüquqşünas ixtisasına yiyələnmişdir. 1905-ci ildən başlayaraq iki il Bakı Dövlət Palatasında maliyyə müfəttişliyinin köməkçisi vəzifəsində çalışmışdır.

1910-cu ildən 1918-ci ilə qədər Simferopolda notarius köməkçisi kimi fəaliyyət göstərmişdir.

1918-1920-ci illərdə Simferopolda "Zemski uprava"nın üzvü olmuşdur. Həmin işlərdə Rüstəm bəy təcrübəli, vətənpərvər hüquqşünas kimi tanınmışdı.

1920-ci il avqust ayının 20-də Ağdam şəhərinin xalq hakimi vəzifəsinə təyin edilmişdi.

1923-cü ildən Rüstəm bəy Həmkarlar İttifaqına üzv olmuşdur. Azərbaycan Xalq Ədliyyə Komissarlığının əmri ilə 1923-cü il yanvar ayının 24-də Ali Məhkəmənin üzvlüyünə təyin edilmişdir. Lakin ailə vəziyyəti ilə bağlı olaraq həmin vəzifəni icra edə bilməmiş, Ağdamda xalq hakimi vəzifəsini davam etdirmişdir. Bir müddətdən sonra, yəni, 1930-cu ildən Ağdam şəhər Xalq Məhkəməsində notarius şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Yaşadığı ömür payında xalq tərəfindən sevilən dəyərli müəllim, hüquqşünas Rüstəm bəy Axundov 1937-ci il mart ayının 2-də Tərtər şəhərində dünyasını dəyişmişdir.

## SALMAN BƏY MƏLİKYEQANOV

***Müəllimin zəhməti və qayğısı xalqın balalarının savadlanması yolunda işıq olmalıdır.***

**S.Məlikyeqanov**

Salman bəy Hüseynəli bəy oğlu Məlikyeqanov 1874-cü il iyun ayının 5-də Şuşada anadan olub. Şəhər məktəbini bitirdikdən sonra təhsilini Qori seminariyasında davam etdirib. 1894-cü ildə seminariyanı bitirən Salman bəy sentyabrın 14-də Hadrut normal ikisinifli zemstvo məktəbində müəllimlik fəaliyyətinə başlayıb. 1913-cü ildən Qarğabazar məktəbinə dəyişilib. Buradakı səmərəli fəaliyyətinə, tədris üslubuna və metodikasına, gündəlik dərs proqramlarının hazırlanmasına, şagirdlərin təlim-tərbiyə işlərinə diqqətinə görə onu həmin məktəbə müdir vəzifəsinə təyin ediblər. Salman müəllim rəhbərlik etdiyi müddətdə pedaqoji kollektivə və şagirdlərə qayğısına və diqqətinə görə hər kəsin rəğbətini qazanmışdı. Digər seminariya tələbələri kimi o da xalqının savadlanması, maariflənməsi üçün bütün çətinliklərə və maneələrə baxmayaraq, əzmlə çalışıb, gərgin əmək fəaliyyəti ilə tanınıb.

## YƏHYA HACIBƏYOV (QARABAĞİ)

***Təhsili kamalət, kəm alət ilə olmaz,***
***Təhsili kamal etməyə alət gərəkdir.***
**Y.Qarabaği**

Yəhya bəy Həsən bəy oğlu Hacıbəyov (Qarabaği) 1874-cü il yanvar ayının 12-də Şuşa şəhərində anadan olub. O, 9 yaşından başlayaraq ilk təhsilini Şuşa məhəlli məktəbində alıb. Burada bir neçə il oxuduqdan sonra, rus-tatar məktəbinə daxil olub. Yəhya bəy Hacıbəyovun çalışqanlığını, oxumaq həvəsini görən müəllimləri təhsilini davam etdirmək üçün onu Şuşa ali ibtidai məktəbə göndəriblər. Lakin atasının vaxtsız vəfatı təhsilini yarıda dayandırmasına səbəb olub. Təhsilini tamamlaya bilməsə də, yiyələndiyi bilik və bacarıqlar əsasında ailəsini dolandırmaq üçün Şuşa ətrafında yaşayan ailələrin balalarına dərs verirdi. Onun elmə, maarifə, təlimə həvəsi bitib-tükənmirdi. Yəhya bəyin təhsilə olan marağını görən Şuşa müəllimləri öz aralarında məsləhətləşərək 1904-cü ildə onu Qori Müəllimlər Seminariyasına göndərirlər.

Yəhya bəy 1905-ci ildə seminariyada təhsilini müvəffəqiyyətlə bitirib, ömrünün sonuna qədər Qarabağda yaşayır və yorulmadan xalqın maariflənməsi, qizların savadlanması, cəhalətin, xürafatın yox olması sahəsində şəmərəli müəllimlik fəaliyyəti ilə məşğul olub. O, Şıxbabalı, Əfətli kənd, həmçinin Ağdam şəhər məktəblərində rus dili və ədəbiyyatı fənnini tədris edib.

Yəhya bəy Hacıbəyovun xalqın savadlanması, cəhalətin aradan qaldırılması uğrunda apardığı 27 illik səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. Ona 1931-ci il aprelin 23-də Ağdam şəhərində keçirilən yubiley tədbirində "əməkdar

müəllim” fəxri adı verilib. Zəhmətinin və səmərəli fəaliyyətinin nəticəsidir ki, 1934-cü ildə ona respublika əhəmiyyətli fərdi təqaüd ayrılmış və Ağdam rayonundakı Əfətli kəndindəki məktəbə onun adı verilmişdir.

Yəhya bəy Qarabaği yalnız müəllim deyildi. O, eyni zamanda, “Şeyda” təxəllüsü ilə yazıb-yaradırdı. Qarabağın şeir, sənət, musiqi məclislərinin ən fəal üzvlərindən biri, istedadlı müxbir və yazıçı kimi tanınırdı.

Dövrünün tanınmış ziyalısı, maarifpərvəri, xeyriyyəçisi, şairi, alimi Mir Möhsün Nəvvab “Təzkireyi-Nəvvab” əsərində onun haqqında belə yazır: ***“Hörmətli Yəhya bəy “Məriz” təxəllüslü şair Məhərrəm bəyin nəvəsidir. Xoşxasiyyətli, iyirmi səkkiz yaşlı cavandır. Şeir deyir, təxəllüsü “Şeyda”dır, fars və türkcə şeirlər söyləyir. On doqquz qəzəli, elm və fəzilətə aid əşarı mövcuddur, öz dəst-xəttilə mənə verib”.***

Yəhya bəy Hacıbəyov Qarabaği 1938-ci ildə vəfat edib.

## SÜLEYMAN SANİ AXUNDOV

***And içirəm sən və sənin kimi gül çöhrələri zindanda çürüyən cəhalət zəncirləri altında sızıldayan məsumların göz yaşlarına ki, sizi bu əsarətdən qurtarmaq üçün cavan ömrümü qurban edəcəyəm. Əgər tələf olsam, mənim açdığım cığırla gedən cavanlar sizi xilas edəcəklər.***

**S.S.Axundov**

Azərbaycan ədəbiyyatının və təhsilinin görkəmli nümayəndələrindən biri, yazıçı Süleyman Sani Axundov 1875-ci il



oktyabrın 21-də Şuşa şəhərində anadan olmuşdur. Onun uşaqlığı Ağdamın əsrarəngiz təbiətli Seyidli kəndində keçmiş və bu yerlərin gözəlliyini öz əsərlərində tərənnüm etmişdir. Süleyman Sani Axundov ibtidai təhsilini bu kənddə almışdır. O, uşaq yaşlarında atasını itirdiyi üçün Qori Müəllimlər Seminariyasının müəllimi olan dayısı Səfərəli bəy Vəlibəyovun himayəsində böyümüşdür. Süleyman Sani Axundov 1889-1890-cı tədris ilində Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuş, 1894-cü ildə orada təhsilini başa vurduqdan sonra Bakıda III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilmişdir. Beləliklə, o, ömrünün sonuna kimi pedaqoji fəaliyyətlə məşğul olmuş, yazıçı, jurnalist kimi tanınmışdır. Həmin dövrdə xalq rus-tatar məktəblərində uşaqlarını oxutmağa o qədər də həvəsli deyildi. Dindarlar uşaqlarının kafir olacağından ehtiyatlanırdılar. O dövrdə valideynlərlə söhbət edərək yeni məktəblərin uşaqların gələcəyində rolu haqqında izahat vermək xüsusi bacarıq tələb edirdi. Süleyman Sani Axundov həmin dövrdə xüsusi yaradıcılıqla, pedaqoji ustalıqla bu işin öhdəsindən gəlirdi. Beləliklə, o, ömrünün sonuna kimi pedaqoji fəaliyyətlə məşğul olmuş, yazıçı, jurnalist kimi tanınmışdır.

1897-ci ildə S.S.Axundov Bakıda Lavrov proqimnaziyasına müəllim təyin olundu. Lakin burada tələbələrin aldığı klassik təhsil səviyyəsi və şagird tərkibi onun həyata baxışı ilə uzlaş-

madığından 1901-ci ildə yenidən rus-tatar məktəbinə qayıdır. 1905-ci ildən isə o, artıq həmin məktəbin müdiri vəzifəsində çalışır. Məktəbə rəhbərlik etdiyi dövrdə burada xüsusi qayda-qanun yaradılmışdı. Şagirdlərin yaxşı təhsil almaları üçün lazımi şərait yaradılmışdı. Daxili intizam yüksək səviyyədə idi. Şagirdlərə humanist mövqedə qayğı göstərilir, onların yaradıcı yazı işlərinə, əmək və estetik tərbiyəsinə, sinifdənxaric işlərinə xüsusi diqqət yetirilirdi.

S.S.Axundov bu məktəbdə müdür işlədiyi müddət ərzində müəllimlərə də xüsusi qayğı göstərir, onların pedaqoji hazırlığının artırılması üçün müvafiq təkmilləşdirmə işləri aparırdı. Beləliklə, o, pedaqoji kollektivin rəhbəri kimi məktəbdə müəllimlərin nəzəri hazırlığının yüksəlməsinə nail olurdu. Müəllimlərin qabaqcıl iş təcrübəsini ümumiləşdirib, bütün həmkarlarına çatdırılmasını vacib sayırdı. Bu işlərin yüksək səviyyədə aparılmasına səbəb onun təhsil aldığı seminariyada pedaqoji elmlərin nəzəri və praktik cəhətdən əsaslı keçirilməsi və öyrədilməsi ilə bağlı idi. Burada pedaqogikanın klassik nümayəndələrinin əsərlərinə müraciət edib, onlardan hər zaman bəhrələnmə xüsusiyyətlərini mükəmməl aşılamışdı. Belə mütərəqqi əlamətlərin nəticəsi idi ki, S.S.Axundov müdürü olduğu rus-tatar məktəbini inkişaf etdirərək yeni dövrün tələblərinə cavab verən məzmunlu bir məktəbə çevirmişdi.

Süleyman Sani Axundov 1906-cı ildə Bakıda çağırılmış Azərbaycan müəllimlərinin I qurultayında iştirak etmişdir. Bu, qurultayda o, ana dili ətrafında mərkəzləşmiş tədris planı yaradan komissiyanın tərkibinə daxil edilmişdir. Qurultay iştirakçıları, maarifpərvər Azərbaycan ziyalıları onun çıxışlarında, məruzə və məqalələrində, bədii əsər və dərsliklərində ana dilinin saflığını qorumaq, onu ərəb, fars dillərinin təsirindən uzaqlaşdırmaq üçün yazdığı məqalələrlə bu sahədə necə

çalışdığı barədə məlumatlı idilər. Qurultaydan sonra ana dili ilə mübarizədə böyük rol oynayan “İkinci il” dərsliyinin yazılmasında A.Talıbzadə, A.Əfəndizadə, M.Mahmudbəyov və F.Ağazadə ilə birlikdə iştirak etmişdir. 1920-1921-ci illərdə Qarabağ vilayət Maarif Şöbəsinin müdiri, 1922-1930-cu illərdə isə Bakıda məktəb müdiri vəzifələrində çalışmışdır. 1929-cu ildə Azərbaycanda ərəb əlifbası latın əlifbası ilə əvəz olunarkən S.S.Axundov, A.Talıbzadə, Ə.Əfəndizadə, S.Əbdürrəhmanzadə, F.Ağazadə, M.Mahmudbəyovla birlikdə “Yeni türk əlifbası” dərsliyinin tərtib olunmasında fəal iştirak etmişdir. Elə həmin ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir. S.S.Axundov məktəblərdə müəllim və müdür işlədiyi vaxtlarda şagirdlərin əlavə oxu kitablarına ehtiyacı olduğunu duyurdu. Uşaqların görüş dairəsini genişləndirən, mənəvi aləmini zənginləşdirən, təlim və tərbiyəvi əhəmiyyət daşıyan maraqlı kitablar yox idi. Həmin dövrdə S.S.Axundov bu günümüzə qədər öz əhəmiyyətini itirməyən uşaqlar üçün “Qorxulu nağıllar” adı ilə “Əhməd və Məleykə”, “Abbas və Zeynəb”, “Nurəddin”, “Qaraca qız”, “Əşrəf” hekayələrini yazdı.

S.S.Axundov dövrünün digər maarifpərvər ziyalıları kimi Azərbaycan həyatında qadın azadlığı və təhsil probleminin geriliyini görür, bilir və bu problemin həllində fəal iştirak edirdi. O, cəhalət içində boğulanların əsl dərmanını elm, təhsil və azadlıqda görürdü. Bununla bağlı qələmə aldığı “Qaranlıqdan işığa”, “Şahsənəm və Gülpəri”, “Bir eşqin nəticəsi”, “İki yol” və s. səhnə əsərləri xüsusi yer tuturdu. 1921-ci ildən 1930-cu ilədək fasiləsiz olaraq Bakı Sovetinin üzvü, Bakı İcraiyyə Komitəsinin üzvlüyünə namizəd və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü kimi geniş, səmərəli fəaliyyət göstərmişdi. "İkinci il" adlı dərs kitabının müəlli-

fi olmuşdur. 1907-ci ildə qələmə aldığı “Dibdat bəy” “Türk birliyi” adlı komediyaları ilə Azərbaycan teatr səhnəsinə siyasi ictimai mövzuda əsərlər gətirmişdir. “Laçın yuvası”, “Molla Nəsrəddin Bakıda” və s. pyeslərin və bir sıra maraqlı hekayələrin müəllifidir. Ədəbi və pedaqoji fəaliyyətinə görə 1932-ci ildə ona "Əmək qəhrəmanı" adı verilmişdir.

Göründüyü kimi, S.S.Axundovun ədəbi və pedaqoji fəaliyyəti çoxcəhətli və rəngarəng olmuşdur. Akademik Məmməd Arif Dadaşzadə yazırdı: ***“Süleyman Sani, hər şeydən əvvəl, bir müəllim idi. Böyük mənada, ən hörmətli mənada müəllim idi. Onun bədii yaradıcılığı da öz ilhamını bu müəllimlikdən alırdı. O, bütün yazılarında bir müəllim kimi oxucuları tərbiyə etməyə, onlara bilik, ibrət və mərifət verməyə çalışırdı”.***

Tanınmış yazıçı-jurnalist Süleyman Sani Axundov 1939-cu il martın 29-da, 63 yaşında vəfat etmişdir. O, yaratdığı dəyərli əsərləri ilə xalqımızın qəlbində əbədi qalacaq.

## BƏDƏL BƏY BƏDƏLBƏYLİ

***Musiqi dərslərinin təsir qüvvəsindən bəhrələnən müəllim şagirdlərin təlim-tərbiyəsində uğur qazanar.***

**B.Bədəlbəyli**

Bədəl bəy Bəşir bəy oğlu 1875-ci ildə Şuşa şəhərində anadan olub. İlk təhsilini Şuşa ibtidai məktəbində alıb. O, 1890-cı ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olub və 1895-ci ildə oranı bitirib. Seminariyanı bitirdikdən sonra bir müddət Şuşada müəllimlik edib. Lakin Bədəl bəyin pedaqoji fəaliyyəti XX əsrin əvvəllərindən başlayaraq Bakı



şəhəri ilə bağlı olub. Belə ki, o, otuz beş il fasiləsiz rus-tatar məktəblərində müdir vəzifəsində çalışıb.

Bədəlbəylilər nəslinin qocaman nümayəndəsi Bədəl bəy Bədəlbəyli əsl maarifçi idi. Bədəl bəy məktəbdə şagirdlərin əmək və əxlaq tərbiyəsinə, idman, nəğmə və musiqi dərslərinə böyük əhəmiyyət verirdi. Onun ən böyük xidmətlərindən biri də rus-müsəlman məktəblərində sinifdənxaric oxuya xüsusi diqqət yetirməsi olub. Belə ki, məktəbdə şagirdlərə rus klassik ədəbiyyatının nümayəndələri ilə yanaşı, Azərbaycan klassiklərindən M.P.Vaqif, M.V.Vidadi, S.Ə.Şirvaninin də əsərlərini mütaliə etmələrinə çalışmışdır. B.Bədəlbəyli musiqi sənətini mükəmməl bildiyindən, musiqi alətlərində gözəl çalmağı bacardığından, bu sahəyə xüsusi diqqət yetirirdi. Musiqinin uşaqların zövqünə xüsusi təsirini, onlarda incə duyğular oyatmasını, dönə-dönə diqqətə çatdırır, işlədiyi məktəbdə şagirdlərin musiqi təhsilinə böyük əhəmiyyət verirdi.

Bədəl bəy xalq kütlələri arasında maarifçiliyin və təhsilin vacibliyini, gərəkliyini xüsusi vurğulayırdı. Bununla bərabər, Bədəl bəy mədəni-maarif və xeyriyyə cəmiyyəti kimi fəaliyyət göstərən "Nicat" cəmiyyətinin ən fəal üzvlərindən sayılırdı.

Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin xalası oğlu Bədəl bəy həm də ictimai xadim olmuş, "Nicat" cəmiyyətinin üzvü

kimi bir çox tamaşalarda iştirak etmiş və özünü aktyor kimi də dəfələrlə sınamışdı. O, "Leyli və Məcnun" operasında Məcnun, İbn-Salam obrazlarını məharətlə ifa etmişdir.

B.Bədəlbəyli 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakı Xalq Maarif Şöbəsində təlimatçı işləmiş, maarifpərvər bir ziyalı kimi yeni məktəblərin yaranması, müəllimlərin yenidən təkmilləşməsi, qızların məktəblərə cəlb edilməsi ilə bağlı mübarizə aparmaq sahəsində xüsusi fəallıq göstərmiş, daha əhəmiyyətli işlər görmüşdür. B.Bədəlbəyli müəllimlərin qarşısında müntəzəm olaraq tez-tez məruzə və çıxışlar etməklə onların daha da təkmilləşməsində böyük rol oynamışdır. Müəllimlik etdiyi məktəbdə (el arasında ona Bədəl bəyin məktəbi deyirdilər) geniş biliyə malik olması, uşaqlara qayğılı münasibəti, təqdirəlayiq fəaliyyəti, xalqa olan yaxınlığı ona xalq arasında böyük nüfuz qazandırmışdı. Bədəl bəy haqqında danışılan xatirələri oxuyarkən məlum olur ki, nəinki müəllimlər və şagirdlər, hətta dindarlar, qoçular, alverçilər də Bədəl bəyə hörmət edər, o, gələndə ayağa durardılar. Azərbaycanın fəal qadınlarından olan Törə xanım Bədəl bəydən danışarkən deyərdi: ***"Ərəb, fars və rus dillərini mükəmməl bilən, Quranla yaxşı tanış olan Bədəl bəy adamlar arasında apardığı təbliğatı Qurandan gətirdiyi iqtibaslarla əsaslandırır və ətrafındakılara elmin, maarifin xeyrini elə aydın başa salırdı ki, ikinci söz ola bilməzdi. Bədəl bəy bu məhəllənin bir evinin xeyir və şərinin iştirakçısı olmuşdu. Xalq onu öz adamı, öz nümayəndəsi kimi tanıya bilmişdir. Heç kəs Bədəl bəyin sözünün əksinə getməzdi və uşaqlarını məmnuniyyətlə ona oxumağa verərdilər".*** Onun qayğısı ilə böyüyən saysız-hesabsız yetişdirmələri olmuşdur. Həmin insanlar ondan sonra millətin maariflənməsində mühüm rol oynamışlar.

Onu da deyə bilərik ki, Bədəl bəy Əfrasiyab və Səmsi Bədəlbəylilərin atasıdır.

Görkəmli maarifçi Bədəl bəy Bədəlbəyli 1932-ci il sentyabr ın 12-də Bakı şəhərində vəfat edib.

## SALMAN BƏY ƏLİBƏYOV

***Hüriyyət hər xalqın varidatıdır.***
**S.Əlibəyov**



Salman bəy Mahmud bəy oğlu Əlibəyov 1877-cu ildə Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini Şuşa Real Məktəbində almış, məktəbi bitirdikdən sonra Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuşdu.

Salman bəy Azərbaycanda kəndli hərəkatının başçılarından biri idi. Onun inqilabi əhval-ruhiyyədə olması seminariyadan xaric edilməsinə səbəb olmuşdu. Salman bəy Əlibəyov bir müddət Şuşa qəzasının Kəhrizli kənd məktəbində müəllim işləmiş, eyni zamanda vəkillik işi ilə də məşğul olmuşdur.

O, XX əsrin əvvəlindən inqilabi mübarizə yoluna qədəm qoymuş və 1905-ci ildən başlayaraq Şuşada inqilabi iş aparmışdır.

Sonralar Cavanşir qəzasında kəndli hərəkatına rəhbərlik etmişdir. 1917-1919-cu illər ərzində o, Qarabağda geniş inqilabi fəaliyyət göstərmişdir.

Salman bəy Əlibəyov 1907-1917-ci illərdə Hindarxında, Ağdamda və sair kəndlərdə kənd cəmiyyətlərinin katibi olmuşdur. O, daim məhkəmə və yerli orqanların iclaslarında kəndlilərin mənafeyini müdafiə etmişdir. Eyni zamanda 1917-ci ildən Gəncə, Qazax, Cavanşir qəzalarında kəndlilərin silahlı mübarizəsinin başçılarından olmuşdur.

1918-ci ilin yazında bəylərin tələbilə həbs olunaraq Şuşa həbsxanasına salınmış, tezliklə Şuşa camaatının köməyi ilə həbsdən qaçmışdı. Lakin daim xalqının maariflənməsi və azadlığı uğrunda mübarizə aparan Salman bəy 1919-cu ildə Şuşa qəzasının Qaradağlı kəndində öldürülmüşdür.

## ƏLİŞ BƏY GÜLMƏMMƏDOV

***Lazımi şəraitdə ümumxalq təcəssümü***
***verə bilmək imkanı yaranır.***

**Ə.Gülməmmədov**

Əliş bəy Abbas bəy oğlu Gülməmmədov 1878-ci ildə Şuşa şəhərində – Merdinli məhəlləsində anadan olmuşdur. İlk təhsilini Şuşa Real Məktəbində almışdır.

Əliş bəy real məktəbdə təhsilini başa vurduqdan sonra Zaqafqaziya Müəllimlər Seminariyasında təhsilini davam etdirmiş, seminariyanı bitirdikdən sonra Şuşaya qayıtmışdır. O, Şuşa şəhər Dumasına üzv seçilmiş və duma komissarlığından birinə rəhbərlik etmişdir.

İmperator II Nikolay tərəfindən "Xidmətlərinə görə" medalına və digər mükafatlara layiq görülmüşdür. Azərbaycan Demokratik Respublikasının fəal tərəfdarlarından, bu yolda əzmlə çalışanlardan olmuşdur. Əliş bəyin İskəndər adlı oğlu və Zümrüd adlı qızı var idi.

Əliş bəy Gülməmmədov 1920-ci ildə vəfat edib.

## FƏRHAD BƏY KÖÇƏRLİ

***Xəstəlik Allah tərəfindən verilmiş bir sınaqdır, insan bunu dərk edərək mübarizə aparmağı bacarmalıdır.***

**F.Köçərli**

Fərhad bəy Köçərli Cavanşir mahalının Köçərli oylağında yüzbaşı olmuş Əlibəyovun kötücəsidir. Bu oylağın adını soyad olaraq götürmüşlər. Şuşada bu soyla tanınan, sayılıb-seçilən insanlar olublar. Fərhad bəy həm də Azərbaycanın elmi-pedaqoji fikir tarixində xüsusi xidmətləri olan Firidun bəy Köçərlinin əmisi oğlu idi.

Fərhad bəy Məşədi Qulu bəy oğlu Köçərli 1879-cu ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini də orada molla yanında almışdı. Bundan sonra Şuşa Real Məktəbində oxumuş və oranı bitirdikdən sonra təhsilini 1895-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasında davam etdirmişdir. 1899-cu ildə seminariyanı bitirən gənc Fərhadı Bakıdakı III rus-tatar məktəbinə göndərirlər. Müəllimliyə böyük maraq göstərən, bu peşəyə məhəbbətlə yanaşan Fərhad müəllim çox həvəslə işə başlamışdır. Lakin düçar olduğu xəstəlik onu bu işindən bir müddət ayırır. O, şiddətli qulaq ağrısından əziyyət çəkir-

di. Bir il müalicə alaraq ağrılara – acılara qalib gəlir. Xəstəliyinin müalicəsi ərəfəsində də müraciət etdiyi Bakı məktəblər müdiriyyəti ona müvafiq yardım da etmişdir.

Fərhad bəy müalicə olunduqdan sonra artıq iş yerinə qayıda bilmir, çünki ora ayrı müəllim təyin edilmişdi. Çox axtarışlardan sonra o, Qars şəhər məktəbində işə düzəlir. Bir müddət burda işlədikdən sonra Bakı şəhər idarəsinin nəzdində yerləşən müəllimlər komissiyasına müraciət edir ki, onu geri qaytarsınlar. Müraciətində göstərirdi ki, xəstələndiyi vaxtda onun yerinə təyin olunmuş müəllim Axverdiyev başqa işə köçürülmüşdür. Həmin yer artıq boş idi. Hətta o, qayıdarsa, görəcəyi işlər haqqında, yəni, xalq maarifinin müxtəlif sahələrində müxtəlif məsələrlə bağlı, o cümlədən, məktəb, müəllim, təhsil, təlim və tərbiyə haqqında müəyyən təkliflər də yazıb hazırlamışdı. Lakin buna baxmayaraq, nədənsə onu əvvəlcə təyinat aldığı iş yerinə qaytarmırlar.

F. Köçərli müəllimlik etdiyi vaxtlarda şagirdlərinə bilik verməklə yanaşı, onlara ədalətlilik, qətiyyətlilik, prinsipiallıq, nəciblik, xeyirxahlıq kimi mənəvi keyfiyyətlər də aşılayırdı. Təbii ki, öz müəllimlərində bu kimi keyfiyyətləri görən şagirdlər onu çox sevir və böyük hörmətlə yanaşırdılar. Lakin nədənsə o, birdən-birə prinsipiallığından əl çəkib, müəllimliyi buraxır və Şuşa qəza İdarəsində II dərəcəli dəftərxana xidmətçisi kimi işə başlayır. 1907 -ci ildən isə Zaqatala dairəsində kargüzar vəzifəsində çalışır. Daha sonra Şuşa, Cavanşir və Yelizavetpol qəzalarında polis və ədliyyə pristavı vəzifələrində dərin vətənpərvərlik hissi ilə fəaliyyətini davam etdirir.

Daim ədalət carçısı olan, tələbələrinin sevimlisi Fərhad bəy Köçərli 1908-ci ildə vəfat edir, haqq dünyasına qovuşur.

## QƏNBƏR BƏY TAHİROV

***Musiqi də bir elmdir,***
***hər kəs o qapını aça bilməz.***
**Q.Tahirov**

Qənbər Əsgər oğlu Tahirov 1880-cı il avqust ayının 2-də Şuşa şəhərində anadan olmuşdur. Təhsilini Qori Müəllimlər Seminariyasında almışdır. Seminariyada oxuyarkən musiqiyə böyük maraq göstərərək bu sənətin dərinliklərini öyrənmiş, eyni zamanda bir neçə alətdə peşəkar səviyyədə ifaçılıq qabiliyyətinə yiyələnmişdir.

1900-cü ildə seminariyanı bitirən gənc Qənbər Kürdəmir kənd birsinifli zemstvo məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. Bir ildən sonra isə o, bir neçə qəza məktəbində öz peşəsini davam etdirmişdir.

Qənbər Tahirov 1900-1901-ci ildə Bakı quberniyasının Corat kəndində, 1902-1905-ci ildə isə Quba qəzasının Talabi kənd birsinifli məktəblərində işləmişdir.

O, Dərbənd şəhərindəki N.V.Qoqol adına I rus-tatar məktəbində1905-ci ildən 1913-cü ilə qədər həvəslə işləyərək pedaqoji sahədə təcrübəli, bacarıqlı mütəxəssis kimi tanınmışdır. Bakı şəhər II, III, IV, VI və IX rus-tatar məktəblərində də 1913-cü ildən 1919-cu ilə qədər müəllimlik etmiş və sonralar direktor vəzifəsində çalışmışdır. Qənbər Tahirov qüsursuz xidmətlərinə görə açıq -tunc yubiley medalı ilə təltif olunmuşdur.

Tanınmış maarif xadimi, xalqın sevimlisi Qənbər Əsgər oğlu Tahirov Bakı şəhərində vəfat etmişdir, ölüm tarixi bizə məlum deyil.

# FƏRHAD AĞAZADƏ

***Vətənin nicatı elmdə, təhsildədir.***

**F.Ağazadə**



Azərbaycanın mədəniyyət, ədəbiyyat, xüsusilə də, dilçilik tarixinin görkəmli nümayəndəsi Fərhad Ağazadə XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb-yaratmış maarif xadimi, pedaqoq və jurnalist olub.

Fərhad Məşədi Rəhim oğlu Ağazadə 1880-ci il avqustun 12-də Susa şəhərində anadan olub. Uşaqlıqdan ağlı, zəkası və istedadı ilə tay-tuşlarından seçilən Fərhad Şuşa şəhər məktəbini bitirdikdən sonra 1898-ci ildə Qoriyə gedərək imtahan verib, Zaqafqaziya Müəllimlər Seminariyasına qəbul olunub. 1900-cü ildə oranı bitirdikdən sonra (1900-1905-ci illərdə) əvvəlcə Xaldan, Şuşa, sonra isə Gorus, Gəncə məktəblərində müəllim işləyib. 1905-ci ildən başlayaraq Fərhad Ağazadə pedaqoji fəaliyyətini Bakıda davam etdirib. Burada o, rus-Azərbaycan və "Səadət" məktəblərində çalışıb.

F. Ağazadə Qafqaz müsəlman müəllimlərinin Bakıda keçirilən I (1906) və II (1907) qurultaylarının iştirakçısı olub və

hər iki qurultayın katibi seçilib. Həmin qurultaylarda yeni dövrdə tədrisin aktual problemlərinə dair məruzələrlə çıxış edib. F.Ağazadə tanınmış pedaqoqlardan M.Mahmudbəyov, S.Əbdülrəhmanbəyov, S.S.Axundov, A.Talıbzadə və A.Əfəndizadə ilə birlikdə "İkinci il" dərsliyini tərtib edib. O, 1910-cu ildə Azərbaycan ədəbiyyatı və dilinin inkişafı ilə məşğul olub, bu sahədə xeyli iş görüb. 1912-ci ildə "Ədəbiyyat məcmuəsi" adlı kitab hazırlayaraq çap etdirib.

Fərhad Ağazadə Mirzə Fətəli Axundovdan sonra dilimizin saflığı və əlifbamızın islahı uğrunda mübarizə aparan ikinci böyük şəxsiyyət kimi dəyərləndirilir. Onun ərəb əlifbasının yeni latın əlifbası ilə əvəz edilməsində böyük xidmətləri olub. Yeni əlifba layihəsi tərtibi ilə bağlı hələ 1906-cı ildə müəyyən işlər görmüşdü. Lakin o dövrdə Azərbaycandakı mövcud vəziyyət, çar Rusiyasının müstəmləkəsi olması Fərhad Ağazadənin arzularının reallaşmasına imkan vermir, necə deyərlər, uzun zaman çəkdiyi zəhmət işıq üzü görmürdü.

Fərhad Ağazadə "Azərbaycan" qəzetinin ən fəal yazarlarından biri idi. Silsilə məqalələrində xalqının, millətinin nicatını elmdə, təhsildə görür, yetişən gəncliyi təhsil almağa səsləyirdi. "Azərbaycan" qəzetinin 1918-ci il 66-cı nömrəsində "Bakıda xalq məktəbi müdirlərinin yığıncağı" adlı məqaləsində yazırdı: ***"İki gündür ki, Azərbaycanda camaat məktəb müdirlərinin dəvətilə Bakıya yığılıb, katib məsələlərinin müzakirəsi ilə məşğuldur. Bu, bir ağır vəzifədir. Çünki məktəbimizin halı çox pərişan olduğu üçün də müalicəyə möhtac bir çox dərdləri var. Məhəlli müzakirəyə qoyulacaq o qədər məsələlər var ki, yığıncağın müddəti tamam bir il də çəksə, bunların öhdəsindən gələ bilməz".***

Qəzetin 1919-cu il 68-ci nömrəsində "Andronikнə istəyirmiş?" adlı məqaləsində erməni terrorçu, general Andronik

Ozanyanın törətdiyi vəhşiliklərdən, Zəngəzura, Susaya və Qarabağa hücumlarından, bu qaniçən ermənінin öz camaatı tərəfindən sevilmədiyindən bəhs edirdi: ***"… Bu müsəlman yerlərini qılınc zoru ilə boşaldıb, Ararat cümhuriyyətinə mülhəq etmək və gələcəkdə barışıq konfransında bunu hökumətlərə təsdiq elətdirmək niyyəti qarətçiliyin amalından məlum olur".***

Fərhad Ağazadə cəmiyyətdə baş verən bütün hadisələrə məqalələrində yer verirdi. "Hər işə çarə vardır" adlı məqaləsi "Azərbaycan"ın 1919-cu il 76-cı nömrəsində yer alır: ***"Yollarda özümüzdən qulluqçumuz olmadığından xaricilər dəxi bilmirlər ki, onlar getsələr, yol fəna olacaqdır. Ona görə də bildiklərini itirirlər".***

"Maarif müfəttişlərinin yığıncağına dair" adlı məqaləsi "Azərbaycan" qəzetinin 1919-cu il 79-cu nömrəsində dərc olunmuşdur. Həmin məqalədə deyilirdi: ***"İş bu ki, yığıncağın 8-ci iclasında dərs kitablarının intixabı məhəlli müzakirələrə qoyulacaq. Vəqtin qeyri-müsaid olduğu cəhətilə həlalik hazırda bulunan kitablara qənaət edilir".***

Qəzetin 1919-cu il 83-cü nömrəsində isə belə yazır: ***"…Yüz ildən çoxdur ki, rus əsagiri Qafqaz qitəsini işğal etmişdir. Sair qafqazlılar ilə bahəm azərbaycanlılar da rus mətnətini qəbul edərək kəmali-sidq və ixlasi-qəlblə davranıb, yeri düşdükcə özünün hamıdan doğru və sadiq bir təbəə olmasını qalən və felən qəvi dəlillər ilə sübut etmişdir".***

1920-ci il 28 aprel işğalından sonra Azərbaycanda bir sıra tədbirlər həyata keçirilməyə başladı. Fəhlə-Kəndli Komitəsi yaradıldı. Fərhad Ağazadə bu komitənin və yeni türk əlifbası üzrə Azərbaycan Komitəsinin üzvü seçildi. O, komitənin işində həm elmi təşkilatda, həm də yeni əlifbaya aid nəzəri məsələlərin hazırlanmasında yaxından iştirak edirdi. "Ərəb əlif-

bası türk dilinə niyə yaramır?", "Yeni türk əlifbalarının unifikasiyası üzrə materiallar", "Azərbaycanda yeni türk əlifbasının inkişafı və həyata keçirilməsi tarixi", "Yeni türk əlifbasının tarixi" kimi əsərlər o dövrdə xüsusi əhəmiyyətə malik idi. Bunlardan başqa, F. Ağazadənin dilçiliyə aid "Türk-tatar dillərində səslərin nisbi münasibətini bilmək bizə nədən ötrü lazımdır?", "Yazı qaydalarında mümkün ixtisarlar məsələsinə dair" və s. məqalələri mühüm əhəmiyyət kəsb edirdi.

1929-cu il iyun ayının 26-da Fərhad Ağazadə ÜMYTƏK-nin genişləndirilmiş rəyasət heyətinin iclaslarında iştirak etmək üçün Mahac-qalaya ezam olunur və geri qayıdarkən yolda onun səhhəti pisləşir. Bundan sonra o, qida borusunun daralmasından əziyyət çəkməyə başlayır. Bir müddət Bakıda müalicə olunsa da, səhhətində irəliləyiş hiss olunmur. Müalicə həkiminin verdiyi 19 dekabr 1929-cu il tarixli arayışda onun təkrar ciddi müalicə olunmasının vacibliyi göstərilir. O dövrdə belə xəstəliklərin ən yaxşı müalicəsi Leninqrad Rentgen-Radioloji İnstitutunda aparılırdı. Bu məqsədlə müalicəsinə təşkilati və maddi yardım göstərilməsi xahişi ilə Fərhad Ağazadə 2 fevral və 9 mart 1930-cu il tarixli məktublarla ÜMYTƏK-nə müraciət edib.

1930-cu il martın 3-də Xalq Səhiyyə Komissarlığı Fərhad Ağayevin Leninqrad Rentgen-Radioloji İnstitutunda müalicəsinə kömək olunması xahişi ilə Leninqrad vilayət Səhiyyə Şöbəsinə teleqram vurur və beləliklə də maddi və təşkilati köməklik alan Fərhad Ağazadə Leninqrada müalicəyə gedir. O, martın 21-dən etibarən Leninqradda Rentgen-Radioloji İnstitutun cərrahiyyə şöbəsində müalicəyə başlayır, lakin cərrahi əməliyyat edilməsi təklifinə razılıq vermir. O, "həyatının ən nəcib dostu" adlandırdığı (ifadə onun 22 mart tarixli məktubundan götürülmüşdür) həyat yoldaşı Gövhər xanıma 2 ap-

rel tarixli məktubunda yazırdı: ***"Mən əməliyyata razılıq vermədim. Rentgen şüası ilə müalicə edəcəklər. Əgər vəziyyətim pisləşsə, çıxıb evə qayıdacağam".***

Bundan iki həftə sonra, aprelin 17-də o, Bakıya qayıdır, müalicə götürməsinə baxmayaraq, səhhətində yaxşılığa doğru heç bir irəliləyiş olmur.

Tanınmış pedaqoq, dilçi, jurnalist, yazıçı-publisist, nüfuzlu ictimai xadim, latın əlifbasının düşmənləri arasında belə, bu əlifbanın ən nəhəng nəzəriyyəçilərindən biri kimi qiymətləndirilən Fərhad Ağazadə 1931-ci il yanvar ayının 4-də gözlərini əbədilik yumur. Onun ölümü ilə əlaqədar "Kommunist" qəzetində verilən nekroloqda deyilirdi: ***"Ağazadə yoldaşın ən böyük xidmətlərindən birisi də onun yeni türk əlifbasının yayılması yolundakı mübarizəsidir. Türk əlifbasının yeni latın sisteminə keçirilmə məsələsi irəli atılan gündən Ağazadə yoldaş bunun böyük mədəni nəticələr verəcəyini nəzərə alaraq yeni əlifbanın qəbul edilməsi və yayılması yolunda aktiv mübarizəyə başlamışdır. Ümumittifaq Mərkəzi Yeni Türk Əlifba Komitəsinin üzvü olaraq Ağazadə yoldaş yeni əlifbanın bütün Şuralar İttifaqı türk, tatar xalqları arasında da yayılmasına çalışmışdır".***

Fərhad Ağazadə proqram, dərslik tərtibində, savadsızlığın ləğvi sahəsində misilsiz xidmət göstərib. Azərbaycan dilinin orfoqrafiyası elmi şəkildə ilk dəfə Fərhad Ağazadə tərəfindən işlənib. Mətbuat və maarif tariximizin sütunlarından sayılan Fərhad Ağazadənin xatirəsi ürəklərdə yaşayır, yazdığı dərsliklər, lüğətlər, kitablar bu gün də öz əhəmiyyətini itirməyib.

## ABDULLA BƏY MƏLİKASLANOV

***Elmin və dinin davamlılığı müəllimlərin və oxumuşların ixlası qəlblə varlığına bağlıdır. Bundan dəxi dünyanın dərk edilməsi kamilliyə doğru hərəkətdir.***

**A.Məlikaslanov**

Məlikaslanovlar Qarabağın tanınmış tayfalarından sayılır. Bu tayfadan bir sıra sanballı şəxsiyyətlər meydana çıxmışdır. Onlardan biri də 1880-ci ildə Şuşa qəzasının Tuğ kəndində anadan olmuş Abdulla bəy Kərim bəy oğlu Məlikaslanovdur. O, Tuğ kənd məktəbini bitirmişdir. Sonra təhsilini davam etdirərək Zaqafqaziya Müəllimlər Seminariyasında oxumuşdur. 1901-ci ildə buranı bitirmişdir.

1902-1910-ci illərdə əvvəl Şıxlar-Qərvənd (1901-1902), Gülablı (1902) ikisinifli məktəblərində müəllim, sonra isə Qarğabazar və Qubadlı kənd məktəblərində müəllim və müdir işləmişdir. Bir müddətdən sonra isə Horadiz kənd məktəbində dərs deyib. Sonra Zəngilan məktəbində, daha sonra 1916-ci ildən Qaraxanbəyli ikisinifli məktəbində müəllim və direktor vəzifələrində çalışmışdır. Onun kollec qeydiyyatçısı mülki çini vardı. Həmçinin III dərəcəli "Müqəddəs Stanislav" ordeninə layiq görülmüşdü. O, təhsilin mütərəqqi forma və metodlarından effektiv şəkildə istifadə edərək savadlı şagirdlər yetişdirirdi. Ona görə də səmərəli əməyi nəzərə alınaraq Sovet dönəmində Azərbaycan SSR əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. 1930-cu ildə isə SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Lenin ordeni ilə təltif edilmişdir. Qeyd etmək lazımdır ki, Lenin ordeni SSRİ-nin ən yüksək mükafatı idi və onu digər sahələrdə olduğu kimi, təhsildə ən yüksək nəticələrə nail olan müəllimlərə verirdilər.

Abdulla bəy Bilqeyis xanımla ailə qurmuşdu. Abbas bəy, Arif bəy, Kərim bəy adlı oğlanları, Suruş xanım, Şəfiqə xanım, Rəfiqə xanım, Balış xanım və Məhbubə xanım adlı qızları vardı. Məlikaslanovlar nəslindən olanlar indi də müstəqil Azərbaycanın inkişafında mühüm xidmətlər göstərməkdədirlər.

Abdulla bəy Məlikaslanov 1950-ci ildə yetmiş yaşında vəfat edib.

## AZAD BƏY ƏMİROV

***Müəllim harda olmasından asılı olmayaraq öz amalını həyata keçirməyə cəhd etməli, hər cəhətdən nümunəvi olmalıdır.***

**A.Əmirov**



İctimai xadim, müəllim, hüquqşünas Azad bəy Abbas oğlu Əmirov 1881-ci ildə Şuşa qəzasının Malıbəyli kəndində tacir ailəsində anadan olmuşdur.

Malıbəyli Məşədi Əlinin oğlanları Abbas, Əmir, Teymur, Süleyman və Salman Şuşa qalasında ticarətlə məşğul olurdular. Bu qardaşlar kəndin ilk sakinlərindən olan babalarının adını yaşatmaq üçün özlərinə Əmirov soyadını götürmüş-

dülər. Alış-verişdə Abbasın əli daha yaxşı gətirdiyindən dolanışığı da babat idi. Və ona görə də övladlarının hamısını – Azadı, Surxayı, Umbayı, Cavadı və qızı Fizzəni Şuşanın müxtəlif məktəblərində oxutdururdu. Böyük oğlu Azad şəhər məktəbini bitirmişdi. Hələ məktəb illərində onun müəllimləri Baxış bəy Köçərli, Mirzə Həsən bəy və Aslan bəy Əmirov onda məktəbə, müəllimliyə böyük həvəs oyatmışdılar. O, böyük həvəslə bu peşəni – müəllimliyi seçmişdi. 1900-cü ildə Şuşa şəhər məktəbini bitirən Azad bəy Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmaq məqsədi ilə Qori şəhərinə gəlir. İmtahanda yüksək nəticələr əldə etdiyindən dövlət hesabına yuxarı sinfə daxil olur və uşaqlıqdan tanıdığı həmyerlilərindən Üzeyir bəy Hacıbəyli, Abbas bəy İsmayılbəyov, Zülfüqar bəy Hacıbəyov ilə bir sinifdə oxumağa başlayır. Eyni zamanda həmyerliləri ilə birlikdə pansionatda yaşayır.

Azad bəy bu təhsil ocağında böyük həvəslə oxuyur, seminariyanın zəngin kitabxanasından səmərəli istifadə edirdi. Təhsil illərində yaxşı musiqi duyumu olduğundan musiqi dərslərində də həmişə əla qiymətlər alardı. Həmçinin skripka çalmağı da öyrənmişdi. O, seminariyanın simli orkestrində fəal iştirak edirdi.

1904-cü ildə seminariyanı bitirdikdən sonra təyinatla Gəncə Mixaylovsk sənət məktəbinə göndərilir. Elə həmin ilin yayında Şuşada istirahət edən Azad bəy Qori seminariyasının direktoru Mixail Alekseyeviç Miropyevdən məktub alır. Məktubda onu Təbrizdə yeni nümunəvi təhsil ocağı kimi açılacaq rus məktəbində pedaqoji fəaliyyət göstərməyə dəvət edir.

Xalqını sevən, onun maariflənməsi istiqamətində öz səyini, öz bilik və bacarığını əsirgəməyən, usanmadan sərf edən Azad bəy məktubu belə cavablandırır: ***"...Sizin çox müqəddəs olan istəyinizə uyğun olaraq hansı şəraitdə olursa-olsun, si-***

***zin maarifçilik fəaliyyətinizin yolunda mən də tam hazır olduğumu bildirirəm....”***

Azad bəy Əmirov Gəncəyə gəldiyi gündən bir müəllim kimi burada yaşayıb fəaliyyət göstərən tanınmış ziyalılar və pedaqoqlarla birlikdə ədəbi mühitin inkişafında, formalaşmasında da fəal iştirak edirdi.

Pedaqoji fəaliyyəti dövründə o, seminariyada qazandığı mütərəqqi üsullarla bütün bilik və bacarığını kadr hazırlığına yönəldirdi. Lakin 1905-ci ildə ağır kazarma rejimi ilə bağlı məktəblərdə ana dili tədris planlarından çıxarıldı. Müəllim və şagirdlər üçün bir çox qadağalar qoyuldu ki, bütün bunlar da 1905-ci ilin fevralında məktəb şagirdlərinin inqilabi nümayişlərinə səbəb oldu. Bu hərəkatda iştirak edən müəllim və şagirdlər cəzalara məruz qaldılar. Həbs olunanlar, sürgün edilənlər oldu, həmçinin başqa növ cəzalar da verildi. Sibirə sürgün olunanlar arasına məktəbin şagirdi Məmməd Məmmədov (“Qatır Məmməd”) da var idi. Xristian olmadığı üçün Azad bəy Əmirovun isə yuxarı siniflərdə pedaqoji fəaliyyətinə qadağa qoyuldu.

Azad bəy gələcəkdə təhsilini davam etdirmək üçün 1908-ci ildə öncədən imtahan verərək Gəncə gimnaziyasının diplomunu aldı. Ancaq o, hələ ali məktəbə girməmiş iki il müəllimlik fəaliyyəti ilə məşğul oldu.

Daim yaşadığı dövrün haqsızlıqları ilə üzləşən Azad bəy özünün və xalqının hüquqlarını bilməsi və onun qorunub-saxlanılması üçün hüquqi biliklərin vacib olduğunu dərk edirdi. Məhz buna görə də o, 1910-cu ildə Odessa universitetinin hüquq fakültəsinə daxil oldu. Lakin 1914-cü ildə I Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq o, dövlət imtahanlarını Moskvada verdi və 1915-ci ildə Moskva universitetinin hüquq fakütəsini birinci dərəcəli diplomla bitirdi. Universite-

tin rəhbərliyi, müəllim kollektivi bu bacarıqlı gənci univeritetdə saxlamaq istədilər. Lakin müsəlman dininə mənsub olması yenə də ona mane oldu. Universitet rəhbərinin "Xristian dininə mənsub olmayanların hüquq fakültəsində elmi işçi kimi saxlanması üçün birinci şərt onların xristianlığı qəbul etmələridir" sözlərinə qarşı Azad Əmirov belə cavab verdi: "Mən heç vaxt dindar olmamışam və hər hansı bir dini insanın həyatında biabırçı və alçaq əsarət vasitəsi hesab etməmişəm." Bu sözləri dedikdən sonra rektorun otağını tərk edən Azad bəy Şuşaya qayıtdı və bir müddət müəllimlik elədi. 1917-ci ildə ali təhsilini davam etdirmək məqsədilə Odessa universitetinin tibb fakültəsinə daxil oldu.

1917-1918-ci illərdə Rusiyada baş verən siyasi proseslərin nəticəsində bir çox tədris müəssisələri, o cümlədən də, Odessa universiteti bağlandı. Bu səbəbdən Azad bəy təhsilini yarımçıq qoyub, vətənə qayıtmalı oldu və müəllimlik fəaliyyətini davam etdirdi.

Azad bəy 1918-ci ildən Bakıda yaşamış və maarif komissarlığında ibtidai məktəblər şöbəsinə rəhbərlik etmişdir. Sonralar o, öz ərizəsi ilə işdən azad edilmiş və evdə xüsusi dərs verməklə məşğul olmuşdur.

Adətən, yay mövsümlərində Şuşada çox maraqlı tədbirlər, teatr tamaşaları, musiqi məclisləri təşkil edilirdi. Çünki harda fəaliyyət göstərmələrindən asılı olmayaraq həmin mövsümdə ziyalılar doğma vətənləri Şuşaya gəlirdilər. Onların birgə səyi nəticəsində burada Azərbaycan, rus, Avropa dramaturqlarının əsərləri tamaşaya qoyulurdu. Qiraət axşamları, ədəbi-bədii gecələr, müzakirələr və bu kimi tədbirlər keçirilirdi. Həmin tədbirlərin əsas təşəbbüskarları və təşkilatçıları Əbdülkərim bəy Mehmandarov, Əbdürrəhim bəy Haqverdiyev, Hə-

midə xanım Cavanşir, Zülfüqar bəy Hacıbəyov, Azad bəy Əmirov kimi ziyalılar idi.

Müəllimlik sənətinin vurğunu olan Azad bəy gözəl səsə, musiqi və aktyorluq qabiliyyətinə malik idi. O, 1912-ci ilin yay mövsümündə Şuşada "O olmasın, bu olsun" musiqili komediyasını tamaşaya qoymuşdu. Bu tamaşada özü Məşədi İbad rolunu ifa edirdi. Üzeyir bəy öz xatirələrində Məşədi İbad rolunun Azad bəyin ifasında çox uğurlu alındığını söyləmişdi.

1914-cü ilin yayında Şuşada "Arşın mal alan" operretası da ilk dəfə tamaşaya qoyulurdu. Əsas rollarda Azad bəy Əmirov, Hüseynqulu Sarabski, Əhməd Bədəlbəyli-Ağdamski, Məşədi Cəmil Əmirov oynayırdılar. Həmin günlərin birində Azad bəy Əmirovun şərəfinə Zülfüqar bəy Hacıbəyovun dirijorluğu və H.Sarabski ilə Əbülfət Vəlinin rejissorluğu ilə "O olmasın, bu olsun" operettası da səhnəyə qoyuldu. Yenə də Məşədi İbadı Azad bəy Əmirov, Gülnazı isə Əhməd Bədəlbəyli-Ağdamski oynayırdı. Azad bəy Əmirov komik rollarla yanaşı, dramatik rolları da məharətlə ifa edirdi. O, Nəcəf bəy Vəzirovun və Əbdürrəhim bəy Haqverdiyevin bir sıra əsərlərində müxtəlif xarakterli obrazlar yaratmışdı.

Ziyalıların bu cür birgə fəaliyyəti nəticəsində Qarabağın mədəni həyatı daha da zənginləşirdi. Xalqına, mədəniyyətinə və musiqisinə dəyər verən Azad bəy Əmirov 1918-ci ildə "Leyli və Məcnun" operasının 10 illiyi münasibətilə Üzeyir Hacıbəyova yazdığı məktubda onun Azərbaycan tarixindəki mühüm rolunu çox böyük uzaqgörənliklə göstərmişdi: ***"Vaxt gələcək, tarix, yalnız ədalətli tarix özünün ehtiyatlı əli ilə öz səhifələrində müsəlman həyatındakı bu misilsiz, müstəsna hadisəni qızıl hərflərlə yazacaq və sənin, əziz Üzeyir, əzabkeş millətinin fərəhsiz həyatına çox zəngin xəzinə, nadir inci ki-***

***mi bəxş etdiyin gözəl, ilahiləşdirilmiş cərəyanı xüsusi qeyd edəcək".***

1920-ci ildə Üzeyir bəyin təkidi ilə Azad bəy Əmirov təcrübəli bir müəllim kimi maarif komissarlığında pedaqoji məktəblər şöbəsinin müdiri təyin edildi və sonra baş inspektor vəzifəsinə keçirildi. Burada işlədiyi müddət ərzində Azərbaycan məktəbləri üçün dərsliklər tərtib edən komissiyanın üzvü seçildi. İlk dəfə olaraq məktəblərdə rus dilinin tədrisi proqramını hazırladı. Respublikanın bir çox qəzalarında müəllim kurslarının, Bakıda oğlan və qız pedaqoji texnikumlarının təşkili bilavasitə onun səyi və rəhbərliyi ilə həyata keçirildi. Qısa müddət ərzində o, Bakıda 17 qadınlar kursu, orta və ali təhsil ala bilməyən, yaşı ötmüş adamlar üçün xüsusi kurslar açdı, kəndli gənclər üçün məktəblərin əsasını qoydu. Qusarda yetim uşaqlar üçün R.Lüksemburq adına əmək koloniyası və birinci dərəcəli məktəb təsis etdi. Bununla belə, Azad bəy Əmirovu yarımçıq qalmış tibb təhsili də düşündürürdü. Ona görə də o, ali təhsilini tamamlamaq üçün Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə daxil olaraq 1925-ci ildə oranı müvəffəqiyyətlə başa vurdu. Bir müddət həmin fakültənin fiziologiya kafedrasında laborant və assistent işlədi. 1930-cu ildən isə ömrünün sonunadək V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fiziologiya kafedrasının müdürü, eyni zamanda Bakı Pedaqoji Texnikumunda, hərbi məktəbdə, fəhlə fakültəsində, Diş Həkimləri İnstitutunda, Azərbaycan Xalq Maarifi Kadrlarının Təkmilləşdirmə İnstitutunda müəllim, məsləhətçi və dekan vəzifələrində çalışdı. 1932-ci ildən isə Azərbaycan Dövlət Tibb İnstitutunun fiziologiya kafedrasında Azərbaycan və rus dillərində mühazirələr oxudu. Ali məktəbdə fiziologiya kursu üzrə ilk dəfə Azərbaycan dilində mühazirə oxuyan məhz Azad bəy Əmirov olmuşdur. Həmin

illərdə o, zəngin və çox əhatəli elmi fəaliyyət göstərir, elmi-tədqiqat işləri ilə də məşğul olurdu. Azad bəy fiziologiyaya aid bir sıra maraqlı elmi əsərlər və bu fənnin tədrisi metodikası üzrə dəyərli bir kitab da yazmışdır. Təsadüfi deyil ki, onun elmi uğurlarından xəbər tutan rus fiziologiya məktəbinin banisi, Nobel mükafatı laureatı İvan Petroviç Pavlov tələbəlik dostu İbrahim bəy Mehmandarov vasitəsilə Azad bəylə tanış olmuş, müntəzəm əlaqə saxlamışdır. Elmdə qazandığı nailiyyətlərə görə 1936-cı ildə Azərbaycan SSR Maarif Komissarlığının Dövlət Elmi Şurası Azad bəy Əmirova professor adı vermiş və respublikanın maarif və mədəniyyətinin inkişafındakı böyük xidmətlərinə görə isə o, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin Fəxri fərmanı ilə təltif edilmişdir.

1939-cu ildə Azərbaycanın fəxri olan, əsl ziyalı adını daşıyan, heç vəchlə ölümü yaxına qoymayan, yaşamaq – yaratmaq səyi ilə yorulmadan çalışan Azad bəy Əmirov gözlənilmədən dünyasını dəyişdi. Azad bəy Əmirovun dəfn mərasimi izdihamlı xalq nümayişinə çevrildi. Onun cəsədini V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun binasından son mənzilədək tələbələr, həkimlər, digər ziyalılar öz çiyinlərində apardılar.

Azad bəyin işləmək, vətənə, xalqa xidmət etmək həvəsi, həyata keçirmək istədiyi planları var idi. Görkəmli içtimai xadim, nəcib insan, namuslu vətəndaş və böyük ehtirasla çırpınan ürək sahibi şəxsi söhbətlərində dəfələrlə deyirdi ki, mən ölməzdən əvvəl vəsiyyət edəcəyəm məni dəfn etməsinlər, meyidimdən skelet hazırlayıb Kəlbəcərə göndərsinlər. Qoy şagirdlər, tələbələr bu skeletdən istifadə edib, anatomiya və fiziologiyanı daha yaxşı, mükəmməl öyrənsinlər.

Bir daha buradan aydın olur ki, zəngin və çoxcəhətli fəaliyyətə malik Azad bəy Əmirov, sözün həqiqi mənasında, müəl-

lim doğulmuşdu. O, ölümünün belə amansız olacağını gözləmirdi, elə qəfildən vəfat etdi ki, heç bir kəsə vəsiyyət də edə bilmədi, hətta həyat yoldaşı ilə belə, vidalaşa bilmədi. Gül-çiçəklər içərisində ən çox qərənfili, xüsusilə, qırmızı qərənfili sevirdi. Deyərdi ki, qərənfil sanki insanı qaynar həyata, əməyə çağırır. Onu əhatə edən insanlarda, əşyalarda, hətta çiçəklərdə də yaşamaq həvəsi duyurdu. Azad bəy Əmirovun parlaq siması və əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

## ABBAS BƏY İSMAYILBƏYOV

***Məktəb yalnız savadlanmaq deyil,***
***həm də uşaqların rifah halı üçün isti***
***ocaqdır. Bu ocağı idarə edən hər kəsin***
***həssaslığı, sayıqlığı və qayğısı***
***onu qorumağa yetər.***

**A.İsmayılbəyov**

Abbas bəy Ağalar bəy oğlu İsmayılbəyov 1883-cü il sentyabrın 16-da Şuşa qəzasının Abdal kəndində əsl bəy ailəsində dünyaya gəlmişdir.

Abbas bəy məşhur Qacarlar nəslindəndir, şahzadə Bəhmən Mirzənin nəvəsidir. O, ibtidai təhsilini kəndlərindəki rus-tatar məktəbində almışdır. 1895-ci ildə dayısı, rus ordusunun polkovniki Seyfulla Mirzə Qacar on iki yaşlı bacısı oğlunu Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına oxumağa aparıb. Abbas bəy əvvəlcə seminariyanın nəzdindəki ibtidai tatar şöbəsini bitirmiş, sonra çətin müsabiqə imtahanları verərək



bu tədris ocağına qəbul olunmuşdur. Bir il burada oxuduqdan sonra, 1899-cu ildə yuxarı hazırlıq sinfinə keçmişdir.

Təhsil illərində gənc Abbas gələcəkdə bir pedaqoq kimi yetişmək üçün bütün səy və bacarığını sərf edirdi. Demokratik ruhlu müəllimlərdən dərs alması, açıqfikirli tələbələrlə oturub-durması dövrün ictimai-siyasi həyatından baş çıxarmağa, dünyagörüşünün inkişafına kömək edirdi. Ədəbiyyat, rus dili, pedaqogika dərsləri xüsusilə onun ən çox sevdiyi və meyl göstərdiyi fənlər idi. Seminariyada sınaq dərslərindən uğurla çıxması, dərin zəkası, iti hafizəsi, həyata hazırlığı onun gələcəkdə istedadlı bir pedaqoq olacağına müəllimlərində dərin inam yaratmışdı.

1904-cü ilin yayında xalq müəllimlərinin hazırlanmasında, Azərbaycan maarifinin inkişafında ölçüyəgəlməz xidmətləri olan Zaqafqaziya Müəllimlər Seminariyasını dörd nəfər şuşalı gənc bitirdi ki, onların arasında Abbas bəylə beş il birgə təhsil alan Üzeyir bəy Hacıbəyli, Azad bəy Əmirov, Zülfüqar bəy Hacıbəyov kimi gələcəyin görkəmli maarif xadimləri də var idi.

Gənc Abbas təhsilini bitirmək haqqında şəhadətnamə aldı və ibtidai məktəb müəllimi kimi Qarabağın Ləmbəran kəndi-

nə göndərildi. Dövlət hesabına oxuduğuna görə o, ən azı, beş il burda işləməli idi.

Gənc müəllim Ləmbərana işləməyə gələndə kənd məktəbi çox acınacaqlı bir vəziyyətdə idi. O, az müddətdə məktəbi qaydaya salıb səliqə-sahman yaratdı və Lənbəran kənd məktəbini nümunəvi məktəbə çevirdi. Sonralar yeni məktəb binası tikdirdi, kənd camaatının dərd-sərinə şərik çıxdı, xeyirlərində, şərlərində bir ata, bir oğul, bir qardaş kimi yaxından iştirak etdi. Bununla da şagirdlərinin və kənd əhlinin qəlbində özünə əbədi yuva qurdu, onların dərin rəğbətini qazandı. Sonralar Abbas bəy yeni məktəb binası tikdirdi. Abbas bəyin kənd əhalisi ilə mehribançılığı, onların qayğıları ilə yaşaması kənd əhlinin məhəbbətini qazandı.

Ancaq iki ildən sonra Abbas bəyi bərbad vəziyyətdə olan Ağdam kənd məktəbinə dəyişdirdilər. Onun pedaqoji fəaliyyətinin ən parlaq səhifələri də elə burada yazıldı. Uzun illər bu məktəbdə çalışdı, bu təhsil ocağını qabaqcıllar sırasına çıxardı. Onun müdir olduğu məktəbin (indiki Ağdam şəhər 1 nömrəli orta məktəbi) səsi-sorağı hər yerə yayıldı, adı maarif dairələrində tez-tez qeyd edildi. Abbas bəyin səyi sayəsində məktəbdə şagirdlərin sayı da artdı, bir çox təcrübəli müəllimlər bu məktəbə cəlb olundu. El arasında deyildiyi kimi, "Abbas bəyin məktəbi"ndə təkcə ağdamlı uşaqlar yox, həm də ətraf yerlərdən – Seyidli, Ətyeməzli, Qiyaslı, Muradbəyli, Sarıhacılı, Əfətli kəndlərindən gələn şagirdlər də təhsil alırdı.

Abbas bəy düz iyirmi il Ağdam məktəbinin direktoru işlədi. Bu dövr ərzində o, ibtidai kənd məktəbini ikisinifli məktəbə çevirdi, təhsil müddətini beş ilə qaldırdı. O, məktəbdə şəriət dərsləri ilə yanaşı, hesab, nəğmə, əmək təlimi, rəsm, Azərbaycan dili dərslərinə də xüsusi fikir verir, bu fənlərin yüksək səviyyədə keçirilməsinə ciddi nəzarət edirdi. Bacarı-

ğı, işgüzarlığı ilə tanınan müəllim sonralar məktəbi daha da genişləndirdi. Onu əvvəlcə yeddiillik, sonra isə orta məktəb səviyyəsinə çatdırdı. Abbas bəy bu işləri həyata keçirmək üçün İdris Ağamirzəyev, Mirzə Davud Ağamirzəyev, Əli İbrahimov, Məhiş Hüseynov, Yəhya Şeyda Qarabaği və o dövrün bir çox tanınmış görkəmli maarif xadimlərini ətrafına topladı, onların yaxından köməkliyi sayəsində məktəbi Azərbaycanın ən nümunəvi və qabaqcıl təlim-tərbiyə ocaqlarından birinə çevirdi.

Abbas bəy İsmayılbəyov Ağdam məktəbinin direktoru işlədiyi dövrdə qonşu Muradbəyli kəndində yetimlər evi də təşkil etmiş və böyük ədibimiz Əbdürrəhim bəy Haqverdiyevin həyat yoldaşı Tükəzban xanımı ora müəllim göndərmişdi. Xeyirxah pedaqoq tez-tez yetimlər evinə baş çəkir, bacarığı və qabiliyyəti olan kasıb və yetim uşaqları seçib-arayır, onların gələcək təhsilləri ilə yaxından maraqlanırdı. 1911-ci ildə Müsavat partiyası yaradılarkən onun ilk üzvlərindən biri də Abbas bəy İsmayılbəyov olmuşdu. Partiyanın Qarabağ şöbəsinin üzvləri tez-tez Abbas bəyin evinə toplaşır, Azərbaycan xalqının müstəqil inkişaf yollarını arayıb-axtarırdılar.

1918-ci ildə erməni-müsəlman davası başlananda Abbas bəy İsmayılbəyov Qarabağın hörmətli ağsaqqallarından olan Məhəmməd ağa Müctəhidzadə və başqa şəxslərlə birlikdə hərbi yardım üçün Türkiyəyə göndərildi. Məhz onların şəxsi inadkarlığı və iştirakı ilə türk ordusu Qarabağa yeridildi. Abbas bəy türk qoşunlarının müxtəlif yerlərdə yerləşdirilməsində, onların ərzaqla təmin olunmasında bütün qüvvə və bacarığını sərf edirdi. O, bir dəstə türk zabitini işlədiyi məktəbdə və Abdaldakı evində yerləşdirdi, evinin birinci mərtəbəsini isə silah anbarına çevirdi. O, qardaşı Həsən bəylə birlikdə əlinə silah götürüb, ermənilərə qarşı vuruşur, eyni zamanda

məşhur el məzhəkəçisi Abdal Qasımla Şuşaya müntəzəm olaraq silah göndərirdi. Həsən bəy döyüşlərin birində həlak oldu. Abbas bəy millət yolunda göstərdiyi şəxsi igidliklərə görə sonralar Türkiyə Respublikasının Atatürk medalı ilə mükafatlandırıldı.

İyirminci illərdə Abbas bəy İsmayılbəyovun xalq təhsili sahəsində təşkilatçılıq qabiliyyətini və bacarığını nəzərə alaraq onu Ağdam rayon Xalq Maarif Şöbəsinə inspektor vəzifəsinə irəli çəkdilər. Bacarıqlı təşkilatçı müəllim bu vəzifədə işləyəndə də tez-tez rayonun kənd məktəblərinə gedir, yeni təhsilin necə qurulduğu ilə müntəzəm maraqlanırdı. Həmin illərdə onun təşəbbüsü ilə Muradbəyli kəndində qız məktəbi və ikinci dərəcəli oğlan məktəbi açılmışdı. İbtidai savadı olanlar bu məktəblərdə öz təhsillərini davam etdirə bilərdilər.

İyirminci illərin repressiya küləyi Abbas bəyin də qapısını döydü. Milliyyətcə erməni olan Camxarov familiyalı birisinin "sifarişi ilə" vaxtilə ermənilərə qarşı vuruşduğuna və köhnə müsavatçı olduğuna görə 1927-ci ildə onu qırx nəfər azərbaycanlı ziyalı ilə birlikdə yeddi il müddətinə Arxangelsk vilayətinə sürgün etdilər. 1934-cü ildə o, üzüntülü, əzablı sürgün həyatını başa vurub qayıtdı. Bir il Bakıda müəllimlik elədi, sonra isə vətəninə döndü. Ağdam şəhər 2 nömrəli məktəbdə rus dilini tədris etməyə başladı.

Dövrünün tanınmış müəllimləri sırasında adı həmişə hörmət və məhəbbətlə çəkilən Abbas bəy İsmayılbəyov ömrünün sonuna – 1940-cı il oktyabrın 20-nə kimi xalq maarifi sahəsində yorulmadan çalışmış, bütün həyatını balaların təlim-tərbiyəsinə həsr etmişdir. Ağdam şəhər 1№-li məktəb Qarabağda Abbas bəyin məktəbi kimi tanınırdı. Ümidvarıq ki, Ağdamın mərkəzinə qayıdışdan sonra Abbas bəyin məktəbi ye-

nidən bərpa olunacaq və bu böyük şəxsiyyətin adını daşıyaraq layiqli ənənələrini uğurla davam etdirəcək.

## AĞALAR BƏY HACIBƏYOV

***Hər bir təhsilli insan yaşadığı zəmanəyə uyğun olmalıdır.***

**A.Hacıbəyov**

Ağalar bəy Məhəmməd bəy oğlu Hacıbəyov 1883-cü ildə Şuşa şəhərində anadan olmuşdu. O, ilk təhsilini evdə xüsusi müəllimdən almış, sonra isə rus-tatar məktəbində oxumuşdur. Ağalar bəy görkəmli maarifpərvər, ictimai xadim Firidun bəy Köçərlinin bacısı oğludur.

Təhsilini davam etdirmək üçün dayısının məsləhəti ilə Zaqafqaziya Müəllimlər Seminariyasına imtahan verərək bura daxil olmuşdur. Seminariyanı bitirdikdən sonra Ağalar bəyi Zəngəzur qəzasının Şəki kəndinə müəllim təyin etmişlər. Bir müddətdən sonra isə onu Zəngəzur qəzasının Saray kəndinə göndərmişlər. Hər iki kənd məktəbində yüksək göstəricilərlə işləmiş və şagirdlərinə elmin qapısını açmaqla işıqlı yol göstərmişdir. Ağalar bəyin rus-tatar məktəbinin açılmasında da böyük xidmətləri olmuşdur.

A. Hacıbəyov istər ticarət işlərində, istərsə də xaricdə təhsil almağında rus dilinin böyük rol oynadığını bildiyindən məktəblərdə bu dilin öyrənilməsinə xüsusi fikir verirdi. O, uzun müddət rus-tatar məktəbinin direktoru vəzifəsində işləmişdir. İşlədiyi müddət ərzində bir çox bacarıqlı müəllimlərin yetişdirilməsi üzrə səmərəli fəaliyyəti ilə diqqəti cəlb etmişdir.

O, eyni zamanda təlim-tərbiyə işində böyük əhəmiyyət kəsb edən proqram və dərsliklərin hazırlanmasına da böyük əhəmiyyət verirdi. Bu da məlumdur ki, bir neçə ildən sonra Ağalar bəy N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna dəvət alır. O, bu dəvəti qəbul edərək Bakıya gəlir və burada pedaqoji fəaliyyətə başlayır. A. Hacıbəyov uzun müddət həmin institutda müəllimlik edir.

## İBRAHİM SƏFƏROV

***Musiqi ruhun, rəsm gözün qidasıdır.***
**İ.Səfərov**

İbrahim Hacı oğlu Səfərov 1885-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini Şuşada mollaxanada almışdır. Sonra təhsilni dünyəvi məktəbdə davam etdirmişdir. Ona dövlət tərəfindən "bəy" titulu verilmişdir.

İbrahim Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil almışdır. Seminariyanı bitirdikdən sonra Bakı şəhərində birinci real məktəbində müəllim işləmişdir. İşlədiyi illər ərzində yaradıcı müəllim kimi fərqlənmiş, müxtəlif mükafatlara layiq görülmüşdür.

O, müntəzəm olaraq şagirdlərinin elmi biliklərə yiyələnmələrini tövsiyə etməklə yanaşı, lazımi bilik və bacarıqlara yiyələnmələrini də zəruri sayırdı. Onlara musiqinin, rəsm çəkmənin öyrənilməsinin vacibliyini də izah edirdi. Ədəb qaydalarını öyrədər, insanlara qarşı ədalətli və humanist olmaq, habelə mədəni davranış qaydaları haqqında söhbət apardı. Şagirdlərinin ona böyük dost kimi yanaşmaları da məhz bu səbəbdən idi. Ədəbiyyata və poeziyaya böyük marağı olan

İbrahim yayda Şuşaya gələrkən Şuşanın mədəni və ictimai həyatında yaxından iştirak edir, zəruri tədbirlərin həyata keçirilməsinə nail olurdu.

## MİRZƏ VƏLİ İSMAYILOV

***Dost ömür yolunda səninlə birgə yürüyən həmdaşındır.***

**M.V.İsmayılov**

Mirzə Vəli İsmayılov 1885-ci ildə Şuşa qəzasının Rəncbərlər kəndində anadan olmuşdur. İbtidai təhsilini kənd müəllimi Seyid Mir Qədir ağadan alıb. Bu məktəbi bitirdikdən sonra isə o, 1902-cü ildə Zaqafqaziya Müəllimlər Seminariyasına qəbul üçün Qoriyə getmişdir.

1907-ci ildə seminariyanı bitirən Mirzə Vəli Qubada ikisinifli rus-tatar məktəbinə rus dili müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır. Üç il burada işlədikdən sonra onu Bakıda real məktəbinə müəllim təyin ediblər. Məktəbdə işlədiyi dövrə Mirzə Vəli "Kaspi" qəzeti ilə əməkdaşlıq etmişdir. O, həmçinin Hacı Zeynalabdin Tağıyevin kontorunda rus dili üzrə məktublar şöbəsində mirzə işləmişdir.

1918-ci ilədək Bakıda yaşayıb-işləyən Mirzə Vəli Qarabağa qayıdaraq Şuşa və Ağdam inqilab komitələrində çalışıb və ömrünün sonunadək müəllimlik edib. Şagirdlərinə daim qayğı ilə yanaşır, onlarda elmə, təhsilə maraq oyadırdı. Müvafiq metodlar tətbiq etməklə şagirdlərinin gələcək yolunu işıqlandıran Mirzə Vəli onların valideynləri tərəfindən də sevilirdi. Mirzə Vəli İsmayılovun Üzeyir bəylə müntəzəm dostluq əla-

qələri olub. Buna görə də Üzeyir bəy saatını və eynəyini ona hədiyyə edib, oğlu Ənvərə isə tar göndərib.

Kənd əhlinin sevimlisi, maarif ocağının nuru, yaradıcı müəllim kimi şagirdlərinin qəlbində məhəbbətə layiq yer tutan Mirzə Vəli İsmayılov 1960-cı ildə 75 yaşında doğma kəndi olan Rəncbərlərdə dünyasını dəyişib.

## ÜZEYİR BƏY HACIBƏYLİ

***Yüksək təbii sənət yalnız o zaman ümumxalq malı ola bilər ki, bu sənətin ən gözəl və ən istedadlı ifaçıları olsun.***

**Ü.Hacıbəyli**

XIX əsrin sonlarında fitri istedadı, çoxşaxəli yaradıcılığı ilə Ümumdünya şöhrəti qazanmış dahi bir insan – Üzeyir bəy Hacıbəyli Azərbaycana bəxş edilmiş bir dühadır.

Üzeyir bəy Hacıbəyli 1885-ci il sentyabrın 18-də Şuşa şəhərində anadan olmuşdur.

Anası Şirinbəyim Xurşudbanu Natəvanla süd bacısı idi. Atası Əbdülhüseyn 1842-ci ildə Şuşa şəhərində anadan olub, mədrəsə təhsili alıb. Şirinbəyim xanımın Əbdülhüseyn Hacıbəyovla evliliyindən beş övladı olub: Sayad, Abuhəyat, Zülfüqar, Üzeyir və Ceyhun.

Üzeyir bəy Hacıbəyli ilk təhsilini Şuşada ikiillik rus-tatar məktəbində almış və burada rus dilini mükəmməl öyrənmişdi. Oxuduğu müddət ərzində Şərq, Avropa və rus yazıçı və şairlərinin yaradıcılığı ilə yaxından tanış olmuşdu.



1899-cu ildə on dörd yaşlı Üzeyir Qori seminariyasına gedir. O, imtahan sınaqlarından uğurla çıxaraq seminariyaya qəbul olunur.

Qori seminariyası, əsasən, ümumtəhsil məktəbləri üçün müəllim hazırlayırdı. Burada müxtəlif fənlərlə yanaşı, musiqi dərsləri də keçilirdi. Musiqi sahəsində fitri istedada, musiqi qavrama qabiliyyətinə malik olan Üzeyir seminariyada üç musiqi alətində (skripka, violonçel, bariton) çalmağı öyrənmişdi.

O, tələbələrdən ibarət orkestrin üzvü kimi də çalışmış, orkestrin solisti olmuşdur, hətta ikinci, üçüncü səslə oxumuşdur. Çox gözəl səsə malik olan Üzeyir həm müəllimlər, həm də dostları tərəfindən sevilirdi. O, not sistemini və musiqi nəzəriyyəsini mükəmməl öyrəndikdən sonra hələ təhsil illərində bir sıra xalq mahnılarını da nota salmışdı. Seminariyada birgə oxuduğu, gələcək bəstəkar Müslüm Maqomayevlə tanışlığı da dostluğa çevrilmişdi.

Qori Müəllimlər Seminariyasında Ü.Hacıbəyli həm də bədii yaradıcılıqla məşqul olurdu. O, şeir, hekayə, povest yazar, tərcümələr də edərdi. Seminaristlər arasında "Tatar şairi" adı ilə məşhur olmuşdu.

1904-cü ildə Üzeyir bəy Hacıbəyli Qori Müəllimlər Seminariyasında təhsilini uğurla başa vurur. Onu Hadrut kəndin-

dəki məktəbə müəllim təyin edirlər. Bir il kənd məktəbində rus dili və musiqidən dərs dedikdən sonra erməni-müsəlman davası düşür. Kəndin dünyagörmüş sakinləri bu istedadlı gənci qorumaq məqsədilə gecəykən at belində Şuşaya göndərirlər. Sonra o, Bakıya gəlir. Yenidən pedaqoji fəaliyyətə başlayır. Bibi-Heybətdəki fəhlə-gənclər məktəbində neft mədənlərində çalışan fəhlə balalarına dərs deyir (1905-1907). Deyilənə görə onun yaşadığı yerlə məktəb arasında 10 kilometrlik məsafə var imiş. Bu istiqamətdə nəqliyyat olmadığından Üzeyir bəy hər gün bu məsafəni piyada qət etməli olurdu. Xalqını, millətini sevən bu gənc müəllim öz vətən övladlarına savad öyrətmək üçün hər cür çətinliyə dözür, bu yolu min bir əziyyətlə qət etməkdən yorulmurdu, usanmırdı.

1907-ci ildə el atası, mesenant Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Bakıda yaradılan "Səadət" xeyriyyə cəmiyyətinin tərkibində "Səadət" adlı bir məktəb açılır. Bu məktəbin müdiri maarifpərvər Əli bəy Hüseynzadə idi. 1908-ci ildə Üzeyir bəy Əli bəyin təklifi ilə həmin məktəbə dəvət alır. O, burada ana dili, hesab, coğrafiya, rus dili və musiqi fənlərini tədris edirdi. Eyni zamanda həmin fənlərin tədrisini asanlaşdırmaq məqsədilə birinci və ikinci şöbələrin şagirdləri üçün "Hesab məsələləri" adlı dərslik tərtib etmiş, "Türk-rus, rus-türk" lüğətini hazırlamışdı. Bu kitabların nəşri məktəbdə dərslərin lazımi səviyyədə aparılmasına müsbət təsir göstərirdi.

Üzeyir bəy Hacıbəyli müəllimliklə bərabər həm də mühərrirlik edir, müxtəlif qəzet və jurnallarda bir-birindən maraqlı məqalələr, satirik hekayələr yazıb nəşr etdirirdi. Həmin məqalələrdə müəllimlər qarşısında mühüm vəzifələr qoyur,

onları gənc nəslin təlim və tərbiyəsində məsuliyyətli olmağa çağırırdı.

Üzeyir Hacıbəyli Azərbaycan müəllimlərinin I və II qurultaylarında (1906-1907) iştirak etmişdir. Bu qurultaylardan sonra yazdığı məqalələrdə o, belə bir fikri xüsusi olaraq diqqətə çatdırırdı: ***"Müəllim dərin biliyə, savada malik olmalı, xalqı irəliyə və tərəqqiyə doğru aparmağı bacarmalıdır. Müəllimin səviyyəsi yüksək olmalıdır. Harada dərs deməyindən asılı olmayaraq, istər ucqar bir kənd, istərsə şəhər olsun, müəllim xalqı yüksəltməli, səviyyəsini artırmalı və mədəniləşdirməlidir".***

Daim xalqın maariflənməsinə çalışan Üzeyir bəy Hacıbəyli pedaqoji fəaliyyətlə, mühərrirliklə yanaşı, musiqi əsərləri yazmaq haqqında da düşünürdü. Hələ 13 yaşı olarkən Şuşada həvəskar aktyorlar tərəfindən səhnələşdirilən "Leyli və Məcnun" əsərindən kiçik bir səhnəciyə baxandan sonra bu əsərin musiqi ilə uyarlılığı haqqında düşünürdü. Buna görə də bir bəstəkar kimi fəaliyyət göstərdiyi illərdə bu əsəri operaya çevirmək arzusu "Leyli və Məcnun" operasının yaranmasına səbəb oldu. Beləliklə, o, 1908-ci ildə Azərbaycanın görkəmli şairi Məhəmməd Füzulinin eyniadlı poeması əsasında ilk Azərbaycan operasını "Leyli və Məcmun"u yaratdı. Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasında qəzəllərin daha çox hiss, həyəcan oyatma imkanlarının genişliyi, həmçinin ritmik və ahəngdarlıq baxımından musiqiyə uyğunluğu bəstəkarın diqqətini cəlb etmiş və dünyaca məşhur milli operasını yaratmışdır. Bu əsərdə o, Qərb və Şərq musiqi üslublarının sintezindən məharətlə istifadə etdi. Belə ki, burada istifadə olunan xalq musiqisinin elementləri klassik Avropa ənənələrinə uyğunlaşdırılmışdır. Burada yalnız muğam parçaları müəllifə aid deyildi. Bu əsərdə xalq musiqi

janrlarının ahəngdar səslənməsi əsərin digər müsəlman xalqları tərəfindən maraqla qarşılanmasına da əhəmiyyətli təsir göstərmişdir. İllər keçdikdən sonra 1938-ci ildə Üzeyir bəy "Bakinski raboçi" qəzetində " "Leyli və Məcnun"dan "Koroğluya" qədər adlı məqaləsində yazırdı: ***"Mən opera üzərində 1907-ci ildən işləməyə başlamışam. Lakin məndə bu ideya xeyli əvvəl, təxminən 1897-1898-ci illərdə, mən 13 yaşlı uşaq ikən doğma şəhərim Şuşada, həvəskar aktyorların ifasında "Məcnun Leylinin məzarı üstündə" səhnəsini gördükdə yaranmışdır. Həmin səhnə məni o qədər həyəcanlandırır ki, bir neçə ildən sonra Bakıya gəlib operaya bənzər bir şey yazmaq qərarına gəldim."***

1909-cu il dekabrın 20-də Üzeyir bəy onunla Qori seminariyasında oxuyan və yaxın dostu olan Hənəfi Terequlovun bacısı Məleykə xanımla ailə həyatı qurmuşdur. Məleykə xanım Tiflis Qızlar Qimnaziyasında oxumuş, pedaqoji fəaliyyət göstərmişdir. Onun bacısı Badigülcamal isə Müslüm Maqomayevin həyat yoldaşı idi. Üzeyir bəylə Məleykə xanım cütlüyü övlad sahibi ola bilmir. Onlar bir müddət kirayədə yaşayırlar. Sonra isə özlərinə məxsus olan yeni evə köçürlər. Bu yeni evdə də Üzeyir bəy anası Məleykə xanımla yaşamaqla bərabər bacısının beş övladına da baxırdı. Vaxtilə onların yaşadıqları bu ev indi Üzeyir Hacıbəylinin xatirə ev-muzeyinə çevrilib.

1909-cu ildə yazdığı "Şeyx Sənan" adlı ikinci operası üslubuna görə xeyli fərqlənirdi və əsasən, müəllifin orijinal musiqisindən ibarət idi. Lakin bundan sonra yazdığı dörd opera ("Rüstəm və Söhrab" – 1910, "Şah Abbas və Xurşudbanu" – 1912, "Əsli və Kərəm" – 1912, "Harun və Leyla" – 1915) klassik Azərbaycan muğamları əsasında ərsəyə gəlmişdi.

Üzeyir bəy "Koroğlu" operasını 1937-cı ildə yazmış və bu əsərə görə 1941-ci ildə Stalin mükafatına layiq görülmüşdü. Üzeyir bəy operetta janrının da əsasını qoymuşdur: "Ər və arvad"(1909), "O olmasın, bu olsun" (1910) və "Arşın mal alan" (1913) operettası neçə illərdir ki, tamaşaçı alditoriyasının rəğbətini qazanır. Bütün əsərlərinin librettosunun müəllifi özü olsa da, "Koroğlu" operasının librettosu Heydər İsmayılov və Məmməd Səid Ordubadiyə məxsusdur. Bununla belə "Firuzə" operasını tamamlamağa ömür vəfa etmədi. Bu səbəbdən də bu operanı bəstəkar İsmayıl Hacıbəyov tamamladı. Göründüyü kimi, Azərbaycan opera, operetta janrlarının yaradıcısı, banisi Üzeryir bəy Hacıbəyli olmuşdur.

1912-ci ildə Üzeyir bəy ali təhsil almaq məqsədilə Moskvaya gedir. O, burada filarmonik cəmiyyətin musiqi kurslarında N.Laduxindən solfecio, N.Sokolovskidən isə harmoniya dərsi alır.

1913-cü ildə o, Sankt-Peterburq Konservatoriyasına daxil olur. Konservatoriyada harmoniya-məşğələləri üzrə müəllimi Rimski-Korsakovun tələbəsi idi. Fortepiano və orqan üzrə dərsləri görkəmli müəllimlər V.Serbaçov və Y.Qandşin aparırdı. Üzeyir bəyin həyatında və yaradıcılığında Sankt-Peterburq dövrü mühüm rol oynayıb. "Arşın mal alan" kimi dünya şöhrətli operettasını məhz orada yazıb. Əsərdə göstərilən bütün hadisələr Şuşa şəhərində baş verir. Əsərdəki vokal nömrələri Avropa tərzində olsa da, milli koloritdə, milli ladlarda səslənir. Bu səbəbdən də bütün müsəlman xalqları tərəfindən sevilir. Həmin dövrdə konservatoriyanın direktoru vəzifəsində çalışan rus bəstəkarı, dirijor, musiqi xadimi A.Qlazunov bu operettanı dinləmiş və ona yüksək qiymət verərək "Arşın mal alan"ı Rusiyada ilk və çox gözəl operetta adlandırmışdır. Bu əsərin ilk tamaşası 1913-cü ildə Hacı

Zeynalabdin Tağıyevin teatrında göstərilmişdir. Sonralar bu əsər Ümumdünya şöhrəti qazanmış və dünya xalqlarının 67 dilinə tərcümə olunmuşdur. Bu əsər yüzdən çox ölkənin səhnəsində tamaşaya qoyulmuş və dörd dəfə ekranlaşdırılmışdır. Bu operetta əsasında 1917-ci, 1945-ci və 1965-ci illərdə Bakıda müxtəlif rejissorlar tərəfindən film çəkilmişdir. Yusif Vəzir Çəmənzəminli 1918-ci ildə "Millət" qəzetinin 15 sentyabr tarixli sayında nəşr etdirdiyi məqaləsində yazırdı: ***"... Bütün islam dünyasında ilk opera və operettanın müəllifi olduğumuzu qürurla elan edə bilərik".***

Nəhayət, bu film 1945-ci ilin sonlarında o dövrdə ən yüksək dövlət mükafatına – "Stalin" mükafatına layiq görülmüşdür.

Üzeyir bəy Sankt-Peterburqa getməzdən öncə təhsil xərcləri üçün qohumları və dostları ilə bağladığı müqavilə əsasında onun əsərlərindən əldə olunan qonorarın 50 faizini ona göndərməli, 50 faizini isə özlərinə götürməli idilər. Beləliklə, o, öz şəxsi vəsaiti hesabına təhsil alırdı. Lakin I Dünya müharibəsinin başlanması və maddi çətinlik ucbatından Üzeyir bəy burada təhsilini davam etdirə bilməyib, 1914-cü ildə Bakıya qayıtmalı olur.

1908-1918-ci illərdə Üzeyir bəy "Yeni İqbal", "Həqiqət", "Azərbaycan" qəzetlərinin redaktoru kimi fəaliyyət göstərir, bir müddətdən sonra isə onun əsas təsisçisi olur. 1918-ci ildə o, "Azərbaycan" qəzetinin redaktoru vəzifəsində çalışır. Belə bir cəhət də maraqlıdır ki, 1917-ci ildə Üzeyir bəy eyni zamanda "Milli marş" yazmışdır. Onun sözləri də Üzeyir bəyin özünə məxsus idi. 1918-ci ildə isə Ü.Hacıbəyli Azərbaycanın İstiqlal şairlərindən olan Əhməd Cavadın sözlərinə "Çırpınırdın, Qara dəniz" mahnısını bəstələmişdir. Bu mahnı Türkiyədə çox məşhur idi. İndi də ən çox sevilən mahnı-

lar sırasındadır. Lakin 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ölkəmizdə ifa edilməmiş və unudulmuşdur. Yalnız 1990-cı ildə türk musiqişünası Süleyma Şənel dahi bəstəkarın "Çırpınırdın, Qara dəniz" mahnısının notlarını və sözlərini yazıb, Üzeyir bəyin xatirə ev-muzeyinə bağışladı. Beləliklə, uzun fasilədən sonra 1993-cü ildən etibarən "Çırpınırdın, Qara Dəniz" mahnısı yenidən Azərbaycanda səsləndi, rəğbətlə qarşılandı.

Azərbaycanın bu gün hər yerdə qürurla səslənən Dövlət himni də Üzeyir bəy Hacıbəyliyə məxsusdur. İlk dəfə 1918-ci ildə Şərqdə ilk demokratik ölkə olan Azərbaycan Demokratik Cumhuriyyəti dövründə, Üzeyir bəyin 1917-ci ildə yazdığı "Milli marş", ikinci dəfə isə 1991-ci ildə müstəqilliyini yenidən qazanan müstəqil Azərbyacan Respublikasının dövlət himni kimi səsləndirilən 1918-ci ildə bəstələdiyi "Azərbaycan marşı" qəbul olunmuşdur.

1919-cu ildə Üzeyir bəy "Ləzginka" motivində "Dağıstan" baleti və "Tərəkəmə" üslubunda "Azərbaycan" adlı iki birpərdəli balet də yazmışdır. Azərbaycan opera məktəbinin qurucusu olan bəstəkar sonralar kamera vokal musiqisi janrında da qələmini sınadı. "Sənsiz"(1941) və "Sevgili canan" (1943) kimi romans-qəzəl janrında yazdığı əsərlərini də musiqiçi-sənətsevərlərə təqdim etdi.

1918-ci ildə AXC dövründə yazılan Azərbaycan himninin səslənməsinə Azərbaycanda Sovet hakimiyyəti qurulanda qadağa qoyulduğundan yeni himnin bəstələnməsinə ehtiyac duyuldu. Buna görə də 1944-cü ildə Üzeyir bəy Azərbaycan SSR-nin yeni himnini yazdı. Həmin dövrdən Üzeyir bəy siyasi görüşlü mühərrirlikdən uzaqlaşaraq fəaliyyətini yalnız mədəniyyətimizin, incəsənətimizin inkişafına həsr etdi. Elə həmin il Üzeyir bəy Azərbaycan SSR Xalq Maarif Komis-

sarlığına Azərbaycan Dövlət Konservatoriyasının açılmasının zəruriliyi, habelə keçmiş musiqi məktəblərinin binalarının onlara verilməsi barədə hesabat təqdim etdi. Onun bu hesabatı dekret kimi təsdiq olunmuş və hökumətin 26 avqust 1920-ci il tarixli qərarı ilə Üzeyir bəy Hacıbəylinin layihəsi əsasında Azərbaycan Dövlət Konservatoriyası təsis edilmişdir. İlk illərdə Ü.Hacıbəyli direktor müavini işləsə də, sonralar bu musiqi ocağının əsl rəhbəri olmuşdur. Burada fortepiano, orkestr, nəzəriyyə-bəstəkarlıq və Şərq şöbəsi yaradılmışdır. Şərq şöbəsində milli musiqi alətlərində ifaçılığın qayda-qanunları öyrədilirdi. Təhsil iki istiqamətdə – not sistemi və milli ifaçılıq sənətinin şifahi ənənələri əsasında aparılırdı. Qarşıya qoyulan əsas məqsəd milli-musiqi kadrlarının zəruri tələblər əsasında hazırlanması idi. 1925-ci ildə Bakı İşçi Xalq Deputatları Sovetinin deputatı seçildi. 1928-1929-cu illərdə Üzeyir bəy Azərbaycan Dövlət Konservatoriyasının prorektoru, 1939-cu ildə ömrünün sonuna kimi isə ADK-nın rektoru olmuşdur. Sonralar isə onun təşəbbüsü ilə yaradılan Azərbaycan-Türk Musiqi Məktəbinə (indiki Asəf Zeynallı adına Bakı Musiqi Kolleci) rəhbərlik etmişdir.

Üzeyir bəy 1931-ci ildə xalq çalğı alətləri orkestrini, 1936-cı ildə isə dövlət xorunu təşkil etdi. 1938-ci ildə Üzeyir bəy Kommunist Partiyası sıralarına daxil oldu, elə həmin il Lenin ordeni ilə təltif edildi və SSRİ xalq artisti fəxri adına layiq görüldü. 1939-cu ildə SSRİ Bəstəkarlar İttifaqının birinci qurultayının təşkilat komitəsinin üzvü seçildi. 1945-ci ilin sentyabrında Ü.Hacıbəyli Azərbaycan SSR Elmlər Akademiyası İncəsənət İnstitutunun direktoru təyin edildi. Elə həmin ildən Azərbaycan SSR EA-nın həqiqi üzvü və 1937-ci ildən

iki çağırış Naxçıvan zəhmətkeşləri tərəfindən SSR Ali Sovetinin deputat seçildi.

Üzeyir bəyin 1945-ci ildə "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi-tədqiqat əsəri nəşr edildi. Bu əsərlə o, milli ladlara əsaslanan musiqi nəzəriyyəsi məktəbinin əsasını qoydu. Çox böyük maraqla qarşılanan bu əsər haqqında o yazırdı: ***"Mənim bu əsərim Azərbaycan xalq musiqisinin əsas cəhətlərini öyrənmək üçün nəzəri bir vəsait və Azərbaycan ladları əsasında musiqi yazan bəstəkarlara bir yardımçılıq köməyidir".***

1939-cu ildə Üzeyir bəy erməni xainlərinin haqsız hərəkətlərinə qarşı böyük həyəcan və əsəb keçirərək şəkər xəstəliyinə tutulur. Onun müalicəsi həkim Osipyanın ixtiyarında olduğundan və xəstəni düzgün istiqamətdə müalicə etmədiyindən xəstəlik yüksək həddə çataraq ürəyin fəaliyyətini zəiflədir. Sonralar istər Azərbaycan, istərsə də SSRİ dövlət başçıları onu xəstəliyi ilə bağlı ən məşhur xəstəxana və sanatoriyalara göndərsələr də, çox diqqət və qayğı ilə yanaşsalar da, düzgün təyinat almayan xəstəlik öz işini görmüş, ermənilər məkrli niyyətlərinə çatmışlar. 1948-ci il noyabrın 23-də Azərbaycan professional musiqi nümunələrinin ilk yaradıcısı, dahi bəstəkar, xalqımızın sevimlisi, qürur mənbəyi olan Üzeyir bəy Hacıbəyli dünyasını dəyişərək haqqa qovuşdu. Bütün Azərbaycan xalqı matəm içərisində idi. Göz yaşları içərisində olan xalq, başda Azərbaycan Respublikasının rəhbəri Mir Cəfər Bağırov olmaqla dövlət xadimləri, ziyalılar, ədəbiyyat və incəsənət işçiləri, adi vətəndaşlar olan insan axınının qarşısını atlı polis dəstəsi belə, ala bilmirdi. Dahi bəstəkarın cənazəsi AMEA-nın binasından I Fəxri xiyabana qədər insanların çiynində aparıldı. Məzarı gül-çiçəyə qərq

edildi. Üzeyir bəyin məzarı başında 40 gün fəxri qarovul növbə çəkdi.

Bəşəriyyət tarixində elə şəxslər olub ki, onların vəfatından yüz illər keçsə də belə, unudulmur, ölmür, yazıb -yaratdıqları ilə bərabər yaşayırlar. Azərbaycan musiqi mədəniyyəti tarixində milli bəstəkarlıq məktəbinin özülünü qoyan dahi bəstəkar Üzeyir bəy Hacıbəyli belələrindəndir. Üzeyir bəy Hacıbəyli ölümüylə ölümsüzlüyə qovuşdu.

1965-ci ildə dahi sənətkarın anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq Azərbaycan hökumətinin xüsusi qərarına əsasən Ü.Hacıbəyov adına Respublika Dövlət mükafatı təsis edildi.

Hazırda ölkəmizdə 40-dan artıq müəssisə Üzeyir bəy Hacıbəylinin adını daşıyır. Şuşada (1959) və Bakıda (1975) Ü.-Hacıbəylinin ev-muzeyləri yaradılmışdır.

Üzeyir bəy Hacıbəylinin heykəlləri və büstləri Azərbaycanda-bəstəkarın məzarı üstündə Azərbaycan Dövlət Konservatoriyasının qarşısında, Şuşada və s. yerlərdə, həmçinin Azərbaycanın hüdudlarından kənar ölkələrdə də ucaldılmışdır. Belə ki, 2006-cı ildə Avstriyanın paytaxtı Vyana şəhərində, 2011-ci ildə isə Serbiyanın Novi Sad şəhərində Üzeyir bəyin abidələri qoyulmuşdur. Bundan əlavə, Serbiya mədəniyyətinin və incəsənətinin beşiyi sayılan Novi Sad şəhərində 1974-cü ildə yaradılmış İncəsənət Akademiyasının Elmi Şurası 2012-ci il oktyabrın 25-də Üzeyir Hacıbəyli təqaüdünün təsis edilməsi barədə qərar qəbul etmişdir.

Məşhur dünya bəstəkarlarının Üzeyir bəyə, onun yaradıcılığına olan münasibəti qürurvericidir. Belə ki, 2006-cı il iyulun 24-də Kanadadakı Niaqara şəlaləsinin sahilində dahi Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın 250 illik yubileyinə həsr edilmiş Beynəlxalq musiqi festivalının açılı-

şında məhz dünya klassik bəstəkarları sırasında Üzeyir bəyin musiqisinə önəm verilmiş, festivalın təşkilat komitəsi tərəfindən dahi bəstəkarımızın hələ 1931-ci ildə yazdığı “1-ci fantaziya” əsəri açılış üçün seçilmişdir. Üzeyir bəy Hacıbəylinin anadan olmasının 80, 90, 100, 110, 120 illik yubileyləri böyük təntənə ilə keçirilmiş, dünyanın bir sıra şəhərlərində yubiley gecələri təşkil olunmuşdur. YUNESKO-nun qərarı ilə Ü.Hacıbəylinin 100 illik yubileyi Beynəlxalq miqyasda qeyd edilmişdir. Ümummilli liderimiz Heydər Əliyev 1995-ci ildə, Üzeyir bəy Hacıbəylinin anadan olmasının 110 illik yubileyi günlərində Üzeyir musiqi gününün təsis edilməsi haqqında xüsusi fərman imzalamışdır. Fərmanda deyilir:

***Dahi Azərbaycan bəstəkarı, Azərbaycan milli operasının banisi, böyük musiqişünas-alim, publisist və pedaqoq Üzeyir Hacıbəyovun Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə qərara alıram:***

***1. Azərbaycan Mədəniyyət Nazirliyi hər il sentyabr ayının 18-də Üzeyir musiqi gününün keçirilməsini təmin etsin.***

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 18 sentyabr 1995-ci il.*

2008-ci ildə YUNESKO-nun qərarı ilə bütün Şərq aləmində ilk opera olan “Leyli və Məcnun”un 100 illik yubileyi bütün dünyada təntənəli surətdə qeyd edilmişdir.

2010-cu ildə Azərbaycanda və dünyanın digər ölkələrində Üzeyir bəy Hacıbəylinin anadan olmasının 125 illik yubileyi

təntənə ilə qeyd edildi. Bakıda 18-28 sentyabr ərəfəsində "Üzeyir Hacıbəyli-125" Beynəlxalq Musiqi Festivalı keçirildi.

Üzeyir Hacıbəylinin adını daşıyan quru yük gəmisi 1977-ci ildə Rusiyanın Rıbinsk şəhərindəki Volodarski adına gəmiqayırma zavodunda inşa edildi.

1981-ci ildə məşhur Azərbaycan yazıçı-dramaturqu Anarın rejissorluğu ilə Üzeyir Hacıbəylinin həyatından bəhs edən "Üzeyir ömrü" adlı bədii film çəkilmişdir.

2020-ci il dekabrın 9-da Sankt-Peterburqdaki şəhər bağçalarından birinə Üzeyir bəyin adı verilmişdir. 2008-ci ildə Üzeyir Hacıbəylinin xatirəsinə həsr olunmuş və üzərində bəstəkarın adı göstərilmiş qızıl sikkə buraxılmışdır.

1983-cü, 1985-ci, 2005-ci illərdə Ü.Hacıbəylinin musiqi əsərlərinin akademik nəşrinin 1-5 cildləri ("Leyli və Məcnun" və "Koroğlu" operalarının partiturası və klaviri) çap olunmuşdur.

1938-ci il fevralın 1-də "Azrbayncan SSR əməkdar incəsənət xadimi", 1938-ci il aprelin 17-də isə "SSRİ xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Koroğlu operasına görə 1941-ci ildə, "Arşın mal alan" filminin müsiqisinə görə isə 1946-ci ildə II dərəcəli Stalin mükafatları almışdır. Bunlardan başqa, o, müxtəlif orden və medallarla təltif olunmuşdur: 1938-ci il aprelin 17-də Lenin, 1940-ci il sentyabrın 17-də isə Qırmızı Əmək Bayrağı ordenlərinə, 1944-ci il mayın 1-də "Qafqazın müdafiəsinə görə", 1945-ci il iyunun 6-da isə "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medallarına layiq görülmüşdür.

## ZÜLFÜQAR BƏY HACIBƏYOV

***Müəllimlik öylə ağır bir vəzifədir ki, bu ağırlığı daşıyan adam həm cismani, həm də ruhu, amalı və əfkari-ümumiyyəsi ilə cəm olmalıdır.***

**Z.Hacıbəyov**



**Zülfüqar bəy Hacıbəyov və Həsən bəy Sultanov**

Zülfüqar Məhəmməd bəy oğlu Hacıbəyov 1885-ci il may ayının 3-də Şuşada anadan olmuşdur. O, böyük pedaqoqumuz Firidun bəy Köçərlinin bacısı Afərincə xanımın oğludur. Zülfüqar ilk təhsilini rus-tatar məktəbində almışdır. O, Üzeyir bəylə bir sinifdə oxuyurdu. Atası vaxtsız vəfat etdiyindən əmisi Məhəmmədəli bəy qardaşının yadigarını məktəbdə oxutdurmaqla kifayətlənməmiş, müəllim tutaraq ona evdə xüsusi təhsil də verdirmişdi.

Zülfüqar bəy kiçik yaşlarından ədəbiyyatı, incəsənəti, musiqini sevən istedadlı bir gənc idi. O, tez-tez müxtəlif ədəbi və musiqi məclislərində yaxından işti-

rak edirdi. Elə onun əsas həyat müəllimləri də Şuşa ədəbi mühiti, habelə Mir Möhsün Nəvvab, Xurşudbanu Natəvan, Sadıqcan, Yusif bəy Məlikhaqnəzərov, Əbdürrəhim bəy Haqverdiyev kimi Qarabağın görkəmli ziyalıları olmuş, onun gələcəkdə istedadlı bir şəxsiyyət kimi yetişməsinə böyük təsir göstərmişlər.

Zülfüqar məktəbdə oxuyarkən "Cavanlar ittifaqı" adlı bir ədəbi dərnək də yaratmış, elmə, sənətə, məhəbbət və həvəsi olan tay-tuşlarını bura cəlb etmişdi. Həmin gənclər dərnəkdə Azərbaycan ədəbiyyatına, tarixinə, folkloruna aid əsərlər müzakirə edir, müxtəlif müzakirələr, tədbirlər keçirirdilər. Hələ o vaxtlar çox gənc olan və sonralar gələcəyin tanınmış şəxsiyyətlərinə çevrilən Yusif Vəzir Çəmənzəminli, Mirzə Xosrov Axundov, Bəhram bəy Vəzirov, Zülfüqar bəy Hacıbəyov (Üzeyir bəyin böyük qardaşı), Ceyhun bəy Hacıbəyov, Mir Həsən Vəzirov və başqaları "Cavanlar ittifaqı"nın əsas özəyini təşkil edirdilər. Dərnəkdə keçirilən məşğələlər, tədbirlər, ədəbi-bədii gecələr, müzakirələr, yubileylər nəticəsiz qalmırdı. "Cavanlar ittifaqı"nın üzvləri burda Azərbaycan ədəbiyyatı və folklorunu, xalq musiqisini, milli rəqsləri mükəmməl öyrənmişdilər ki, bu da onların gələcək həyat və yaradıcılıqlarında dərin iz buraxmışdı.

1899-cu ilin avqust ayında Zülfüqar bəy Hacıbəyov uşaqlıq dostu Üzeyir bəylə birlikdə qəbul imtahanları vermək üçün Qori şəhərinə gəldi. Atası olmadığından anasının adından seminariya direktoruna ərizə yazdı. Lakin sənədləri qəbul edilmədi. Uşaqlıqdan bədəncə zəif və xəstə olduğundan Şuşa şəhər həkimi ona sağlamlıq haqqında arayış verməmişdi. Ona görə də Şuşaya qayıtdı, məşhur həkim Əbdülkərim bəy Mehmandarovun köməkliyi ilə bir arayış düzəldərək

Qoriyə gəldi. İmtahanları uğurla verərək dövlət hesabına seminariyaya daxil oldu.

İlk günlərdən Zülfüqar bəy maraqlı, şirin söhbətləri, mülayim rəftarı, savadı, istedadı, qabiliyyəti, yüksək əxlaqı və davranışı ilə şagird yoldaşlarının və müəllimlərinin dərin hörmət və məhəbbətini qazanmışdı. O, ədəbiyyat və mədəniyyət xəzinəsi olan seminariyanın zəngin kitabxanasından müntəzəm istifadə edir, biliyini durmadan artırırdı. Zülfüqar bəy keçirilən ədəbi gecələrin, kollektiv tənəzzöhlərin, Tiflisdə teatr tamaşalarına baxışların, müxtəlif sərgilərin, ümumiyyətlə, seminariya kollektivinin keçirdiyi bütün tədbirlərin fəal iştirakçısı idi. Yay tətillərində Şuşaya gələndə də şəhərin mədəni həyatında yaxından iştirak edirdi. Məhz bunun nəticəsi idi ki, iclaslarda, dərs illərinin yekunlarında onun adı nümunəvi şagird kimi müdiriyyət tərəfindən dəfələrlə qeyd edilmişdi.

Seminariyada əsas fənlərdən biri də musiqi idi. Bu sahədə böyük istedada malik olan Zülfüqar bəy bütün musiqi məclislərində, konsertlərdə, simli və nəfəsli orkestrlərdə çıxış edirdi. Sonuncu kursda oxuyarkən orkestrdə fəal iştirak etdiyi üçün o, Üzeyir bəy Hacıbəyov, Azad bəy Əmirov və Müslüm bəy Maqomayevlə birlikdə əla ifaçılıq bacarığına görə pulla mükafatlandırılmışdı.

1904-cü il iyun ayının 1-də Zülfüqar bəy Hacıbəyova Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmək haqqında şəhadətnamə verildi. Unudulmaz seminariya illəri başa çatdı. Zülfüqar bəy müstəqil həyata qədəm qoydu. Hazırlıqlı bir müəllim kimi təyinat yerinə göndərildi. Gəncə sənət məktəbində dərs deməyə başladı. Gəncə sənət məktəbi, əsasən, kənd təsərrüfatını və sənayenin inkişafı üçün mütəxəssislər hazırlayırdı. Bu məktəbdə ümumtəhsil fənləri ilə yanaşı,

kənd təsərrüfatına aid fənlər də tədris olunur, şagirdlərə kənd məişətinə, sənətə aid lazımi bilik verilir və təcrübi qabiliyyətlər aşılanırdı. Eyni zamanda bu tədris ocağının əsas məqsədi ibtidai təhsili peşə təhsili ilə tamamlamaqdan ibarət idi. Sonralar bu məktəbdə ixtisasdan başqa, həm də ibtidai məktəb müəllimi adı almaq istəyənlər üçün də əlavə sinif açılmışdı. Gənc Zülfüqar bəy də müəllimliyə başladığı ilk günlərdən yerli pedaqoqlarla əl-ələ verib, böyük amallarla işə girişdi, özünü nümunəvi bir müəllim kimi tanıtdı. O, Qori seminariyasında aldığı bilikləri səxavət və həvəslə sənət məktəbi şagirdlərinə bağışladı. Şagird kontingentinin kəndli uşaqlarının hesabına artmasına, məktəbin peşə öyrətmək sahəsində xeyli uğurlar qazanmasına, ümumiyyətlə, bu təhsil ocağının müvəffəqiyyətlə inkişafına böyük əmək sərf etdi.

Seminariya həkiminin verdiyi rəyə görə Zülfüqar bəy təhsil illərində canının qeydinə qalmır, tez-tez xəstələnirdi. O, artıq son sinifdə oxuyarkən fiziki cəhətdən xeyli zəifləmişdi. Ona görə də təyinat zamanı bu, nəzərə alınmış, Zülfüqar bəy ucqar bir yerə yox, dayısı Firidun bəy Köçərlinin köməkliyi ilə sağlamlıq üçün münasib bir yer olan Gəncəyə – sənət məktəbinə göndərilmişdi. O, dayısına göndərdiyi məktubda bu barədə yazır və təşəkkürünü bildirirdi: ***“Əziz dayı! Mənim təyinatımı Yelizavetpola verdilər. Sabah ora yola düşürəm. Sizə salam göndərirəm. Təyinatıma kömək etdiyiniz üçün minnətdarlığımı bildirirəm. Hamıya salamım var.***

***Sizin Zülfüqar***
***5 sentyabr 1904-cü il”.***

Lakin gənc müəllim xalqına cəmi ikicə il xidmət eləyə bildi. Təkcə dərs deməklə kifayətlənmədi, el-el, oba-oba gəzib-dolaşdı. Evlərdə "yatıb-qalmış" ailə arxivlərini arayıb-araşdırdı, xalq ədəbiyyatı nümunələri topladı, "Zülfüqar Şamani" imzası ilə mətbuatda çapa hazırladı. Payi-piyada dağdan arana, arandan dağa gedib-gələn bu vətənpərvər ziyalı gənc bir an da olsa, dincəlmək nə olduğunu bilmədi, demək olar ki, özünü yenicə başladığı müqəddəs işinə qurban verdi, xəstəliyə tutuldu.

1906-cı ilin yazında Zülfüqar bəyin hansı xəstəliyə mübtəla olduğu artıq bilinirdi: ciyər vərəmi! Dayısı Firidun bəy bu bəd və ağır xəbəri eşidən kimi Gəncəyə yola düşdü. Sevimli bacısı oğlunu dərhal Tiflisə – həkim Məmmədrza Vəkilovun yanına apardı. Həkim Zülfüqar bəyi ciddi müayinədən keçirdi, başını bulayaraq "artıq gecdir, müalicənin heç bir köməyi olmayacaq" – dedi. Bu amansız xəstəlik artıq öz işini görmüşdü və get-gedə şiddətlənirdi. O, yorğan-döşəkdə yatır və günü-gündən zəifləyirdi. 1906-cı il aprel ayının 15-də 21 yaşı hələ tamam olmayan gənc Zülfüqar bəy Qoridə həyatla vidalaşdı, cənazəsi Şuşaya gətirildi və burada izdihamlı dəfn mərasimi təşkil edildi. Onunla son görüşə hər yerdən gələn tələbə dostları, müəllimlər, ziyalılar dostlarını Şuşada məşhur Mirzə Həsən qəbristanlığında dəfn etdilər. Gələ bilməyənlər isə teleqram vasitəsilə başsağlığı verirdilər.

Sevimli uşaqlıq dostunun və seminariya yoldaşının vaxtsız ölüm xəbərini eşidən Üzeyir bəy Hacıbəyli "İrşad" qəzetinin 13 aprel 1906-cı il 96-cı nömrəsində "Zülfüqar bəy Hacıbəyovun vəfatı nabəhəngamına dair" adlı hüzn və kədərlə, göz yaşları ilə dolu nekroloq-məqaləsində yazırdı: ***"... Bu zəhərli xəbər bizi gicitləndirdi. Gözümüzə, qulağımıza***

***inanmıyorduq. Zülfüqar ölməz deyirdiz. Ölmək üçün yaranmamışdı. Qəlbində bəslədikləri ümidləri, əməlləri, əqlinə tabdar etmiş ali fikirləri qövldən feilə gətirmək üçün çalışmağa yaranmışdı – ölməz diyorduz. Lakin öldü. Bu, bir acı həqiqətdir. Nakam öldü. Valideyni Zülfüqar adlı bir oğul itirdilərsə də, biz Zülfüqar adlı bir adam itirdik ki, millətimiz üçün yıxılmaz, qırılmaz bir sütun olacağı bizcə ar-aşkar idi".***

Sultan Məcid Qənizadə isə "Təəssüf" adlı məqaləsində sevimli Zülfüqar bəyin xəstəliyindən bəhs edərək yazırdı: ***"Gül budağına xar həris olan kimi cavan müəllimlərə də bimürvət sil azarı (ciyər vərəmi) hərisdir".***

Xalqına, millətinə, vətəninə xidmət edən, öz bilik və bacarığını əsirgəməyən əsl ziyalılıq libasında dünyasını dəyişən bu işıqlı zəka sahibi Zülfüqar Hacıbəyovun maarifpərvər ideyaları Azərbaycan təhsilinin tarixinə zər hərflərlə yazılıb.

## HƏSƏN BƏY FƏTƏLİBƏYOV

***Hərb meydanı da bir məktəbdir,***
***yüksək rütbəli hərbçi isə müəllimdir.***
**H.Fətəlibəyov**

Həsən bəy Fətəlibəyov 1886-cı ildə Şuşa qəzasının Ətyeməzli obasında zadəgan ailəsində dünyaya gəlmişdir. İbtidai təhsilini Şuşada aldıqdan sonra Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Seminariyanı bitirdikdən sonra onun müəllimlik etməsi ilə bağlı heç bir məlumat yoxdur.



Arxiv materiallarından bəlli olur ki, o, 1917-ci il oktyabr ayının 29-da Tatar süvari alayının ehtiyat bölməsinə könüllü qəbul olmuşdur. İki aydan sonra zabit rütbəsi almışdır. 1918-ci ildə ona uryadnik rütbəsi verilmişdir. Elə həmin ildə o, müsəlman korpusunun komandiri, general-leytenant Əliağa Şıxlinskinin əmri ilə oboz (hərbi araba karvanı) komandiri təyin edilmişdir.

1919-cu ildə ailə vəziyyətinə görə hərbi xidmətdən tərxis olunur. Ancaq qısa vaxtdan sonra yenidən hərbi xidmətə qayıdır. Həsən bəy hərbi xidmətdə olarkən vəzifə pillələrində fədakarlıq nümunəsi ilə tanınmışdı.

Hərbi işlərdən məlumatı olan, dərin zəkaya malik Həsən bəyin sənədlərində bildirilir ki, o, Azərbaycan Demokratik Respublikasının əks-kəşfiyyat idarəsində rəis müavini işləmişdir. Bəzi sənədlərdə isə rəis olduğu da göstərilir.

XI Qızıl Ordu Bakını işğal edəndən sonra başqaları kimi, o da bolşeviklərin təqibinə məruz qalaraq həbs olunmuşdur. Bolşeviklər onu təhlükəli düşmənlərindən biri hesab edərək, hətta həbsxanada belə, uzun müddət saxlamaq istəməmiş, 1920-ci ildə naməlum şəraitdə məhkəməsiz və hökmsüz güllələmişlər.

## YUSİF ƏLİYEV

***Kitab hər kəsin dostudursa,***
***kitabxana onun xəzinəsidir.***
**Y.Əliyev**



Yusif Adışirin oğlu Əliyev 1888-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşada dədə-babadan qalma ev-eşiyi olduğu halda dolanışıq üçün usta Adışirin Bərdəyə köçür və orada bərbərxanada işləyir. Oğlu Yusif də burada rus-tatar məktəbində oxumalı olur. Məktəbi bitirdikdən sonra atası oğlunun təhsilini davam etdirmək üçün ona müəllim tutmaq qərarına gəlir. Bu məqsədlə Şuşaya yola düşür. O vaxtlar Şuşada yaxşı bir ənənə vardı. Yay tətilini doğma yurdlarında keçirən Qori seminariyasının şuşalı tələbələrinin əksəriyyəti şəhərin ibtidai məktəblərində oxuyan və gələcəkdə təhsillərini davam etdirmək istəyən şagirdlərə öz evlərində təmənnasız dərs deyir, onları, əsasən, texniki institutlara və universitetlərə hazırlaşdırırdılar. Uşaqlarının gələcəkdə təhsillərini davam etdirmək istəyən valideynlər də onların hazırlıqlı olması üçün müəllim tuturdular. Elə bu məqsədlə də Usta Adışirin oğlunu Şuşanın tanınmış ziyalılarından olan Əbdülhüseyn ki-

şinin oğlanları ilə – Zülfüqar, Üzeyir və Ceyhun Hacıbəyov qardaşları ilə görüşdürür. Yusif bu görüşdə verilən bütün suallara layiqincə cavab verir. Ortancıl qardaş Üzeyir bəy onun Qori seminariyasına hazırlaşdırılması işini öz üzərinə götürür. Ertəsi gündən Üzeyir bəy öz evlərində Yusifə fərdi qaydada dərs keçməyə, onu müəllimlər seminariyasına hazırlamağa başlayır. İki ay hazırlıqdan sonra Şuşa şəhər Qəza İdarəsində kargüzar vəzifəsində çalışan Üzeyir bəyin böyük qardaşı Zülfüqar bəy Hacıbəyovun köməkliyi ilə Yusifin lazımi sənədləri hazırlanıb, Tiflisə göndərilir. Bir neçə gündən sonra, yəni, 1902-ci ilin avqust ayında Yusif Üzeyir bəylə birlikdə Qori şəhərinə yola düşür.

Qori seminariyasında Yusif imtahanlardan uğurla çıxır və onun adı dövlət hesabına oxumaq üçün seminariyanın tatar şöbəsinin aşağı hazırlıq sinfinin şagirdləri siyahısına yazılır. Yusifi ilk təbrik edən də Üzeyir bəy olur. O, Şuşaya teleqram vurub, Usta Adışirinə xəbər verməyi də unutmadı. On dörd yaşlı Yusif elə ilk günlərdən bütün qüvvəsini oxumağa sərf etdi. O, sinif yoldaşları ilə birgə seminariyanın pansionatında qalırdı. Sinif yoldaşları Məmməd Qarayev, Ağalar Hacıbəyov, İsfəndiyar Vəkilov, Hacıbala Zamanov, Yaqub Qocayev, Həsən Şıxlinski, Səlim Əfəndiyev, İsmayıl Əliyev və başqaları ilə birgə yaşamaları onların arasında ülfət bağlantısına, dostluq və yoldaşlıq ailəsində birləşməsinə zəmin yaratdı. Belə bir mövqe birgə dərs oxumağa, musiqi ilə məşqul olmağa, öz aralarında müxtəlif söhbətlər və müzakirələr aparmağa, bayram günlərində isə ekskursiyalara getməyə imkan yaratdı. Onlar istirahət saatlarında qiraətxanada mütaliə etməyi də unutmurdular.

Seminariyada keçilən məcburi dərslərdən biri də musiqi idi. Hər bir şagird avazla oxumağı hər hansı alətdə çalmağı

bacarmalı idi. Burada təhsil alanlar Avropa musiqisini öyrənməklə yanaşı, hər hansı bir alətdə çalmağı da öyrənməli idilər. Özündən üç yaş böyük olan Üzeyir bəy Yusifə qardaşlıq edir, hər bir işin həllində ondan köməyini əsirgəmirdi. Üzeyir bəyin məsləhəti və köməyilə o, seminariyanın həm xoruna, həm də simli orkestrinə qəbul edilmişdi. Əla oxumaqla yanaşı, musiqidə də fərqlənirdi. Yusifin xoş avazı və musiqi duyumu musiqi müəllimi Mixail Leontyeviç Pekkerin nəzərindən yayınmamışdı. O, Yusifin istedadını və tədbirlərdəki fəallığını yüksək qiymətləndirirdi. Bütün bunlar sözsüz ki, digər tələbələr kimi onun da dünyagörüşünün formalaşmasına, kamil bir insan kimi yetişməsinə müsbət təsirini göstərirdi.

1907-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasını uğurla bitirən Yusif Əliyev Yelizavetpol (Gəncə) Xalq Məktəbləri Müdiriyyətinin sərəncamı ilə Nuxa rus -tatar məktəbinə göndərildi. Həmin ilin yayında Bakıda Azərbaycan müəllimlərinin ikinci qurultayı keçirilirdi. Bu qurultayın qərarlarını uğurla həyata keçirmək üçün Bakı şəhər Duması yanında komissiya yaradıldı. Qurultayda belə bir təklif irəli sürüldü ki, rus-tatar məktəblərinə ana dili müəllimlərini imtahan yoluyla götürmək lazımdır. Komissiya üzvləri ona görə belə qərar vermişdilər ki, onların fikrincə, ana dili müəllimi həm xalqın ədəbiyyatını, həm də dilinin qramatikasını mükəmməl bilməlidir. Beləliklə, istənilən müəllim də bu sınaqdan keçə bilərdi. Dövri mətbuatda bu haqda məlumat oxuyan, özünə daha geniş fəaliyyət meydanı axtaran və öz savadına güvənən gənc müəllim Yusif Əliyev üçün bu xəbər sevindirici idi. O, dərhal Bakıya gəldi, müəllimlərin biliyini yoxlayan və dörd yerə on iki nəfər ərizə vermiş komissiyaya müraciət etdi. Yusif Əliyev imtahandan uğurla çıxdı. Gənc müəllim əvvəlcə Əmircan kənd rus-tatar məktəbinə göndərildi. İki il burada işlədikdən

sonra şəhər IX rus-tatar məktəbinə dəyişildi. Beləliklə, o, Süleyman Sani Axundov, Bədəl bəy Bədəlbəyov, Rəsul bəy Tahirov, Üzeyir bəy Hacıbəyli kimi ziyalılar mühitinə daxil oldu. Təbii ki, belə bir mühitdə onun pedaqoji görüşləri lazımi şəkildə formalaşmağa başladı. O dövrdə Bakıda yaşayıb-işləyən Qori seminariyasının məzunları daim əlaqə saxlayır, bir-birlərinin işlərinə yarayırdılar. Elə bunun nəticəsi idi ki, 1908-ci ilin yanvar ayının 12-də Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasında musiqi hissəsini ifa edən orkestrin tərkibi demək olar ki, Qori seminariyasının yetirmələrindən ibarət idi. Yusif də digər tələbə yoldaşları ilə həm xorda, həm orkestrdə, həm də kütləvi səhnələrdə yaxından iştirak elədi, ilk opera tamaşasına öz töhvəsini verdi.

Yusif Əliyev istedadlı pedaqoq kimi əsas fəaliyyətini məktəb, maarif məsələlərinin təşkilinə həsr edirdi. Qabaqcıl dünyagörüşlü müəllimlər kimi o da qadın azadlığını cəmiyyətin inkişafı məsələlərində əsas prinsip sayırdı. Təhsildə olan çətinliklərə, məktəblərdə çatışmazlıqlara baxmayaraq, bu vətənpərvər pedaqoq ruhdan düşmürdü. Maarif yolunda hər cür əziyyətə, hər bir çətinliyə qatlaşmağı özünə mənəvi borc sayırdı.

O, Tərtərdə keçirilən qəza müəllimlərinin qurultayında həmkarı Fərhad Ağazadə ilə birlikdə maarifin inkişafına, təhsilin yüksəldilməsinə kömək məqsədilə məktəblərdə kitabxanalar yaradılması ideasını irəli sürdü. Bu fikir qurultay iştirakçıları tərəfindən rəğbətlə qarşılandı. Lakin həmin dövrdə hökumət məktəblərinin dərs proqramı bəzi müəllimlər kimi Yusifi də qane etmirdi. Odur ki, on altı nəfərdən ibarət həmkarı ilə birlikdə maarif orqanlarına etiraz məktubu yazdı. Bu səbəbdən də onlar dərs demək hüququndan məhrum oldular.

Bakı ictimaiyyətinin bu işə qarışması ilə verilən ədalətsiz qərar ləğv olunsa da, Yusif bir daha öz iş yerinə qayıtmadı.

Həmin anda Üzeyir bəy və Fərhad Ağazadə məşhur müəllim və ictimai xadim Əli bəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində çalışırdılar. Dostları Yusifin işsiz qaldığını biləndə onu məktəbə dəvət etdilər. Gənc müəllim az müddət ərzində nümunəvi müəllimlərdən biri kimi tanındı. Burada işlədiyi müddət ərzində o, Fərhad Ağazadə ilə birlikdə ibtidai məktəblər üçün dərsliklər də tərtib edir, uşaqlar üçün müvafiq lüğətlər hazırlayırdı. 1914-cü il I dünya müharibəsilə bağlı silsilə şəklində buraxılan "Belçika" adlı kitabçanı Yusif Əliyev tərcümə edib nəşrə hazırladı. Çox çəkmədən 1918-1919-cu illərdə o, yaxşı tanıdığı Əşrəf bəy Axundovun qızı Törə xanımla ailə həyatı qurdu. Qaynatasına ticarət işlərində də müəyyən köməklik göstərdi.

Azərbaycan sovetləşəndən sonra o, Azərbaycan SSR Xalq Maarif Komissarlığında işləməyə dəvət olundu. Yusif Əliyev Azərbaycan dilinin tədrisi ilə bağlı yeni proqramların hazırlanmasında, müəllimlərin təkmilləşdirilməsi işlərində fəaliyyət göstərməyə başladı. İstedadlı müəllim dil islahatı, türk dilini ərəb və fars sözlərindən təmizləmək və latın əlifbasına keçmək üzrə komissiyanın işində fəal çalışdı, tərcüməçi, lüğət və antologiya tərtibçisi kimi də tanındı.

1923-cü il iyulun 16-da Yusif Əliyev heç bir səbəb olmadan öz evində qəflətən həbs edildi. Onun bu gözlənilməz həbsi ailə üzvlərinin və ətrafındakı bütün insanların təəccübünə səbəb oldu. Çox çəkmədən bu dolaşıq istintaqa başlandı. Azərbaycan Fövqəladə Komissiyasına məhbus barəsində məktublar göndərildi. Fövqəladə Komissiyaya daxil olan bir məktub bu istintaq işini dayandırdı və Yusif Əliyev ona düşmən kəsilənlərin şərindən xilas oldu. Bu məktubu yazan 26 Bakı ko-

missarlarından birinin həyat yoldaşı Mariya Xristoforovna Əmirova idi. Məktubda deyilirdi: ***"Həbsxanada saxlanılan vətəndaş Yusif Əliyevi 1918-ci ildən tanıyıram. Onun həmin dövr həyatı gözlərimin qabağında keçmişdir. Bu adamın billur kimi saflığına şəxsən mən qəti əminəm. Bizim aramızda tez-tez yaranan bir çox mübahisə və söhbətlərdən onun məsləkinə və əqidəsinə yaxşı bələdəm. Tam əminliklə təsdiq edirəm ki, bu adam Sovet dövlətinin ən vicdanlı vətəndaşlarından biridir və sosial-demokrat bolşeviklər partiyasından başqa, heç bir partiyanın üzvü olmamışdır...."***

Bu məktub Yusif Əliyevin taleyində, doğrudan da, böyük rol oynadı. Sonralar aydınlaşdı ki, o, "İttihad" partiyasının üzvü olan eyni ad və familiyalı müsavatçı Bəşir bəy Aşurbəyovun bacısı oğlu, Sabunçu kənd sakini Yusif Əliyevlə dəyişik salınmışdır. Beləliklə, Yusif Əliyev istintaq başlanmamışdan əvvəl buraxıldı.

1925-ci ildən o, "Bakinskiy raboçi" nəşriyyatında çalışmağa başladı. Həmin illərdə respublikada pioner hərəkatı başlanarkən görkəmli pedaqoq da bu işə ürəklə qoşularaq hərəkatın genişlənməsinə öz töhfəsini verdi. 1926-cı ildə isə o, yüksək pedaqoji məharətə malik olan müəllim həmkarları Fərhad Ağazadə və Hacı Kərim Sanılı ilə birlikdə "Zəhmət məktəbi" adlı bir kitab yazaraq həm uşaqlara, həm də valideynlərə pioner hərəkatının ideya-siyasi istiqamətini, məqsəd və vəzifələrini başa salmış, onları da bu faydalı işə cəlb etmişdilər.

Görkəmli pedaqoq kütləvi məktəblər üçün bir neçə dərs kitabının müəllifi kimi də tanınır. O, "Ana dili" dərsliyini bir neçə variantda yazmış, savadsızlığı ləğv etmək kursları üçün dərsliyin müəllifi olmuşdur. Yusif müəllim eyni zamanda elmin müxtəlif sahələri üçün terminlər hazırlanmasında və "Rusca-azərbaycanca lüğət"in tərtibində fəal iştirak etmişdir.

O, lüğət hazırlayan redaksiya heyətində çalışmış, 1928-ci ildə Ruhulla Axundovun rəhbərliyi ilə ilk rusca-türkcə lüğətin tərtibçilərindən olmuş, üçcildlik lüğətin, həmçinin "Azərbaycan şivələri lüğəti"nin işlənilib hazırlanmasına böyük əmək sərf etmişdir. Sonra o, görkəmli dilçi-alim kimi ensiklopediya hazırlayan redaksiya heyətinə daxil edilmiş, Azərbaycan Elmi-Tədqiqat İnstitutu lüğət şöbəsinin katibi, eyni zamanda biblioqrafiya və terminologiya şöbəsinin müdiri olmuşdur. Sonuncu iş yeri isə Azərbaycan Sovet Ensiklopediyası İnstitutu idi.

Tanınmış pedaqoq, ictimai xadim, dilçi alim Yusif Əliyev 1967-ci ildə 79 yaşında dünyasını dəyişmiş və Bakı şəhərində dəfn edilmişdir.

## HƏŞİM BƏY NƏRİMANBƏYLİ

***Mən bir hüquqşünas kimi nə bir məhkəmə işinə çıxdım, nə də bir həkim kimi xəstə müalicə etdim, ancaq müəllim kimi bildiklərimi öyrətməkdən usanmadım.***

**H.Nərimanbəyli**

Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, ictimai-siyasi və dövlət xadimi Həşim bəy Nərimanbəyli 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdur. O, Şuşada mollaxanada oxumuş, orta təhsilini İrəvan gimnaziyasında almışdır. Həşim bəy təhsilini Qori Müəllimlər Seminariyasında davam etdirərək ömrünü təhsilə, savadsızlığın ləğvinə, bir sözlə, xalqımızın maariflənməsi işinə həsr etmişdir. Həşim bəy İrəvanda azərbaycanlılar üçün ana dilində məktəb açmışdır. O, həmçi-



nin kasıblar üçün xeyriyyə cəmiyyətinin təşkilində fəal iştirak etmişdir. Həşim bəyin Azərbaycan məktəbləri üçün başqa müəllimlərlə birlikdə tərtib etdiyi "Ana dili" kitabı 1907-ci ildə İrəvanda, sonralar isə üç dəfə Tiflisdə çap edilmişdi. Son vaxtlaradək İrəvanda azərbaycanlılar üçün mövcud olan iki məktəbdən biri el arasında "Həşim bəyin məktəbi" adlanırdı. Bu məktəbdə yüzlərlə azərbaycanlı balası təhsil almışdır.

## MÜSEYİB İLYASOV

***Harda olursan ol, nə iş görürsən, gör,***
***birmənə qəlbin vətən üçün çırpınmalıdır.***
**M.İlyasov**

Müseyib İlyas oğlu İlyasov 1889-cu ildə Şuşa qəzasının Oğuldərə kəndində dünyaya gəlmişdir. İlk təhsilini Şuşada almış və 1900-1907-ci illərdə Gəncə gimnaziyasında oxumuşdur. 1912-ci ildə isə Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmişdir.

Müseyib İlyasov pedaqoji fəaliyyətə Bakı şəhərindəki II rus-tatar məktəbində başlamışdır (1912-1915). O, Birinci Dünya müharibəsində qaçqınlara və zərərçəkənlərə kömək



göstərən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin üzvü olmuş, onun işlərində fəal iştirak etmişdir.

1921-ci ildə Müseyib İlyasov Şuşa seminariyasına müdür vəzifəsinə təyin olunmuş və 1924-cü ilə qədər bu vəzifəni şərəflə daşımışdır. 1924-cü ildən 1930-cu ilə qədər isə orada müəllim işləmişdir.

Müseyib İlyasov Bakıya köçmüş və burada 17 nömrəli axşam məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir. Antisovet təbliğat apardığına görə 1941-ci il sentyabr ayının 29-da həbs olunmuşdur. 1942-ci il fevral ayının 14-də SSRİ Xalq Daxili İşlər Komissarlığının xüsusi müşavirəsində 8 il azadlıqdan məhrum edilmiş və islah əmək düşərgəsinə göndərilmişdir. 1942-ci il fevralın 14-də repressiya qurbanı olmuşdur. Xalqsevər, vətənpərvər pedaqoq Müseyib İlyasov 1956-cı ildə bəraət almışdır.

## İSFƏNDİYAR HACIYEV

***Əsl igid arxadan zərbə vurmaz.***
**İ.Hacıyev**

İsfəndiyar Məhəmməd oğlu Hacıyev 1892-ci ildə Şuşa qəzasının Malıbəyli kəndində anadan olub. O, ilk təhsilini Malıbəyli rus-tatar məktəbində almış sonra Zaqafqaziya Müəl-



limlər Seminariyasına daxil olmuşdur.

Seminariyanı 1917-ci ildə bitirmişdir. 1918-1920-ci illərdə Musavat ordusunun Xan kəndindəki polkunda rota komandiri olmuşdu. O, əhali arasında təbliğat aparmaqla Qarabağın kəndlərindən yüzlərcə gənci milli ordu sıralarına səfərbərliyə almışdı. 1918-ci ilin yayında Zəngəzurda Andronikin erməni quldur dəstələrinin darmadağın edilməsində xüsusi şücaət göstərmişdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Musavat partiyasının üzvü olduğu üçün İsfəndiyar Hacıyev də bir çox silahdaşları kimi həbs edilmişdi. Lakin görkəmli inqilabçı Məmmədxan Məmmədxanovun yaxından köməyi ilə həbsdən azad olunmuşdu.

1920-ci ilin oktyabr ayında N.Nərimanov Şuşaya gələndə onu müşayiət edən dəstənin üzvləri arasında İsfəndiyar Hacıyev də var idi.

O, N. Nərimanovun təhlükəsizliyində xüsusi rol oynayırdı. İsfəndiyar Hacıyev Nəriman Nərimanovun göstərişi ilə 1921-ci ilin fevral ayında Qarabağa qastrol səfərinə gəlmiş Bakı səhnəsinin məşhur aktyorları Əbülhəsən Ananlı, Mirpaşa Sadıqov və Əli İslamı müşayiət edirdi. Lakin onlarla birlikdə İsfəndiyar Hacıyev də Şuşanın Keşiş kəndində erməni daşnakları tərəfindən xaincəsinə öldürüldü. Onları "Cıdır düzü"ndə fəxri

Mir Fəseh qəbristanlığında dəfn etdilər. Əfsuslar olsun ki, erməni daşnaklarının bu günkü himayəçiləri də o qəbristanlığı dağıdaraq qeyri-insani hərəkətlərini nümayiş etdirdilər.

## YUSİF HACIYEV

***Ordusu güclü, əsgəri mübariz olan dövlət qalibdir.***

**Y.Hacıyev**



Yusif Qənbər oğlu Hacıyev 1892-ci il mart ayının 5-də Şuşa qəzasının Malıbəyli kəndində anadan olmuşdur. O, Zaqafqaziya Müəllimlər Seminariyasını 1917-ci ildə bitirmişdir. Bir il Malıbəylidə ailələrinə məxsus torpaq sahəsində çalışmışdır.

Azərbaycan Demokratik Respublikası dövründə (1918-1920) zabit kimi səfərbərliyə alınmışdır. Yusif Hacıyev həmin ərəfədə ordu quruculuğu məsələləri ilə məşğul olmuş, gənc, vətənpərvər oğulları orduya cəlb etmişdir. Eyni zamanda erməni quldurlarına qarşı döyüşlərdə iştirak etmişdi. Xan kəndindəki müsəlman polkunda xidmət edən gənc zabit Qarabağın neçə-neçə kəndini və minlərlə dinc azərbaycanlı sakinini daşnakların hücumundan müdafiə etmişdi.

Yusif Hacıyev 1920-ci ildə Ağdam II dərəcəli məktəbində bir müddət müəllim işləyəndən sonra Ağdam qəza Sahə Hərbi Komissarlığında hərbi komissar (1922-1923) vəzifəsində çalışmışdır. 1924-cü ildə yenidən pedaqoji işə qayıdaraq Ağdam Kənd Təsərrüfatı Texnikumunda işləmişdir.

1923-cü ildən gizli Müsavat partiyası Qarabağ vilayət Komitəsinin üzvü olmuş və Müsavatın Ağdam qəza Komitəsində hərbi şöbəyə rəhbərlik etmişdir (1926-1927).

Yusif Hacıyev Ağdamda, Şuşada, Malıbəylidə gizli inqilabi iş aparmış, 1927-ci il mayın 29-da Ağdamda Azərbaycan Dövlət Siyasi İdarəsi tərəfindən həbs edilmişdir. Dövlət Siyasi Kollegiyasının qərarı ilə on il həbs cəzasına məhkum edilmiş və sürgünə göndərilmişdir.

Azərbaycan xalqının igid, qorxmaz oğlu Yusif Hacıyev 1928-ci ildə həbsxanada vəfat etmişdir.

## MƏHİŞ HÜSEYNOV

***Mükəmməl yetişən müəllim neçə-neçə ocağın işığını gücləndirməyə qadirdir.***
**M.Hüseynov**

Məhiş Məhəmmədəli oğlu Hüseynov 1896-cı ildə Şuşa qəzasının Seyidli kəndində anadan olmuşdur. O, Ağdam rus-tatar məktəbində oxumuş, sonra müvəffəqiyyətlə imtahan verərək Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuş və orada təhsilini davam etdirmişdir. Beləliklə, Məhiş Hüseynov 1917-ci ildə seminariyanı müvəffəqiyyətlə bitirmişdir. Elə həmin ildən pedaqoji fəaliyyətə başlamışdır. İlk olaraq vaxtilə oxuduğu rus-tatar məktəbində (1917-1918), sonra isə Qa-



zax Müəllimlər Seminariyasında müəllim işləmişdir (1918-1920).

Sovet hakimiyyətinin ilk illərində Məhiş Hüseynov təhsil sahəsi üçün kadrların hazırlanmasında və yeni müəllimlərin yetişdirilməsi ilə bağlı səmərəli fəaliyyət göstərmişdir. Bu gənc pedaqoq istədiyi nəticələri əldə etmək üçün 1921-ci ildə Şuşada II dərəcəli məktəb açmışdır. Bu məktəb bir il sonra Şuşa Müəllimlər Seminariyası ilə birləşdirilmişdir.

1922-1928-ci illərdə Məhiş Hüseynov seminariyanın direktoru olmuşdur. Bundan sonra o bir çox vəzifələrdə əzmlə çalışmışdır. Belə ki, 1928-ci ildən başlayaraq bir il Azərbaycan SSR Xalq Maarif Komissarlığında pedaqoji təhsil üzrə inspektor işləmişdir (1928-1929). 1929-cu ildə isə Naxçıvan Pedaqoji Texnikumuna dərs hissə müdiri təyin edilmişdir. Bir ildən sonra onu Bakıda hazırlıq kurslarının müdiri vəzifəsinə təyin etdilər. Üç il burada çalışaraq bacarıqlı müəllim kadrları yetişdirilməsində səmərəli fəaliyyət göstərmişdir.

1933-1935 illərdə isə o, fəhlə fakültəsinin direktoru vəzifəsində çalışmışdır. Sonralar Ağdam Pedaqoji Məktəbində dərs hissə müdiri (1935-1936), daha sonra isə ixtisasartırma institutunda inspektor (1936-1939) vəzifəsində işləmişdir. Beləliklə, Məhiş Hüseynov yaşlaşana qədər pedaqoji fəaliyyətini davam etdirmişdir. İşlədiyi müddətdə istər dərs dediyi

tələbələrin, habelə yetişdirdiyi müəllimlərin sevimlisi olan Məhiş Hüseynov bütün həyatını xalqın övladlarının, gənc nəslin maariflənməsinə sərf etmişdir.

Məhiş Məhəmmədəli oğlu Hüseynov 1952-ci ildə Bakı şəhərində vəfat etmiş və çox sevdiyi bu şəhərdə də dəfn olunmuşdur.

## YƏHYA ƏLİYEV

***İnsan ömrü iki yoxluq arasında bir varlıqdır. Bu varlığı -ömrü namusla, qeyrətlə, zəhmətlə, vətəni sevməklə başa vurmaq lazımdır.***

**Y.Əliyev**



Yəhya Kərbəlayı Kərim oğlu Əliyev 1896-cı ildə Şuşa şəhərində anadan olmuşdur. O, ilk təhsilini Şuşada rus-tatar məktəbində almışdır. Mükəmməl dil öyrənmək qabiliyyətinə malik olan Yəhya məktəbdə oxuyarkən artıq ərəb, fars, türk və rus dillərində sərbəst danışa bilirdi. Məktəbi uğurla başa vuran Yəhya təhsilini davam etdirmək üçün Zaqafqaziya Müəllimlər Seminariyasına göndərilir. Bu işdə

ona yaxın qohumlarından olan xeyriyyəçi həkim Əbdülkərim bəy Mehmandarov kömək edir.

Seminariyada oxuduğu bir il ərzində biliyi, bacarığı və rəftarı ilə müəllimlərinin və tələbə yoldaşlarının rəğbətini qazanmışdı. Lakin atasının ölüm xəbərini alan Yəhya təhsilini yarımçıq qoymaq məcburiyyətində qalmışdır. Çünki bu gənc maddi cəhətdən ailəsinə yardım etməli idi. O, ata ocağına qayıtmalı, anasına, bacı-qardaşlarına sahib çıxmalı idi. Axı o, ailəni dolandıra biləcək evinin ata çırağını yandıra biləcək ailənin böyük oğlu idi. Üstəlik də, əmisinin yetim qalmış üç övladının da qayğısını çəkməli idi. Elə o vaxtlarda onu Şuşada vaxtilə oxuduğu məktəbdə müəllim işləməyə dəvət edirlər. Beləliklə, gənc Yəhya uzun müddət Şuşa rus-tatar məktəbində böyük həvəslə müəllimlik edərək şagirdlərin sevimlisi oldu.

Daim öyrənmək həvəsində olan Yəhya Əliyev müntəzəm olaraq öz üzərində işləyir, dünyagörüşünü hər vasitə ilə genişləndirirdi. Beş dildə sərbəst danışan bu gənc seminariyada oxuyarkən bir sıra dilləri daha dərindən mənimsəmiş, sərbəst danışmağı, yazmağı da mükəmməl öyrənmişdi. Yəhya müəllim həmişə mütaliə edir, pedaqoji-metodiki ustalığını durmadan artırırdı. Onun pedaqoji ustalığı, uğurları respublikada geniş yayılmışdı. Təcrübəli pedaqoq və tərbiyəçi kimi tanınırdı. Yəhya müəllimə həmçinin poliqlot müəllim və Mirzə də deyirdilər. Dövlət universiteti açılarkən şərqşünaslıq fakültəsinə müəllimlik üçün dəvətdən imtina edib, Şuşada qalıb işləməyə üstünlük vermişdi.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra o, təhsilini davam etdirmək məqsədilə Şuşada fəaliyyətə başlayan müəllimlərin hazırlıq kursunu bitirdikdən sonra sistemli pedaqoji fəaliyyətə Qarabağ kəndlərindəki məktəblərdə dərs deməklə başlayır. Burada çox çətin şəraitlə üzləşir. Buna

baxmayaraq, kənddə böyüyən balaları məktəblərə cəlb edir, müxtəlif istiqamətlərdə pedaqoji işlər aparır, təhsilin vacibliyini, faydasını dönə-dönə izah edirdi. Hətta bəzi kəndlərdə ibtidai məktəblərin təşkilinə də nail olmuşdu. Məktəb, təhsil tərəfdarı olan valideynlər, uşaqlar da ona arxa durur, kömək edirdilər. Beləliklə, o, kəndlərdə savadsızlığın aradan qaldırılmasında fəal iştirakı ilə fərqlənir, tanınırdı.

Artıq respublikada savadsızlığın aradan qaldırılması üçün Azərbaycan SSR Maarif Komissarlığı tərəfindən müxtəlif rayonlardakı savadlı, təcrübəli, işgüzar yaradıcı müəllimləri Bakıya çağırırdılar. Yəhya müəllim də onların arasında idi.

Müsahibə, tanışlıq prosesində dinlənilən fikirlər müvafiq şəkildə dəyərləndirilirdi. Yəhya müəllim də təklif edirdi ki, rayonlarda savad kursları açılsın, bu kurslara gənc fəhlələr cəlb edilsin. Kursları bitirən gənclər kəndlərə göndərilsin və onlara kənd məktəbləri açmaq imkanı verilsin. Bu işdə həm maarif komissarlığı, həm də rayon rəhbərləri öz köməklərini əsirgəməsinlər. Beləliklə də, ilk təşəbbüs olaraq məhz Şuşada təhsil müddəti bir il olan fəhlə-gənclər kursları açıldı. Kursları bitirən həmin gənclər də kəndlərdə məktəb açır, səmərəli fəaliyyət göstərirdilər.

Yəhya müəllim də təhsilini artırmaq üçün Şuşa seminariyasına daxil olub 1927-ci ildə oranı bitirmiş və şəhər məktəblərində işə başlamışdı. Görkəmli şəxsiyyətlərdən Validə Tutayuq, Zakir Bağırov, Paşa Rüstəmov, Əşrəf Abbasov, Lətif İmanov və başqaları onun tələbələri olmuşlar. Lakin o, bununla da kifayətlənməyib, 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin dil və ədəbiyyat fakultəsində ali təhsil almışdır. Təbii ki, universitet təhsili onun pedaqoji təfəkkürünün inkişafında, dünyagörüşünün artmasında böyük rol oynamış, uğurlu nəticələrə zəmin yaratmışdır.

II Dünya müharibəsinin başlanması onu doğma diyarından ayırdı. İki ilə yaxın əlində silah səngərlərdə yatdı, alman faşistlərinə qarşı vuruşdu. Ukraynanın Dnepropetrovsk şəhəri uğrunda gedən döyüşdə ağır yaralandı. Uzunmüddətli müalicədən sonra vətənə döndü və doğma məktəbində işləməyə başladı. İstedadlı pedaqoq həm də lirik şair idi. Şeirlərini bir çox mətbuat səhifələrində "Yəhya Mehman" təxəllüsü ilə nəşr etdirirdi. Yəhya Əliyev bir müddət rayonda çıxan "Kolxoz bayrağı" qəzetinin ədəbiyyat şöbəsinə rəhbərlik etmişdi.

Yəhya müəllim eyni zamanda Qarabağın tarixini mükəmməl bilirdi. O, qədim Gövhərağa məscidindən ərzaq anbarı kimi istifadə olunması ilə heç cür barışa bilmirdi. Bununla bağlı lazımi təşkilatlara müraciət etməmişdi. Lakin heç bir nəticə əldə etməmişdi. Bakıya gedərək lazımi yerlərdə bu "Allah evi"ndə muzey açılması təklifinin qəbul olunması sevinci ilə geri qayıtdı. Yəhya müəllim bu mədəniyyət ocağının-muzeyin açılmasının təşkilati işlərində fəal iştirak etmişdi. Hətta öz şəxsi kolleksiyasında topladığı tarixi əşyaları muzeyə bağışlamışdı. Həmin əşyalar ən gözəl muzey eksponatları kimi sərgilənirdi.

Bununla yanaşı, o həm də bir ziyalı kimi tarixi abidələrin qorunub-saxlanılmasında da fəal iştirak edirdi. Yəhya müəllim Şuşanın ictimai həyatında da xeyli işlər görmüş və xalqın sevgisini-məhəbbətini qazanmışdı. O, Şuşa şəhər səkkizillik məktəbin valideynlər komitəsinin və 2 nömrəli yoldaşlıq məhkəməsinin, rayon ağsaqqallar şurasının sədri kimi bir sıra tədbirlərin həyata keçirilməsində, problemli məsələlərin həll olunmasında həmişə öndə gedirdi. Hər cür çətinliyə qatlaşan, qabaqcıl təşkilatçı müəllim, əsl pedaqoq Yəhya Əliyev 1984-cü ilin aprel ayında əbədiyyətə qovuşdu. O, Mir Fəseh qəbirstanlığında dəfn edilmişdir.

# ƏLİŞ BƏY SƏFİYEV

***Nə işlə məşğul olursan ol, unutma ki, sənin vətəndaşlıq borcun daha mühümdür.***

**Ə.Səfiyev**



Əliş bəy Səfiyev XIX əsrdə Qarabağda tanınmış Hacı Bünyadəli soyundandır. Onun oğlu Səfinin törəmələri Səfiyev soyadını daşıyıblar. Əliş Nadir oğlu isə Səfi Hacı oğlunun nəticəsidir.

Əliş Nadir oğlu Səfiyev 1898-ci ildə Şuşa qəzasının Kəbirli obasında anadan olmuşdur. O, ilk təhsilini molla yanında almış, sonra isə ibtidai təhsilini dayısı Rəhim bəy Novruzbəyov tərəfindən açılmış məktəbdə davam etdirmişdir. Oxumağa böyük həvəs göstərən bu gənc daha geniş təhsil almaq üçün məktəbi bitirdikdən sonra Zaqafqaziya Müəllimlər Seminariyasına gəlir və uğurla imtahandan keçərək seminariyaya daxil olur.

1917-ci ildə Ə.Səfiyev seminariyanı bitirdikdən sonra ayrı-ayrı məktəblərdə müəllim kimi çalışmışdır. Müəllimlik etdiyi illərdə xalqın ictimai siyasi şüurunun inkişafında, onların övladlarının maariflənməsində xeyli işlər görmüş və yüksək nə-

ticələr əldə etmişdir. Eyni zamanda digər Qarabağ ziyalıları kimi xalqın milli mənlik uğrunda mübarizəsi üçün müxtəlif tədbirlərin keçirilməsində, teatr tamaşaları göstərilməsində fəal iştirak etmişdir. Bununla da, o, xalqının ziyalı nümayəndəsi kimi müəllimlik və vətəndaşlıq borcunu yerinə yetirirdi. Əliş bəy Qönçə xanım Mirzə Kazım bəy qızı ilə ailə qurmuş və bu izdivacdan onun üç oğlu və iki qızı olmuşdur.

Tanınmış pedaqoq, xalqın rifahı üçün hər sahədə fəal olmağa çalışan Əliş bəy Səfiyevin haqq dünyasına qovuşması tarixi bizə məlum deyil.

## HƏSƏN HƏSƏNOV

***Xeyir fikirli insanlar, xeyirli***
***əməllər sahibi olur.***

**H.Həsənov**

Həsən Həsənov 1898-ci ildə Şuşada anadan olmuşdur. İlk təhsilini şəhər məktəbində başa vurduqdan sonra müvəffəqiyyətlə imtahan verərək Qori Müəllimlər Seminariyasına daxil olmuşdur.

O, 1916-cı ildə seminariyanı bitirdikdən sonra pedaqoji fəaliyyətə Lənkəran qəzasında başlamışdır. Müəyyən vaxtlarda digər işlərdə də işləməli olmuşdur. 1919-cu ildə Ağdama gələrək ibtidai məktəbdə sinif müəllimi kimi çalışmışdır. Bütün həyatını zəhmətkeş balalarının savadlanmasına, onlarda mənəvi dünyagörüşünün artırılmasına sərf etmiş, onların hərtərəfli inkişafı üçün gərgin əmək sərf etmişdir.

Həsən Həsənov 1920-1922-ci illərdə Ağdam Xalq Maarif Şöbəsinə rəhbərlik etmişdir. 1922-1923-cü illərdə isə II dərə-

cəli məktəbdə dərs demişdir. Ömrünü xalqının maariflənməsinə sərf edən Həsən müəllim Ağdamda müxtəlif məktəblərdə, texnikumda, institutda dərs demişdir. Onun tükənməz enerjisi sayəsində vətənə xidmət edən əsl ziyalılar yetişmişdir. O, ömrünün 40 ilini pedaqoji fəaliyyətə həsr etmişdir. Dostluğa dəyər verən Həsən müəllim ömrünün sonunadək Azərbaycanın tanınmış yazıçılarından olan Süleyman Rəhimov və Əli Vəliyevlə dostluq etmişdir.

Dəyərli pedaqoq Həsən Həsənov Ağdam şəhərində dünyasını dəyişmişdir.

## ƏYYUB İBRAHİMOV

***Xalqın, millətin milli mədəniyyətinin işıqlanması onun hürriyyəti ilə bağlıdır.***

**Ə. İbrahimov**

Əyyub İsmayıl oğlu İbrahimov 1898-ci ildə Şuşanın Malıbəyli kəndində anadan olmuşdur. O, ilk təhsilinə 1907-ci ildə başlamış və Malıbəyli kənd məktəbində oxumuşdur. Oxuduğu müddət ərzində həmin məktəb müəllimlərinin – Məmməd bəy Qarayevin, Mir Mehdi Ağamirovun, Bəylər İbrahimbəyovun, Mirabdulla Ağcabədilinin, Mirzə Hüseyn Varşabovun sevimlisinə çevrilmişdi.

Dərslərini əla oxumaqla yanaşı, həm də məktəbin direktoru Məmməd müəllimin təşəbbüsü ilə hazırlanan ədəbi-bədii gecələrin, səhnəciklərin, müsamirələrin, teatr tamaşalarının fəal iştirakçısı oldu, kiçik formalı əsərlərdə, satirik səhnəciklərdə müxtəlif rollar oynadı. Aydın, səlis danışığı, məharətli və məzmunlu ifa tərzi Əyyubu məktəb kollektivi ilə yanaşı,



həm də kənd camaatına da kiçik bir aktyor kimi tanıtdı. İştirak etdiyi xeyriyyə gecələrində əldə olunan maddi vəsait maarif işlərinə, mədəni-kütləvi tədbirlərin həyata keçirilməsinə, daha çox ehtiyacı olan şagirdlər üçün dərs vəsaiti alınmasına, müxtəlif şəhərlərdə təhsil alan azərbaycanlı tələbələrə və başqa xeyirxah işlərə sərf olunurdu.

Malıbəyli kəndinin dünyagörmüş mütərəqqi adamları, maarifi sevən, təbliğ edən ziyalıları yeri gələndə kasıb-kusuba əl tutur, şəxsi yardımlarını əsirgəmirdilər. Günlərin bir günü xeyirxah bir əl onun da qapısını döydü. Odur ki, maddi imkanı az olan İsmayıl kişi artıq məktəbi bitirən oğlu Əyyubun gələcək təhsilini davam etdirə bilməyəcəyini düşünür və narahat olurdu.

Əyyubun Qoriyə təhsil almağa göndərilməsini qərara alan məktəb müəllimlərinin kəndin ziyalıları ilə söhbətindən sonra kənddə böyük nüfuzu olan Mir Mehdi Ağamirovu (Məşə Miri ağanı) İsmayıl kişinin yanına göndərib, oğlunu ora aparılmasına icazə aldılar. Əyyubun təhsil haqqını kəndin sayılıb-seçilən adamları ilə məktəb müəllimləri birlikdə ödədilər.

Nəhayət, 1914-cü il iyulun axırlarında müəllimlərinin, kənd ağsaqqallarının və valideynlərinin xeyir-duası ilə on altı yaşlı Əyyub İbrahimov Qoriyə yola düşdü.

Anası, bacısı, qardaşları, qohum-əqrəbası ona uğurlar dilədilər, “yaxşı yol”dedilər. İsmayıl isə oğlunu araba ilə Yevlaxa qədər aparıb, oradan qatarla yola saldı...

Əyyub Qoriyə çatan kimi soraqlaşıb, Firudin bəy Köçərlini tapdı, hardan gəldiyini, kim olduğunu bildirdi, Məşə Miri ağanın salamını çatdırdı. Firidun bəy onu seminariyanın yataqxanasında yerləşdirdi, imtahanlara hazırlaşmağa şərait yaratdı, Əyyuba seminariya direktorunun adına ərizə yazdırdı, sənədlərini qəbul etdirdi. Bir neçə gündən sonra imtahanlarını uğurla verən bu Malıbəyli balası seminariyanın Azərbaycan bölməsinə daxil oldu. Bununla o, kənddəki müəllimlərinin, həm də gələcəkdə ona dərs deyəcək Firidun bəy Köçərlinin başını uca elədi.

Əyyub üç il burda təhsil aldı. Görkəmli pedaqoqlardan müəllimlik sənətinin sirlərini öyrəndi, hamıya nümunə oldu. Boş vaxtlarını səmərəli keçirdi, rus, Avropa və Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərini mütaliə elədi, vaxtaşırı teatr tamaşalarına baxdı, seminariyada keçirilən müxtəlif tədbirlərin fəal iştirakçısı oldu. İntellektual səviyyəsini durmadan artırdı. Əyyub, əsasən, sevimli müəllimi Firidun bəy Köçərlinin təşkil etdiyi bütün ədəbi-musiqili gecələrdə, pedaqoji, mədəni-kütləvi tədbirlərdə, bədii qiraət və referat müzakirələrdə müntəzəm iştirak edirdi. Bu gecələrin keçirilməsində böyük pedaqoqun məqsədi həm əxlaq və davranış qaydalarını möhkəmləndirmək, həm də onları Avropa, rus və Azərbaycan mütəfəkkirlərinin, şair və yazıçılarının yaradıcılığı ilə tanış etmək, onların əsərlərini oxumağa istiqamət vermək, həvəs və maraq oyatmaq idi. Əyyub Firidun bəyin bilavasitə rəhbərliyi altında “Sabirin əsərlərində müsəlman qızlarının ailə tərbiyəsi və ev şəraiti”, “Lermontovun lirikası” və sair mövzularda yuxarı sinif şagirdlərinin hazırladıqları referatların mü-

zakirələrinə getmiş, çıxış edərək öz mülahizələrini bildirmişdi.

1917-ci ildə üçillik pedaqoji təhsilini başa vuran Əyyub İbrahimov doğma kəndinə qayıtdı və vaxtilə şagirdi olduğu məktəbdə müəllimlik fəaliyyətinin ilk səhifələrini yazdı. Məktəbin müdiri Mir Mehdi Ağamirov, ikinci müəllimi isə Əyyub idi. Hər iki müəllim əl-ələ verərək həmkəndlilərinin balalarının təlim-tərbiyəsi ilə məşğul olurdu.

1920-ci ildə ermənilər bir çox Azərbaycan kəndləri kimi Malıbəylini də odlara qaladılar, viran qoydular, camaatı yurd-yuvalarından didərgin saldılar. Əyyubgilin də ailəsi Şuşaya pənah apardı. Çox çəkmədən Sovet hakimiyyəti quruldu və pərən-pərən düşmüş kənd camaatı öz doğma ocaqlarına qayıtdı. Həyat öz əvvəlki axarına düşdü, məktəb yenidən fəaliyyətə başladı.

Gənc müəllim elə həmin vaxtdan yenicə yaradılmış Şuşa qəza Maarif İşçiləri İttifaqına üzv yazıldı və 1920-ci ilin payızında nümunəvi və ictimaiyyətçi bir müəllim kimi Tərtərdə açılmış müəllimlər kursunun müdiri vəzifəsinə təyin olundu. Əyyub burda da fərqləndi, nümunə göstərdi, Tərtər İcraiyyə Komitəsinin sədri və bir çox dövlət qulluqçuları ilə birlikdə Aran Qarabağın kəndlərini gəzərək pedaqoji işə həvəsi olan gəncləri kursa cəlb eləməyə başladı. İki il müəllimlər kursuna rəhbərlik edən Əyyub İbrahimov 1922-ci ildə yenidən Malıbəyliyə qayıtdı.

Əyyub Malıbəyli məktəbində artıq yeni bir enerji ilə, şövqlə, xüsusi həvəslə işləyirdi. O, yalnız dərs deməklə kifayətlənmir, kənddə teatr tamaşaları, ədəbi-bədii gecələr, bir sıra mədəni-kütləvi tədbirlərin təşkilində, qadınlar şöbəsinin açılmasında, uşaq və gənclərin pioner və komsomol sıralarına yazılmasında fəallıq göstərir, ümumiyyətlə, kəndin mədəni hə-

yatının canlanmasında əlindən gələni edirdi. O, eyni zamanda kənd şurasının üzvü kimi həmişə kəndlilərin təsərrüfatlarının yaxşılaşdırılmasına çalışır, kasıb-kusubun tərəfdarı kimi çıxış edirdi. Bu vətənpərvər müəllim kənddəki alverçilərlə fəal mübarizə aparır, torpaq bölgüsünə diqqətlə yanaşır, dövlətli adamların torpağı füqaraların əlindən zorla almalarına mane olurdu. Ona görə də o, alverçilərin əl-qolunu bağlamaq üçün kənddə kooperativ də açmışdı. Bu isə ona düşmən qazandırır və onu istəməyənlər də nəyin bahasına olursa-olsun, bu yenilikçi müəllimi şərləyib tutdurmaq məqamı gözləyirdilər.

Əyyub uzun müddət müşahidə edirdi ki, böyük həmkarı Məşə Miri tez-tez mütəmadi olaraq Şuşaya səfər edir. Orada fəaliyyət göstərən ziyalılarla, ictimai xadimlərlə görüşlər keçirir, müzakirələr aparır. Məşə Miri də Əyyubun bu diqqətini və müşahidəsini sezmişdi. Odur ki, o, Şuşaya ziyarətinin səbəbini Əyyuba açıqlayır və istəyini bildirir. Əyyubun da yeni yaranan Musavat partiyasına üzv olmasını və fəal iştirak etməsi arzusunu bildirir. Geniş, aydın və dərin təfəkkürə malik gənc bu təklifi qəbul edərək 1924-cü ildə partiyaya üzv oldu. Qısa müddətdən sonra Məşə Miri ağa rəhbərlik etdiyi Malıbəyli I dərəcəli məktəbin direktorluq vəzifəsini Əyyub İbrahimova həvalə edir. Əyyub müəllim də bu etimadı doğruldur. Rəhbərlik etdiyi məktəbi Qarabağın ən nümunəvi və qabaqcıl təhsil ocaqlarından birinə çevirməklə yanaşı, şəxsi qabiliyyətləri ilə də Şuşa qəzası müəllimləri sırasında layiqli yer tuturdu.

Doğma kəndinə yenilik gətirməyə, onu daha da inkişaf etdirməyə çalışan gənc müəllim barəsində bir neçə nəfər Şuşa qəza Maarif Şöbəsinə ərizə yazıb, şikayət edir. Ərizələrdə göstərilən faktları yoxlamaq məqsədi ilə Şuşa birinci dərəcəli Bünyadiyyə məktəbinin direktoru Əbdüləli Orucov Malı-

bəyliyə göndərildi. Yoxlama bitdikdən sonra gənc müəllimin və məktəbin işində nöqsanları olmadığı üçün Əyyub heç bir cəza almır.

Bu, o dövr idi ki, artıq Musavat partiyasının Qarabağdan olan üzvlərinin həbsi başlanırdı. İşində heç bir qüsur olmasa da, 1927-ci ilin martında Əyyub İbrahimov erməni əsilli milis işçisi və onun dəstəsi tərəfindən evində həbs edildi. Onun həbsini sürətləndirmək üçün bu erməni əsilli rus milisi yalançı şahidlər tapdı. Əyyub haqqında, hətta onun yaxın adamları belə, böhtan xarakterli izahatlar verdilər, şahidlik etdilər. Məhkəmənin qərarını Dağlıq Qarabağ Muxtar Vilayətinin Siyasi İdarəsi təsdiqləyib, onu islah evinə göndərdi.

Əyyubun həbsi ailə üzvlərinin də vəziyyətini çətinləşdirdi. Bu səbəbdən də onun anası Şəkər Hüseynqızı Bakıya gələrək oğlunun nahaqdan həbs olunması və ailə vəziyyətlərini daha da ağırlaşması haqqında Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinə məktub yazır. Lakin bu məktuba baxan olmur.

Əyyub və onunla birgə həbs olunan məhbuslar "Ölüm adası" adlanan Solovkidə yerləşən həbsxanaya sürgün edilir. Ağ dənizin soyuğuna dözə bilməyən Əyyubun səhhəti daha da pisləşir. Sürgün həyatının mənəvi və fiziki əziyyəti bu ziyalı, işıqlı təfəkkür sahibi olan gənc Əyyub İbrahimovun 1929-cu il aprelin 27-də 31 yaşında sürgündə dünyasını dəyişməsinə səbəb oldu.

## Seminariya məzunlarının Azərbaycan maarifi və mədəniyyətinin inkişafında rolu

***Şərəflə ömrünü sərf ei maarif uğrunda;***
***gözətlə izzəti-nəfsin, unutma vicdanı.***
**Əliağa Vahid**

Qori seminariyasını bitirən məzunlar Azərbaycan maarifinin, təhsilinin, mədəniyyətinin inkişafı, tərəqqisi yolunda müstəsna rol oynadılar. Millətimizin azadlıq və istiqlaliyyət uğrunda mübarizəsinin önündə getdilər. Həmin dövrdə Azərbaycanın ilk pedaqoji təhsilli ziyalıları-Qori seminariyasının məzunları çar hökumətinin xalqlar arasında yaratdığı milli ədavətə qarşı mübarizə aparır, xalqın maariflənməsi, mədəni inkişafı istiqamətində təxirəsalınmaz işlər görürdülər. Onlar xalqlar arasında dostluğu təbliğ edir, vətənpərvərlik nümunəsi göstərirdilər. Azərbaycanın ayrı-ayrı kənd və rayonlarında dünyəvi təhsil, yeni məktəb, ana dili uğrunda mübarizə aparır, rus dilini kütləvi şəkildə yaymağa çalışırdılar.

Buna zərurət yaranmışdı. Çünki bir tərəfdən çar üsul-idarəsi, digər tərəfdən isə dünya ədəbiyyatının, elmi və tarixi kitabların rus dilində olması onları bu məcburiyyət qarşısında qoyurdu. Rus dilinin Azərbaycan maarifi və mədəniyyətinin inkişafına mütərəqqi təsiri Azərbaycanın görkəmli maarifpərvər ziyalıları tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Rus dili və mədəniyyətini təbliğ edən görkəmli maarifpərvərlər sırasında Həsən bəy Zərdabi Rusiya-

da təhsil alarkən rus inqilabçılarının əhatəsində inkişaf etmiş, alim, naşir kimi tanınmışdır. O, vətənə qayıtdıqdan sonra bir sıra maarifçilik işləri ilə məşğul olmuşdur. Tarix və ədəbiyyat dərsləri demiş, milli mətbuatın bünövrəsini qoyaraq "Əkinçi" qəzetini nəşr etdirmişdir. "Kaspi" qəzetində çalışmışdır. Onun maarifçilik fəaliyyəti sonrakı nəslin formalaşmasına qüvvətli təsir göstərmişdir. Ziyalıların rus dilini bilmələri və rus mədəniyyəti ilə yaxından tanışlığı, xalq arasında demokratik ideyaları maarifçilik fəaliyyəti ilə əlaqələndirib yaymağa daha geniş imkan yaradırdı. Azərbaycan maarifpərvərləri, ilk növbədə, çalışırdılar ki, dindarların mənfi fikirlərini və münasibətlərini aradan qaldırsınlar. Belə bir şəraitdə Azərbaycanın ilk pedaqoji təhsilli maarifpərvərləri, Qori seminariyasının məzunları bu psixoloji səddi aradan qaldırmaq üçün ilk olaraq oğlan və qız məktəbləri açdılar. Əllərində ana dilində heç bir ədəbiyyat olmayan bu müəllimlər rus şair və yazıçılarının əsərlərini tərcümə edib, Azərbaycan balalarına təhsil verirdilər. Onların tərcümə etdikləri əsərlər arasında A.S.Puşkinin "Balıqçı və qızıl balıq", İ.Krılovun "Uşaq və ilan" hekayələri də var idi. Çar hökuməti qeyri-rus xalqları üçün məktəb və seminariya açarkən onları ruslaşdırmaq məqsədi güdürdü. Qabaqcıl fikrin baş qaldırdığı yerdə onu boğmağa, təqib etməyə çalışırdılar. Lakin bu missionerlərin açdıqları yeni məktəblərin çoxu, əksinə, Qafqaza sürgün edilmiş rus inqilabçılarının və demokrat pedaqoqlarının təsiri altında inqilabi hərəkatın mərkəzlərinə çevtilmişdi. Buna görə də Zaqafqaziya Müəllimlər Seminariyasının məzunları qabaqcıl rus mədəniyyəti və ictimai fikrinə əsaslanaraq öz ölkələrinin mədəniyyətini irəli aparıb inkişaf etdirməyə çalışırdılar. Çar hökumətinin

ruslaşdırma siyasəti özülsüz olduğu üçün get-gedə aradan çıxır, heç bir fayda vermirdi. Əksinə, rus dili, rus və Azərbaycan xalqları arasında dostluq telləri yaradaraq onların mübarizələrinin məqsəd və vəzifələrini daha yaxşı başa düşməyə kömək edirdi. Bu işdə qabaqcıl rus və demokrat pedaqoqların böyük rolunu, məqsədəmüvafiq fəaliyyətlərini də unutmaq olmaz.

Qabaqcıl rus pedaqoji fikrini, K.D.Uşinski ideyalarını Azərbaycan pedaqoji fikrinə A.O.Çernyayevski kimi demokrat pedaqoqlar gətirmişlər. Onların sayəsində Azərbaycan ziyalılarından böyük bir nəsil yetişmişdi. F.Köçərli, S.Vəlibəyov, R.Əfəndiyev, Ü.Hacıbəyli, M.Mahmudbəyov, H.Minasazov, S.S.Axundov, M.Maqomayev, C.Acalov, P.Qasımov, Ə.Seyidov və başqaları xalqın məhəbbətini qazanmışdı.

Buradan aydın olur ki, Zaqafqaziya Müəllimlər Seminariyasında xəlqilik ideyası əsasında formalaşan müxtəlif millətlərin nümayəndələri şovinizmə və millətçiliyə qarşı çıxmış və mili iftixar hissini inkişaf etdirməklə digər xalqlara da ehtiramla yanaşmışlar.

Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi məzunlarının ən böyük xidmətlərindən biri onların vətənimizin müxtəlif guşələrindəki müəllimlik fəaliyyətləridir. Onlar müəllimlik etməklə yanaşı, dərsliklər tərtib edir, tez-tez mətbuat səhifələrində çıxış edərək maarifin inkişafı, təlim-tərbiyə ilə bağlı məsələlər haqqında məqalələr nəşr etdirirdilər. İnsanların mənəvi zənginliklərinin artmasına kömək edən bədii əsərlərlə də çıxış edirdilər. Onlar Azərbaycan kəndlərinə quraqlıqdan çatlayan torpağa lazım olan yağış damlaları qədər gərəkli idilər.

Zaqafqaziya Müəllimlər Seminariyasını bitirən müəllimlər istər çar hökuməti dövründə, istərsə də Sovet hakimiyyəti qurulana qədər və ondan sonrakı dövrdə də cəhalətlə mübarizə aparmaq, savadsızlığı aradan qaldırmaq üçün xalqın maariflənməsi, onların rifahı naminə çox böyük əhəmiyyətli işlər görmüşlər. Onlar müəlllimlik məsuliyyətini şərəflə qorumuş, çətin mühitdə bu işin öhdəsindən layiqincə gəlmişlər.

Böyük pedaqoq, maarifpərvər Firidun bəy Köçərlinin fikirlərini Zaqafqaziya Müəllimlər Seminariyasını bitirən məzunlara şamil etmək daha doğru olar: ***"Düşünürəm ki, xalqım məni unutmayacaq. Çünki ömrümü xalqımın övladlarının maariflənməsinə, savadlanmasına həsr etmişəm".***

Bəli, əsl müəllimin özü də əsl insan kimi həqiqət, ədalət təbliğatçısı olmalıdır. Yalnız bu halda onun sözləri yetirmələri tərəfindən qəbul olunar, mənimsənilər, xalq arasında özündən sonra əbədi abidə qoyar.

Doğrudan da, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin məzunlarının demək olar ki, hamısı bu əqidədə olub, xalqının maarif və mədəniyyətinin müxtəlif sahələrində böyük xidmətlər göstəriblər. Məzunlar sırasında fəxri yer tutan C.Məmmədulızadə, N.Nərimanov, S.S.Axundov, Ü.Hacıbəyli və başqaları görkəmli şəxsiyyətlər kimi adları dünyanın müxtəlif ölkələrində tanındı. Çar hökuməti dövründə dünyəvi təhsil uğrunda mübarizə aparan bu fədailər Azərbaycanın ucqar kəndlərində, qəzalarında qız və oğlan məktəbləri açmaqla böyük işlər gördülər. Lakin onların bu xeyirxah işlərini istəməyən çar məmurları onlar haqqında saxta məlumatlar toplayır, hər addımını izləyir, başqa bəhanə tapa bilmədiklərindən islam dininə qarşı çıx-

maqda, dinsiz işlər görməkdə ittiham edir, sui-qəsdlər hazırlayırdılar. Çar hökuməti xalq tərəfindən sevilən, uşaq və gənclərin rəğbətini qazanan bu maarifpərvər ziyalılıarı, maarif xadimlərini müxtəlif bəhanələrlə hörmətdən salmağa, qorxutmağa, doğru yoldan çəkindirməyə çalışırdılar. Çar hökuməti beləlırini tez işdən azad edir və onların yerinə mürtəce din xadimlərini təyin edirdilər. Bir sözlə, müəllimlərin üzərində “Kənd starşınası”, “Xalq məktəbləri inspektoru” kimi nəzarətçilər təyin edilirdi. Onlar müəllimlərin hər addımını izləyir, xeyirxah işlərinə mane olmağa, hər vəchlə əyri yola çəkməyə çalışırdılar. Təbii ki, belə maneələr, təkliflər xalq müəllimlərini bu doğru yoldan, xeyirxah əməldən uzaqlaşdıra bilmirdi. Onlar çar üsul-udarəsinin dəhşəti qarşısında əyilmirdilər və xalqı işıqlı yola çıxartmaq üçün var qüvvələri ilə, heç nədən qorxmadan, çəkinmədən öz işlərini davam etdirirdilər.

Qori seminariyasını bitirən məzunlar müəllimlərə xas olan bütün keyfiyyətləri şəxsi nümunələrində, əməli fəaliyyətlərində əks etdirirdilər.

Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin təxminən 250 nəfərdən çox məzunu sanki Azərbaycan məktəblərində yanar bir məşəl idi. Bu məşəlin işığı Azərbaycanın bütün bölgələrini nura qərq edirdi. Ölkədə savadsızlıq aradan qaldırılır, yeni məktəblər açılır, təhsil alanların sayı gündən-günə artır, milli şüur, milli düşüncə dəyişir, inkişaf edir, milli maarifçiliyə yol açılırdı. Məzunların ən böyük xidmətlərindən biri də yeni tipli məktəblərin ərsəyə gətirilməsi və bu məktəblərdə yeni təlim üsulları ilə dərslərin, sinifdənxaric məşğələlərin aparılması idi. Belə ki, onlar fonetik üsula üstünlük verib, təlimin düzgün aparılma-

sı üçün xüsusi təlim proqramlarının hazırlanmasına və dərsliklərin yazılmasına nail olurdular. Seminaristlərin maarifçiliyin beşiyi sayılan Şuşada milli məfkurəyə, milli düşüncəyə malik ziyalıların, habelə təhsilin inkişafında yorulmaz fəaliyyəti danılmazdır, yeri gəldikcə dəyərləndirilir.

Ümumiyyətlə, Qori məzunları bir-birinə o qədər yaxın tellərlə bağlı olmuşlar ki, həmişə bir-birinin işindən, fəailiyyətindən xəbərdar olmuş, lazım gələn halda kömək əllərini uzatmışlar. Möhkəm əqidəli bu mütərəqqi ziyalıları Azərbaycan xalqı heç vaxt unutmayacaq.

## İstifadə edilmiş ədəbiyyat


1. Abbasov Zahid Şuşa Azərbaycanın mədəniyyət və tarix incisidir. “E.L.” Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, Bakı, 2010, səh.96
2. Azərbaycan" qəzeti Arxivləşdirilib. 2008-09-17
3. Böyük elm ocağı Şuşa Realnı Məktəbi. <https://news.milli.az/culture/136296.html>
4. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Maarif, 1985
5. Əhmədov H. Zaqafqaziya Müəllimlər Seminariyası Azərbaycan Şöbəsi 130, (1879-2009), 2009, 59 səh.
6. Əmirov Fikrət. “Musiqi səhifələri”, Bakı, 1978, səh. 81-82
7. Köçərli. F. Seçilmiş əsərləri, Bakı, Azərbaycan Respublikası EA nəşri, 1963, 341səh
8. Mərdanov M. Azərbaycanın təhsil tarixi. "Təhsil" nəşriyyatı, 2011-ci il. Bakı, I cild, 295 s.
9. Mikayılova K. Qarabağın təhsil tarixi, Bakı, 2021. 136 səh
10. Muradova Z. Şuşa: Hər daşı-qayası tarix, Bakı, 2022. 416 səh
11. Seyidov Ə.Y.Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən. Bakı: Maarif,1987.
12. Seyidov F. Azərbaycan Müəllimlərinin hazıranmasında Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının rolu. Bakı,1960, 120 s.
13. Seyidov F.Ə. Qori Müəllimlər Seminariyası və onun məzunları. Bakı: Maarif, 1988.
14. Üzeyir Hacıbəyli. Əsərləri. II cild, Bakı, 1965, səh. 209.

# M Ü N D Ə R İ C A T

Cənubi Qafqazın maarifçilik tarixində Qori seminariyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
Seminariyanın nəzdində ibtidai təhsilin praktik müəllim hazırlığında rolu . . . . . . . . . . . . . . . . . . . . . . . . . .11
Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinin yaranma zərurəti . . . . . . . . . . . . . . . . . . . . . . . .22
Seminariyanın Azərbaycan şöbəsinin Qazaxa köçürülməsində Firidun bəy Köçərlinin rolu . . . . . . . . . .37

***Zaqafqaziya Müəllimlər Seminariyasının şuşalı məzunları***

Firidun bəy Köçərli . . . . . . . . . . . . . . . . . . . . . . . . . .43
Əbdüləli bəy Muxtarov . . . . . . . . . . . . . . . . . . . . . . .50
Zəkəriyyə bəy Aslanov . . . . . . . . . . . . . . . . . . . . . . .52
Bahəddin bəy Köçərli . . . . . . . . . . . . . . . . . . . . . . . .55
İsmayıl bəy Şəfibəyov . . . . . . . . . . . . . . . . . . . . . . .56
Mirzə Şərif Mirzəyev . . . . . . . . . . . . . . . . . . . . . . . .57
Səfərəli bəy Vəlibəyov . . . . . . . . . . . . . . . . . . . . . . .61
Camal bəy Fətəlibəyov . . . . . . . . . . . . . . . . . . . . . . .70
Qasım Qasımov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .72
Muxtar bəy Muradov . . . . . . . . . . . . . . . . . . . . . . . . .73
Məhəmməd bəy Tahirov . . . . . . . . . . . . . . . . . . . . . .76
Əliş bəy Tahirov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .77
Mehdi bəy Mehdibəyov . . . . . . . . . . . . . . . . . . . . . . .78
Həsən bəy Bağırbəyov . . . . . . . . . . . . . . . . . . . . . . . .79
Əbdüləli bəy Vəlibəyov . . . . . . . . . . . . . . . . . . . . . . .80
Rəsul bəy Tahirov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .82
Musa Quliyev . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .83
İldırım bəy Şərifbəyov . . . . . . . . . . . . . . . . . . . . . . . .84

Rüstəm bəy Axundov . . . . . . . . . . . . . . . . . . . . . . . . .85
Salman bəy Məlikyeqanov . . . . . . . . . . . . . . . . . . . . .87
Yəhya Hacıbəyov (Qarabaği) . . . . . . . . . . . . . . . . . . .88
Süleyman Sani Axundov . . . . . . . . . . . . . . . . . . . . . . .89
Bədəl bəy Bədəlbəyli . . . . . . . . . . . . . . . . . . . . . . . . .93
Salman bəy Əlibəyov . . . . . . . . . . . . . . . . . . . . . . . . .96
Əliş bəy Gülməmmədov . . . . . . . . . . . . . . . . . . . . . . .97
Fərhad bəy Köçərli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .98
Qənbər bəy Tahirov . . . . . . . . . . . . . . . . . . . . . . . . .100
Fərhad Ağazadə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .101
Abdulla bəy Məlikaslanov . . . . . . . . . . . . . . . . . . . .106
Azad bəy Əmirov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .107
Abbas bəy İsmayılbəyov . . . . . . . . . . . . . . . . . . . . . .114
Ağalar bəy Hacıbəyov . . . . . . . . . . . . . . . . . . . . . . . .119
İbrahim Səfərov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .120
Mirzə Vəli İsmayılov . . . . . . . . . . . . . . . . . . . . . . . .121
Üzeyir bəy Hacıbəyli . . . . . . . . . . . . . . . . . . . . . . . .122
Zülfüqar bəy Hacıbəyov . . . . . . . . . . . . . . . . . . . . . .135
Həsən bəy Fətəlibəyov . . . . . . . . . . . . . . . . . . . . . . .140
Yusif Əliyev . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .142
Həşim bəy Nərimanbəyli . . . . . . . . . . . . . . . . . . . . . .148
Müseyib İlyasov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .149
İsfəndiyar Hacıyev . . . . . . . . . . . . . . . . . . . . . . . . . .150
Yusif Hacıyev . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .152
Məhiş Hüseynov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .153
Yəhya Əliyev . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .155
Əliş bəy Səfiyev . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .159
Həsən Həsənov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .160
Əyyub İbrahimov . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .161
Seminariya məzunlarının Azərbaycan maarifi və mədəniyyətinin inkişafında rolu . . . . . . . . . . . . . . . . .167

Yığılmağa verilmişdir: 07.12.2022
Çapa imzalanmışdır: 13.12.2022
Şərti çap vərəqi 11
Format 60X84 1/16
Tirajı 300

Kitab "Orxan" Nəşriyyat və Poliqrafiya
müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
e-mail: orxan.npm@gmail.com

"Orxan" Nəşriyyat və Poliqrafiya
müəssisəsi:
Direktor: Cəfər Əzizoğlu

Ünvan: Bakı şəhəri
Dərnəgül qəsəbəsi, 3105-ci məhəllə
Tel:(+99412) 562 83 03
Tel:(+99412) 561 58 33